

## Qafqazda yeni təxribat planı hazırlanır

*Son günlər Gürcüstanda azərbaycanlılara qarşı müəyyən təxribatlar həyata keçirilir. Azərbaycanlıların yaşadığı Kvemo -Kartili regionunda etnik və dini müstəvidə gürcü ruhanilərinin qızışdırıcı bəyanatlarına rast gəlirik. Bundan əlavə, "Keşikdağ" məbəd kompleksində gürcü tərəfdən yeni provakasiyaların olacağı vurğulanır. Bu barədə "Unikal" qəzetinə açıqlama verən politoloq Məhəmməd Əsədullazadə deyib ki, Gürcüstanda baş verən bu proseslərdə müəyyən...*

Səh.13


# Unikal

№17 (2012) 05 iyun 2020-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.org unikal-1@mail.ru




## İlham Əliyev: "Korrupsiyaya qarşı mübarizədə qalib gələcəyik"

"Deyə bilərəm ki, mənim ünvanıma gələn minlərlə məktubda korrupsiya, rüşvətxorluq ilə bağlı bizim mübarizə çox yüksək qiymətə layiq görülür"

*Unikal.org xəbər verir ki, bunu Prezident İlham Əliyev iyunun 3-də Ağcabədidə "ASAN Həyat" kompleksinin açılışından sonra ASAN könüllüləri ilə görüşdə deyib.*

*"Vətəndaşlar bunu təqdir edir, bəyənir və biz görürük ki, yerlərdən artıq siqnallar gəlməyə başlayır. Mən bir daha demək istəyirəm ki, mütləq ictimai nəzarət olmalıdır. Məmur özbaşınalığı ilə bağlı hər bir siqnal araşdırılacaq. Təbii ki, bu siqnallar ədalətli olmalıdır. Burada da hansısa qarayaxma kampaniyasına yol vermək olmaz və kortəbii yanaşmaq olmaz. Hər bir siqnal ciddi araşdırılacaq. Çünki istisna deyil ki, kimsə yalandan ortalığa bir məlumat ata bilər, kiminsə kimdənsə xoşu gəlmir, onun haqqında nəsə yaza bilər...*

Səh.2

Səh.3



## Ölkədə karantin rejimi sərtləşdirildi

## "Üzdə şüar deyib, arxada başqa işlərlə məşğul olmaq olmaz"



*"Mən bir neçə dəfə maliyyə amnistiyası, gəlir deklarasiyası haqda mətbuata danışmışam, bu haqda qanunlar qəbul edilməlidir və icra olunmalıdır". "Unikal"ın məlumatına görə, bunu "Azadlıq" radiosuna müsahibəsində Milli Məclisin deputatı Vahid Əhmədov söyləyib. Onun sözlərinə görə...*

Səh.4

## Korruspiyadan "beş", tarixdən "iki" alan icra başçılarımız



*İki gün öncə, iyunun 3-də Prezident Tərtərdə Dövlət Rəmzləri Muzeyinin açılışında iştirak edib. Rayon icra hakimiyyətinin başçısı Müstəqim Məmmədov ölkə rəhbərinə muzeydə nümayiş etdirilən eksponatlar barədə məlumat verib. Bildirilib ki, inşasına 2019-cu ilin aprel ayında başlanmış...*

Səh.8

## Elman Rüstəmovun yanlış diaqnozu...



*2015-ci ildə baş verən iki devalvasiyadan bu yana Azərbaycanın bank sektoru çətin günlər yaşayır. Aradan keçən müddətdə çoxsayda bankın fəaliyyəti dayandırılıb: onlar ya ləğv edilib, ya da digərlərinə birləşdirilib. Bu yaxınlarda daha dörd bankın fəaliyyəti dayandırıldı. Ekspertlər isə sözügedən sektorda sağlamlaşdırmanın...*

Səh.6

# İlham Əliyev: “Korrupsiyaya qarşı mübarizədə qalib gələcəyik”

*"Deyə bilərəm ki, mənim ünvanıma gələn minlərlə məktubda korrupsiya, rüşvətxorluq ilə bağlı bizim mübarizə çox yüksək qiymətə layiq görülür"*



***Unikal.org xəbər verir ki, bunu Prezident İlham Əliyev iyunun 3-də Ağcabədidə “ASAN Həyat” kompleksinin açılışından sonra ASAN könüllüləri ilə görüşdə deyib.***

”Vətəndaşlar bunu təqdir edir, bəyənir və biz görürük ki, yerlərdən artıq siqnallar gəlməyə başlayır. Mən bir daha demək istəyirəm ki, mütləq ictimai nəzarət olmalıdır. Məmur özbaşınalığı ilə bağlı hər bir siqnal araşdırılacaq. Təbii ki, bu siqnallar ədalətli olmalıdır. Burada da hansısa qarayaxma kampaniyasına yol verməmək olmaz və kortəbii yanaşmaq olmaz. Hər bir siqnal ciddi araşdırılacaq. Çünki istisna deyil ki, kimsə yalandan ortalığa bir məlumat ata bilər, kiminsə kimdənsə xoşu gəlmir, onun haqqında nəsə yaza bilər, belə hallar da var. Ona görə, ilk növbədə, ədalət və ictimai nəzarət təmin edilməlidir. Əminəm ki, biz korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizədə də qalib gələcəyik”, - deyə dövlət başçısı bildirib.

# Ali Məhkəmənin qərarı ləğv edildi

***Fərhad Abdullayevin sədrliyi ilə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun konstitusiya məhkəmə icraatı qaydasında növbəti açıq məhkəmə iclası keçirilib.***

Unikal.org xəbər verir ki, Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən verilən məlumata görə, iclasda A.Kərimov və qeyrilərinin şikayəti üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati-İqtisadi Kollegiyasının 2019-cu il 9 iyul tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair konstitusiya işinə baxılıb.

Konstitusiya Məhkəməsinin Plenumu iş üzrə hakim K.Şəfiyevin məruzəsini, ərizəçinin nümayəndələrinin, vəkilinin və mütəxəssislərin çıxışlarını, ekspertin rəyini dinləyib, işin materiallarını araşdırıb müzakirə edərək qərar qəbul edib.

Qərarda deyilir ki, N.Aləmmədzadə və qeyrilərinin Azərbaycan Respublikası Dövlət Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 9 saylı Ərazi İdarəsinə və üçüncü şəxslər A.Kərimov və qeyrilərinə qarşı sonuncuların mülkiyyətinə 0,03 və 0,07 hektar torpaq sahələrinin verilməsinə əsas olmuş Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 2001-ci il 26 fevral tarixli 3 nömrəli qərarının onlara aid hissədə ləğv edilməsi, “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə”lərin ləğv edilməsi öhdəliyinin cavabdeh idarənin üzərinə qoyulmasına dair inzibati iş üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati-İqtisadi Kollegiyasının 2019-cu il 9 iyul tarixli qərarı Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsinə və 60-cı maddəsinin I hissəsinə, Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 91-ci və 96.5.1-ci maddələrinə uyğun olmadığından qüvvədən düşmüş hesab edilsin. İşə bu Qərarda göstərilən hüquqi mövqelərə uyğun olaraq Azərbaycan Respublikasının inzibati və mülki prosessual qanunvericiliyi ilə müəyyən edilmiş qaydada və müddətdə yenidən baxılsın.

Qərar dərc edildiyi gündən qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz.

Baş redaktor:
Zaur Əhməd

“Turanbank” ASC Binəqədi filialı.
h/h AZ74TURA41040011963500110944
M/h AZ26NAB01350100000000027944
Kod: 50462
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və “Futbol+” servis mətbəəsində çap olunmuşdur
Sifariş 252.
Tiraj:2500



# Operativ Qərargah: İş vaxtını saat 14:00-da yekunlaşdırın

***“Cümə günü saat 14:00-dək işləmək dövlət qurumlarına aiddir”.***

Bunu TƏBİB-in İdarə Heyətinin sədri Ramin Bayramlı deyib.

O bildirib ki, özəl qurumlara da iş vaxtının qısaldılması ilə bağlı tövsiyə olunub: “Xahiş edirik ki, özəl müəssisələr mümkün qədər cümə günü iş vaxtını saat 14:00-da yekunlaşdırsınlar”.

# Sahibə Qafarova koronavirusla bağlı xalqa müraciət etdi

***Milli Məclisin Sədri Sahibə Qafarova həftə sonu sərt karantin rejiminin tətbiq olunması ilə bağlı vətəndaşlara müraciət edib.***



“Unikal” xəbər verir ki, müraciətdə deyilir: “Əziz və hörmətli həmvətənlərim! Bütün dünyada olduğu kimi, ölkəmizdə də koronavirusa və bu virusun millətimizin hər bir fərdi üçün yaratdığı hədələrə qarşı hərtərəfli mübarizə aparılır. 2020-ci fevral ayından başlayaraq ölkəmizdə görülməyə başlanan koronavirus infeksiyasının qarşısının alınması məqsədilə dövlətin bütün qərəkli qurumları səfərbər olmuşdur. Cənab Prezident bu virusun ölkəmizə verə biləcəyi zərəri minimuma endirmək üçün ciddi siyasi iradə ortaya qoymuş və effektiv tənzimləmə mexanizminin formalaşdırılması üçün müvafiq göstərişlər vermişdir.

Görülmüş tədbirlər müsbət nəticələr versə də, aprelin 27-dən xüsusi karantinin rejiminin mərhələli şəkildə yumşaldılması və təəssüflər olsun ki, müəyyən olunmuş qaydalara və təcrid tövsiyələrinə riayət edilməməsi son günlər infeksiyaya yoluxanların sayının kəskin artması ilə nəticələnmişdir. Buna görə də Operativ Qərargahın qərarı ilə 6 iyun saat 00:00-dan 8 iyun saat 06:00-dək aktiv yoluxma hallarındakı artım səbəbindən Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərində və Abşeron rayonunda sərt karantin rejimi tətbiq olunacaq.

Qərarda göstərilən tələblərə riayət edilməsinin mütləq olmasını nəzərə alaraq, hər bir həmvətənimdən bir ana, bir azərbaycanlı və Milli Məclisin Sədri olaraq xahiş edirəm: millətimizin bu bəladan ən qısa müddətdə xilas olması üçün üzərinizə düşən mühüm missiyanı yerinə yetirin - qoyulmuş tələblərə və verilmiş tövsiyələrə riayət edin, özünüzü, ailə fərdlərinizi və yaxınlarınızı, həmçinin ətrafınızda olan insanları düşünün və bu bəlanın daha geniş vüsət almasına imkan yaratmayın”.

***Hüseyn***

# “Unikal” ailəsinin 10 yaşı tamam oldu

***İyunun 6-da Bu gün “Unikal” qəzeti və “Unikal.org” xəbər portalının fəaliyyətə başlamasının 10 ili tamam olur.***




Media qurumları ilk dəfə oxucularla görüşə 2010-cu il iyunun 6-da gəlib. Artıq altı ildən çoxdur ki, “Unikal” qəzeti Azərbaycan Prezidenti Yanında Kütləvi İnformasiya Vasitələrinə Dəstək Fondundan maliyyələşir və layihə icra edir.

Uzun illər gündəlik olaraq nəşr olunan, artıq həftəlik 24 səhifə ilə çap olunan qəzet və “Unikal.org” fəaliyyətə başladığı gündən oxucuların qarşısına ölkədə və dünyada baş verən dəqiq, operativ xəbərlər, siyasi və iqtisadi təhlillərlə çıxır. Artıq ölkə gündəmini müəyyənləşdirən, ictimai rəyə təsir edən hər iki media qurumu ölkə KİV-inin ön sıralarında yer alıb. Xüsusi qeyd edə bilərik ki, hazırda qəzetin və saytın oxucuları müxtəlif sosial qrupları təmsil edən auditoriyadan ibarətdir.

“Unikal” qəzeti və “Unikal.org” saytı Azərbaycanda fəaliyyət göstərən ictimai-siyasi təşkilatlar, sosial qruplar, dövlət qurumları ilə əməkdaşlıq edir.

Onu da qeyd edtmək lazımdır ki, Unikal.org xəbər portalının gündəlik oxucu auditoriyası 50-60 min civarındadır. Portalın sosial şəbəkələrdəki aktivliyi də yüksək səviyyədədir. Belə ki, portalın facebookda 140 minlik səhifəsi, 350 minlik qrupu, İnstagramda 120 minlik hesabı fəaliyyət göstərir.

“Unikal”ın kollektivinin əsas devizi özəl, operativ, tərəfsiz xəbər istehsal etmək, 24/7 oxucuların xidmətində olmaqdır.

***Zaurə***

# TƏBİB buraxılış imtahanlarına hazırlaşanlara müraciət etdi

***Dövlət İmtahan Mərkəzi (DİM) buraxılış imtahanlarının vaxtını dəyişdirib.***

“Unikal”ın məlumatına görə, bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində TƏBİB-in xəstəliklərin profilaktikası və nəzarəti şöbəsinin müdiri Yaqut Qarayeva bildirib.

“6 və 7 iyun tarixlərində nəzərə tutulan buraxılış imtahanları 10, 11 iyun tarixlərinə keçirilib”.

O qeyd edib ki, imtahanların keçirilməsi zamanı riayət ediləcək təlimat hazırlanıb: ”Qaydalarda abituriyentlərin davarnışları, imtahanların hansı şəraitdə keçirilməsi qeyd edilib. İmtahanlar zamanı valideynlər sosial məsafəni gözləməlidirlər. Şagirdər və valideynlərin koronavirusla bağlı test olunub-olunmayacağı barədə suallar verilir. Bu, nəzərdə tutulmayıb. Xəstəlik əlamətləri olan, xaricdən gələn insanlar test olunur. Abituriyenlər və valileynlərin test olunması nəzərdə tutulmayıb”.

Y.Qarayeva abituriyent valideynlərinə müraciət edərək, səbrli olmağı tövsiyə edib.

# Bu şəxslərə həftəsonları şəxsi maşınlarından istifadəyə icazə veriləcək

***icaze.gov.az saytınada qeydiyyatdan keçən bütün işçilər, o cümlədən televiziya əməkdaşları öz fərdi avtomobilərindən istifadə edə biləcəklər.***

“Unikal”ın məlumatına görə, bunu Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) sədri Ramin Bayramlı Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində deyib.

Onun sözlərinə görə, bu halda həmin şəxslər avtomobildə özündən başqa şəxsi daşıya bilməz:

”Vətəndaşlarımız bundan sui-istifadəyə yol verməməlidirlər. Avtomobili olmayanlar iş yerlərinin resursları hesabına işə gəlməlidirlər. Buna imkan olmayan halda müvafiq müraciətlər edilə bilər”.

# Ölkədə karantin rejimi sərtləşdirildi

## Baş nazir karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi qaydalarına əsasən qərar verib



***Baş Nazir Əli Əsədov Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərinin və Abşeron rayonunun ərazisində xüsusi karantin rejiminin sərtləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə "Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yoluxucu, parazitar və kütləvi qeyriyoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları"na əsasən qərar verib.***

"Unikal"ın məlumatına görə, Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərinin və Abşeron rayonunun ərazisində yeni növ koronavirus (COVID-19) infeksiyasının yayılma sürətinin azaldılması, habelə onun törədə biləcəyi fəsadların minimuma endirilməsi məqsədilə xüsusi karantin rejiminin sərtləşdirilməsini təmin etmək üçün 2020-ci il 6 iyun saat 00:00-dan 8 iyun saat 06:00-dək aşağıdakı məhdudiyyətlər tətbiq edilsin:

1.1. Aşağıda qeyd edilənlər istisna olmaqla, bütün iş, xidmət, o cümlədən ticarət sahələri üzrə fəaliyyət dayandırılsın:

1.1.1. siyahısı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyənləşdirilən dövlət orqanlarının (qurumlarının) və digər təşkilatların fəaliyyəti;

1.1.2. xəstəxanalar və təcili tibbi yardım müəssisələrinin fəaliyyəti;

2 1.1.3. sosial xidmət müəssisələrinin fəaliyyəti, o cümlədən əqli və hissiyat pozuntusu olan, habelə xüsusi qayğıya ehtiyacı olan şəxslər üçün baxıcılıq xidməti;

1.1.4. kommunal xidmətlər (su təchizatı və kanalizasiya, qaz təchizatı, istilik təchizatı, enerji paylanması, məişət tullantılarının yığılması və utilizasiyası);

1.1.5. elektrik enerjisinin istehsalı və təchizatı;

1.1.6. meliorasiya və su təsərrüfatı;

1.1.7. rabitə xidmətləri;

1.1.8. teleradio yayımçılarının (televiziya və radio kanalları, kabel televiziyaları) fəaliyyəti;

1.1.9. dəmir yolu, avtomobil, dəniz, hava nəqliyyatı ilə yük daşımaları;

1.1.10. boru kəmərləri ilə nəqliyyatın təmin edilməsi fəaliyyəti;

1.1.11. fasiləsiz istehsalat fəaliyyəti (istehsalat-texniki şərtlərə görə fəaliyyətinin dayandırılması mümkün olmayan müəssisələr);

1.1.12. neft və qazın hasilatı, emalı, saxlanması və satışı;

1.1.13. fəaliyyəti dayandırılmış iş və xidmət sahələrinin mühafizə və texniki təhlükəsizliyinin təmin edilməsi üzrə xidmətləri.

1.2. Bu Qərarın 1.1.1-1.1.13-cü yarımbəndlərində nəzərdə tutulan iş və xidmət sahələrində fəaliyyət göstərən şəxslər istisna olmaqla, digər şəxslərin yaşayış yerlərini və ya olduğu yerləri tərk etməsi qadağan edilsin və onların həmin yerləri tərk etməsinə aşağıdakı müstəsna hallarda icazə verilsin:

1.2.1. həyat və sağlamlığa bilavasitə təhlükəli vəziyyət yarandıqda (təxirəsalınmaz tibbi yardım yalnız təcili tibbi yardım xidməti vasitəsilə);

1.2.2. yaxın qohumların dəfnində iştirakla əlaqədar.

1.3. Xüsusi təyinatlı, qəza-bərpa, təcili tibbi yardım və fəaliyyətinə icazə verilmiş orqanlara (qurumlara) və təşkilatlara məxsus xidməti avtomobillər istisna olmaqla, bütün digər avtomobillərin və ictimai nəqliyyatın hərəkəti qadağan edilsin.

2. Bu Qərarın 1.1.1-1.1.13-cü yarımbəndlərində nəzərdə tutulan iş və xidmət sahələrində fəaliyyətin həyata keçirilməsi üçün yalnız zəruri və məhdud sayda işçilərin işə cəlb edilməsi təmin edilsin.

3. Bu Qərarın 1.2.2-ci yarımbəndində göstərilən əsasla yaşayış yerini və ya olduğu yeri tərk etmək üçün hər bir şəxs Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Növbətçi Hissələri İdarəetmə Xidmətinin 102 Xidməti - Zəng Mərkəzi vasitəsilə icazə almalıdır.

4. Bu Qərarın 1.1.1-1.1.13-cü yarımbəndləri ilə fəaliyyətinə icazə verilən iş və xidmət sahələrində işləyən şəxslərin hərəkətinə işəgötürən tərəfindən həmin şəxslər barədə məlumatlar elektron imzadan istifadə edilməklə "icaze.e-gov.az" portalına daxil edildikdən sonra yol verilir.

5. Bu Qərarın 1.2.1-ci və 1.2.2-ci yarımbəndlərinin tələblərinə riayət olunmasına nəzarət Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən həyata keçirilir.

6. Bu Qərarın tələblərinin pozulmasına görə fiziki, hüquqi və vəzifəli şəxslər qanunla nəzərdə tutulmuş qaydada inzibati və cinayət məsuliyyəti daşıyırlar.

# Azərbaycanla Türkiyə arasında uçuşlar bərpa olunur - RƏSMİ

***Azərbaycanla Türkiyə arasında uçuşların iyunun 15-dən etibarən bərpa olunması gözlənilir.***

"Unikal" xəbər verir ki, bu barədə Türkiyə Nəqliyyat və infrastruktur naziri açıqlama verib. Nazir bildirib ki, 40 ölkəyə uçuşların bərpası planlaşdırılır.

Nazirin açıqlamasına görə iyunun 10-da, Şimali Kipr Türk Cümhuriyyəti, Bəhreyn, Bolqarıstan, Qatar, Yunanıstan, 15-də Almaniya, Avstriya, Azərbaycan,




Çexiya (Çexiya), Xorvatiya, Hong-Kong, İsveçrə, Yaponiya, Şimali Makedoniya Respublikası, Litva, Macarıstan, Polşa, Rumıniya, Serbiya, Sinqapur, Sloveniya, Tacikistan, ayın 20-də Hollandiya, Qazaxıstan, 22 iyunda Albaniya, Bosniya və Herseqovina, Danimarka, Estoniya, Finlandiya, Cənubi Koreya, İrlandiya, Monteneqro, Qırğızıstan, Latviya, Lüksemburq, Norveç, Slovakiya və nəhayət, iyunun 25-də Belçika ilə uçuşlar bərpa oluna bilər.

Qeyd edək ki, Azərbaycan tərəfi beynəlxalq uçuşların bərpası ilə bağlı heç bir qərar verməyib.



# Milli Məclisin Səhiyyə komitəsinin növbəti iclası keçirildi

***İyunun 4-də Milli Məclisin Səhiyyə komitəsinin növbəti iclası keçirilib.***

Unikal.org xəbər verir ki, komitənin sədri Əhliman Əmiraslanov əvvəlcə koronavirus (COVİD-19) pandemiyasının Azərbaycanda geniş yayılmasının qarşısının alınması, bu sahədə həyata keçirilən tədbirlər barədə danışıb. Bu sahədə Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) fəaliyyətini yüksək qiymətləndirən komitə sədri ölkə vətəndaşları tərəfindən karantin rejiminin yumşaldılmasından sui-istifadənin yolverilməz olduğunu vurğulayıb.

Sonra iclasda "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" qanun layihəsi birinci oxunuşda müzakirə edilib. Əhliman Əmiraslanov sənədi ətraflı şərh edib. Qeyd olunub ki, qanun layihəsi ölkə Konstitusiyasının 94-cü maddəsinə uyğun olaraq, Azərbaycanda insan orqan və toxumalarının donorluğunun və onların transplantasiyasının hüquqi əsaslarını, donorların, resipiyentlərin, orqan transplantasiyası sahəsində fəaliyyət göstərən tibb müəssisələrinin, tibb işçilərinin hüquqlarını və vəzifələrini müəyyən edəcək, bu sahədə yaranan münasibətləri tənzimləyəcək. 5 fəsil, 35 maddədən ibarət sənəddə qanunun tətbiq dairəsi, donorluğun və transplantasiyanın əsas prinsipləri, qayda və şərtləri, bu sahəyə yardımın təşkili, transplantasiya işini həyata keçirən mütəxəssislərin hüquq və vəzifələri, resipiyentlərin uçotu, donorluq işinin koordinasiyası, donor orqanlarının resipiyentlər arasında bölüşdürülməsi kimi məsələlər ətraflı ehtiva olunub.

Komitə üzvləri Rəşad Mahmudov, İlham Məmmədov, Soltan Məmmədov, Məlahət İbrahimqızı, dəvət olunmuş mütəxəssislər qanun layihəsi ilə bağlı fikirlərini bildiriblər, bu sahədə dünya ölkələrinin qabaqcıl təcrübəsindən danışıblar.

Gündəliyin ikinci məsələsini təqdim edən Milli Məclis Aparatının İqtisadi və sosial qanunvericilik şöbəsinin müdiri Məhəmməd Bazıqov "Sanitariya-epidemioloji salamatlıq haqqında", "Yerin təki haqqında" və "Ətraf mühitin mühafizəsi haqqında" qanunlara təklif olunan dəyişiklikləri diqqətə çatdırıb. Bildirib ki, bu dəyişikliklər ekoloji təhlükəsizliyin qorunması məqsədi daşıyır.

İclasda gündəliyin üçüncü məsələsinin - "Dövlət rüsumu haqqında" qanuna təklif olunan dəyişikliklərin (birinci oxunuş) mahiyyətini açıqlayan Məhəmməd Bazıqov diqqətə çatdırdı ki, "Əhalinin sağlamlığının qorunması haqqında" qanunda dəyişiklik edilməsi barədə" 27 iyun 2019-cu il tarixli qanunda tibb müəssisələrinin akkreditasiyası nəzərdə tutulmuşdur. Bunu TƏBİB-in tabeliyindəki tibb müəssisələrinə münasibətdə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, digər tibb müəssisələrinə münasibətdə isə Səhiyyə Nazirliyi həyata keçirəcəkdir. Səhədə ambulator xidmət göstərən tibb müəssisələrinin akkreditasiyasının keçirilməsinə görə tutulan dövlət rüsumunun məbləği ərazi (regional) prinsipinə görə, stasionar xidmət göstərən tibb müəssisələrinin akkreditasiyasına görə tutulan dövlət rüsumunun məbləği isə çarpayı sayına görə diferensiallaşdırılır. Tibb müəssisələrinin akkreditasiyasının məqsədi əhaliyə göstərilən tibbi xidmətin keyfiyyətinin, əhalinin yüksək keyfiyyətli tibbi xidmət göstərən müəssisə tərəfindən müayinə və müalicə olunması üçün seçim hüququnun təmin edilməsidir.

Ətraflı müzakirələrdən sonra hər 3 qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə edilib.

***Hüseyn İsgəndərov***

# "Üzdə şüar deyib, arxada başqa işlərlə məşğul olmaq olmaz"

## Vahid Əhmədov: "Biz ölkənin müstəqilliyinin daimi və əbədi olmasını istəyiriksə, mübarizə aparılmalıdır"

***"Mən bir neçə dəfə maliyyə amnistiyası, gəlir deklarasiyası haqda mətbuata danışmışam, bu haqda qanunlar qəbul edilməlidir və icra olunmalıdır". "Unikal"ın məlumatına görə, bunu "Azadlıq" radiosuna müsahibəsində Milli Məclisin deputatı Vahid Əhmədov söyləyib. Onun sözlərinə görə, gəlir deklarasiyası haqqında qanun var, amma icra edilmir, o normativ sənəd işlənib hazırlanmır.***

***- Vahid müəllim, son zamanlar Azərbaycanda bir sıra icra başçıları, nazir müavini, idarə rəisi saxlanılıb, onlar korrupsiyada, külli miqdarda dövlət əmlakını mənimsəmədə ittiham olunur. Amma bəziləri hesab edir ki, icra başçılarının və ya başqa vəzifəli şəxslərin korrupsiyaya bulaşması məlum idi və son həbslər gecikmiş addım idi. Siz nə fikirləşirsiniz bu haqda?***

- Mən elə hesab etmirəm. Hər dövrün öz şəraiti var. O şəraitə uyğun olaraq da hərəkət edilməlidir. Dövlət başçısı müəyyən tövsiyələr verdi. Hələ bir il, ilyarım bundan qabaq icra başçılarına, həm yerli, həm də mərkəzi icra orqanlarına xəbərdarlıq etdi ki, özünüzü yığışdırın, problem yaratmayın, əhaliylə işləyin, əhalinin problemləri ilə məşğul olun. Amma görünür, bəziləri bundan ibrət götürmədi, işlərini davam etdirdilər və dövlət başçısı da tamamilə düzgün qərar qəbul etdi. O işlərini davam etdirənlər mütləq cəzalarını çəkməliydilər və adekvat olaraq həbslər həyata keçirildi. İndi mərkəzi icra orqanlarında yoxlamalar aparılır. Bir şey başa düşülməlidir. Azərbaycan 29 ildir müstəqil dövlətdir. Amma elə dövrlər, mərhələlər olub ki, Azərbaycanda korrupsiyaya, rüşvətə qarşı mübarizə aparmaq o qədər də əhəmiyyət kəsb etməyib. Çünki Azərbaycanın müstəqilliyini, sabitliyi qorumaq lazım olub. Bundan istifadə edənlər də həddən artıq çox olub. Xəbərdarlıq edilməsinə baxmayaraq, əməllərini davam etdiriblər. Mən hesab edirəm, dövlət başçısı, cənab İlham Əliyevin atdığı addım düzgündür. Kim bu yolla hərəkət etmək istəmirsə, yəni, korrupsiyadan, rüşvətdən əl çəkmək istəmirsə, istefa verib getməlidir. Düzdür, bizdə hələ o istefa mədəniyyəti yoxdur, axırıncı günə kimi kreslodan yapışacaqlar. Ancaq başa düşməlidirlər, bunun geci-tezi var.

***- Siz dediniz ki, məmurlara prezident səviyyəsində xəbərdarlıq edilib. Bəlkə elə xəbərdarlıq olunmadan, dərhal korrupsiyada suçlu bilinən məmurlar işdən uzaqlaşdırılmalı, cəzalandırılmalıydılar?***

- Doğru addım idi. Mən bayaq qeyd etdim, biz müstəqillik dövründə elə periodlardan keçmişik ki, hakimiyyətə basqınlar olub, kənardan müdaxilələr olub, Azərbaycanın dövlət müstəqilliyini məhv etmək istəyən dövlətlər olub. Amma indi şərait yetişib. Əvvəl Azərbaycanın iqtisadi şəraiti o qədər yüksək olmayıb, siyasi cəhətdən gərginliklər olub. İndi dövlət ayaq üstdə durub və qərar verilib ki, bu məsələni həll etmək, qurtarmaq lazımdır.



***- Belə iddialar da səslənir ki, Prezident Administrasiyasının keçmiş rəhbəri Ramiz Mehdiyevə bağlı kadrlar korrupsiya suçlamaları ilə hakimiyyətdən uzaqlaşdırılır, təmizləmə aparılır.***

- O iddialar da var. Mən sizə açığını deyim, bunu Milli Məclisdə də hiss edirəm, digər təbəqələrdə də. O da ola bilər. Amma ümumi mövqe bir olmalıdır, o da Azərbaycanın müstəqilliyini qoruyub saxlamaqdır. Biz ölkənin müstəqilliyinin daimi və əbədi olmasını istəyiriksə, mübarizə aparılmalıdır. Üzdə şüar deyib, arxada başqa işlərlə məşğul olmaq olmaz. Müstəqilliyin daimi, əbədi olması üçün demokratik dövlət qurulmalıdır, rüşvət, korrupsiya olmamalıdır. Olsa da, bu, lap minimuma endirilməlidir ki, hiss edilməsin.

***- Korrupsiyada suçlanan məmurların hakimiyyət daxilində dəstəkçiləri, dayaqları varmı, Sizcə. Dəstək olmadan onlar...***

- Ona şübhəniz olmasın. Hiss olunur ki, son vaxtların kadr islahatlarını istəməyən kənar qüvvələr var. Onlar sabah məsuliyyətə cəlb olunmaqdan qorxurlar. Siz fikir verin də, istənilən biri rəhbər vəzifədən uzaqlaşan kimi milyonları, milyardları üzə çıxır. Haradandır bu vəsaitlər? Niyə bu qədər vəsait məndə yoxdur? Mən baş nazirin birinci müavini işləmişəm, baş naziri əvəz etmişəm, 10 ildən çox zavod direktoru, böyük müəssisələrin rəhbəri olmuşam. Amma bu adamlarda bu qədər pul haradan əmələ gəlir? Korrupsiya hallarıdır, istifadə ediblər. Bir də, mən bir neçə dəfə maliyyə amnistiyası, gəlir deklarasiyası haqda mətbuata danışmışam, bu haqda qanunlar qəbul edilməlidir və icra olunmalıdır. Gəlir deklarasiyası haqqında qanun var, amma icra edilmir, o normativ sənəd işlənib hazırlanmır. İnsanlar bilməlidir ki, qazandığı hər manat nəzarətdə olacaq. Ona görə maliyyə, əmlak amnistiyasına, gəlir bəyannaməsinə çox böyük ehtiyac var.

***- 15 ildir gəlir bəyannaməsi ilə bağlı qanun qəbul edilsə də, qaydalar işləmir. Sizcə, buna səbəb nədir?***

- Dövləti idarə etmək - mən idarəçilikdə iştirak edən adamam, - elə asan məsələ deyil. Xarici təzyiqlər var, daxili təzyiqlər var. Dövlətin müstəqilliyinin qorunması üçün iqtisadi amillər vacibdir. Bu da Azərbaycanda indi yaranır, son iki-üç ildir. Bundan qabaq yox idi axı, təzyiqlər güclü idi və s. İndi imkan var, bu problemlər həll edilməlidir. Azərbaycanda rüşvət, korrupsiya halları aradan qaldırılmalıdır.

***- Məmur övladlarının əmlakları son günlərdə medianın gündəmindədir. Böyük Britaniyada təxminən 100 milyonluq əmlakı olduğu üzə çıxan keçmiş nazir Eldar Mahmudovun övladları deyib ki, bu varidat onlara babalarından qalıb. Bu mümkündürmü? Eldar Mahmudov da nazir olub və vəzifəyə gələndə...***

- Ola bilər, Eldar Mahmudova dədəsindən-babasından miras qalıb. Çar Rusiyası dövründə Azərbaycanda kifayət qədər varlı adamlar, neft maqnatları olub. Amma bu araşdırılmalıdır, həqiqətən də vəsait oradanmı qaynaqlanır. Bunu araşdırmaq böyük iş deyil. İstənilən ekspertlər, beynəlxalq maliyyə qurumları araşdıra bilərlər. Amma hesab edirəm ki, bu məsələləri kənara qoymaq lazımdır. İndiki dövrdə pandemiya var, başqa siyasi proseslər baş verir, 2021-ci ildə yeni düzən yaranacaq. Ona görə həmin vəsaitləri ölkəyə gətirmək lazımdır, burda iş yerləri açılmalıdır, zavodlar-fabriklər tikilməlidir. Bununla bağlı qanun qəbul edilməlidir. Bu yaxınlarda çox hörmətli (iqtisadiyyat naziri) Mikayıl Cabbarov prezidentə məruzə edəndə bu məsələ üzərində işləndiyini dedi. Bunlar lazımdır, dövlət üçün, millət üçün lazımdır.

***- Maliyyə amnistiyasını nəzərdə tutursunuz?***

- Bəli. Maliyyə, əmlak amnistiyasına çox böyük ehtiyac var, nə qədər tez olunsa, o qədər yaxşıdır. Düzdür, qanun qəbul olunsa, deyiləcək ki, bu, qaçaqmalçılıqda, narkoticarətdə istifadə edilə bilər və s. Ona görə də o vəsait Azərbaycanda yalnız investisiya şəklində istifadə oluna bilər. İkincisi də, xaricdə vəsaiti olanlar başa düşməlidir ki, onlara moratoriumlar, həbslər qoyulur, ondan istifadə edə bilmirlər. Bunu başa düşməlidirlər.

## "Biz beynəlxalq ictimaiyyətə bu problem daha effektiv formada çatdırmalıyıq" - Deputat



***"Cənab Prezident Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı bir neçə dəfə qətiyyətli çıxış edib. Xarici ölkələrdə keçirilən tədbirlərdə, Münhen Təhlükəsizlik Konfransı nda çıxışında cənab İlham Əliyev bildirib ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz və tərkib hissədir".***

Bu barədə Unikal.org-a millət vəkili Nurlan Həsənov deyib ki, Prezident İlham Əliyevin arqumentli çıxışları Ermənistan tərəfinin saxtakarlığını bir daha sübut edir:

"Prezidentin "Bir daha demək istəyirəm ki, Dağlıq Qarabağ Azərbaycandır və nida işarəsi" deməsi ölkəmizin mövqeyini daha dəqiq ortaya qoydu. Eyni zamanda, prezident bildirdi ki, biz Azərbaycan torpağında ikinci erməni dövlətinin yaradılmasına icazə verməyəcəyik.Bununla da cənab president İrəvan məsələsinə toxunur. O, ərazilər tarixi Azərbaycan torpaqları olub. Həmin ərazidə erməni dövləti qurulub.Azərbaycan torpaqlarının adlarının dəyişdirilməsi ilə bağlı erməni tərəfi iş görür. Biz beynəlxalq ictimaiyyətə bu problem daha effektiv formada çatdırmalıyıq".

***Famil Fərhadoğlu***

# YAP-ın komissiyaları yenidən formalaşdırılıb



***Yeni Azərbaycan Partiyası (YAP) İdarə Heyətinin videokonfrans formatında növbəti iclası keçirilib.***

"Unikal" xəbər verir ki, toplantıda pamdemiya ilə əlaqədar YAP-ın gördüyü işlər barəsində məlumat dinlənilib. Qeyd edilib ki, Azərbaycan Respublikasında koronavirus pandemiyasının geniş yayılmaması və pandemiyanın vura biləcəyi zərərin qarşısını almaq üçün sistemli tədbirlər həyata keçirilib. Görülən tədbirlər sırasında əhalinin sosial müdafiəsinin gücləndirilməsi də xüsusi diqqət mərkəzindədir. YAP Prezident İlham Əliyev bilavasitə təşəbbüsü və birbaşa rəhbərliyi altında epidemiyanın qarşısının alınması və fəsadlarının aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirlərdə yaxından və fəal iştirak etmiş, bu istiqamətdə bir sıra mühüm aksiyalar keçirib.

YAP Prezident İlham Əliyevin Sərəncamı ilə yaradılmış Koronavirusla Mübarizəyə Dəstək Fonduna bütövlükdə 500 000 manat, Naxçıvan Muxtar Respublikasında Koronavirusla Mübarizəyə Dəstək Fonduna isə 30 000 manat ianə edib. Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə ayrılan ərzaq yardımları YAP-ın könülüləri tərəfindən 33355 imkansız ailəyə çatdırıb.

Yeni Azərbaycan Partiyası tərəfindən 21-29 mart tarixlərində "Sağlamlığımız milli həmrəyliyimizdədir" devizi ilə keçirilən kampaniya çərçivəsində bütün respublika ərazisində ahıl, imkansız və ehtiyacı olan 7780 ailəyə könüllülər vasitəsilə gigiyenik vasitələr çatdırılıb.

YAP tərəfindən aprel ayının 4-də start verilən və xüsusi karantin rejiminin tətbiq olunduğu dövr ərzində davam edən aksiya çərçivəsində partiyanın rayon təşkilatlarının, eləcə də, fəalların maliyyə dəstəyi ilə 17324 ailəyə ərzaq və digər yardımlar göstərilib.

Yeni Azərbaycan Partiyası və ƏƏSMN aprelin 4-də başladığı birgə sosial aksiya çərçivəsində isə 21138 ailəyə sosial xidmət göstərilib. İcladsa həmçinin, Yeni Azərbaycan Partiyasında fəaliyyət göstərən komissiyaların yenidən formalaşması məsələsi müzakirə edilib, Qəbul edilən qərara əsasən, komissiyaların tərkibində müvafiq dəyişikliklər edilib.

İclas iştirakçıları komissiyaların fəaliyyətinin daha da gücləndirilməsi istiqamətində təkliflərlə çıxış ediblər. İclasda daha sonra partiya həyatı ilə bağlı bir sıra məsələlər müzakirə edilib.

# Ramin Bayramlı: "Bu məlumatlar tamamilə yalandır"

***Sosial şəbəkələrdə insanların koronavirusdan ölməsi barədə şayiələr yayılır və vətəndaşlarımız buna inanır.***



"Unikal" xəbər verir ki, bunu Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) sədri Ramin Bayramlı Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində deyib.

Onun sözlərinə görə, vətəndaşlarda bu cür məlumatlar yanlış inama səbəb ola bilər.

"Dünyasını dəyişən şəxsə təcili tibbi yardım həkimləri tərəfindən COVİD-19 virusundan vəfat etməsi ilə bağlı arayışın verilməsi barədə məlumatlar yayılır. Bu məlumatlar tamamilə yalandır və həqiqəti əks etdirmir, şayiə xarakteri daşıyır. Bu, insanlarda inamsızlıq yaradır. Koronavirus diaqnozunun qoyulması asan iş deyil".

# "Xəstələr üçün məktəb və digər yerlərə ehtiyac yoxdur" - TƏBİB sədri



***Koronaviruslu xəstələrin müalicəsi üçün xəstəxanalarda yer olmadığı üçün məktəblərdən istifadə edilməsi xəbəri düzgün deyil.***

"Unikal" xəbər verir ki, bunu Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) sədri Ramin Bayramlı Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində deyib. Onun sözlərinə görə, ölkədə modul tipli xəstəxanalar qurulur.

"Bakı şəhərində 2 xəstəxana, Abşeron rayonunda 1 xəstəxana, Sumqayıt şəhərində 1 xəstəxana hər biri 200 çarpayı olmaqla qurulur. Artıq bir modul tipli xəstəxana istifadəyə verilir. Bunlar hamısı dolmuş olsa belə ölkəmizdə yataq sayı kifayət qədərdir ki, məktəbə və ya digər yerlərə ehtiyac duymayaq. Təkcə yataq sayı deyil. Xəstəxanalar lazımi tibbi avadanlıqlar və süni tənəffüs cihazlarla təmin olunub".

# Azərbaycanda daha 4 karantin xəstəxanası istifadəyə veriləcək

***Bakıda 2, Abşeronda 1, Sumqayıtda 1 xəstəxana istifadəyə veriləcək.***



"Unikal"ın məlumatına görə, bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin" (TƏBİB) İdarə Heyətinin sədri Ramin Bayramlı məktəblərin xəstə qəbulu üçün hazırlanması ilə bağlı sualı cavablandırarkən bildirib.

O qeyd edib ki, hətta bütün xəstəxanalar dolsa belə, xəstələrin məktəblərdə qəbulundan söhbət gedə bilməz: "Xəstəxanalar bütün lazımi avadanlıqlarla təchiz olunub. Qısa müddətdə nöqsanlarımızı analiz edib zəruri ehtiyacları müəyyən etdik və hazırda bununla bağlı heç bir problem yoxdur".

# TƏBİB sədrindən jurnalistlərə müraciət

***Həftəsonu iki gün insanlar evdə qaldığı üçün televiziya və radioda maraqlı verilişlərin olması tövsiyyə olunandır.***




"Unikal" xəbər verir ki, bunu Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) sədri Ramin Bayramlı Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində deyib. Onun sözlərinə görə, xəbər saytlarının işçilərinin evdə çalışmaları tövsiyə edilir.

"Televiziya və radio qurumları işçilərini işə məhdud sayda çağırsın. Hər hansı veriliş üçün qonaq çağırılırsa, onlardan onlayn şəkildə müsahibələr alınsın. İstisna olsa Operativ Qərargaha müraciət edilməli və icazə alınmalıdır".

# Diplomatik korpusa çağırış: İşə çıxmayın!

***Diplomatik korpus işçilərinə tövsiyələrimiz odur ki, işə çıxmasınlar.***

"Unikal" xəbər verir ki, bunu Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) sədri Ramin Bayramlı Nazirlər Kabineti yanında Operativ Qərargahınkeçirdiyi brifinqdə deyib.

TƏBİB sədrinin sözlərinə görə, onların xidməti avtomobilləri var və bəzi diplomatik korpuslar şənbə-bazar günləri işləyir.

"Lakin TƏBİB olaraq tövsiyəmiz odur ki, işə çıxmasınlar".

# "190 manatın verilməsi gündəmdə deyil" - AÇIQLAMA



***Əhaliyə 190 manatın verilməsi iş yerlərinin qapadılması ilə bağlı idi. Lakin indi iş yerləri açılıb və həftəsonu məhdudiyyətlərindən sonra insanlar işə çıxacaq.***

"Unikal" xəbər verir ki, bunu Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) sədri Ramin Bayramlı Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində deyib.

Onun sözlərinə görə, hazırda 190 manatın verilməsi gündəmdə deyil.



## Ağalar Vəliyevin seçicilərlə səyyar görüş keçirdi

***97 saylı Goranboy-Ağdam-Tərtər Seçki Dairəsindən Milli Məclisin deputatı Ağalar Vəliyevin iyunun 3-də Goranboy rayonunun Qızılhacılı qəsəbəsində seçicilərlə növbəti səyyar görüşü keçirilib.***

Unikal.org xəbər verir ki, xüsusi karantin rejiminin tələbləri və sosial məsafə nəzərə alınmaqla təşkil olunan görüşdə rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev iştirak edib.

Goranboy rayonunun ən böyük yaşayış məntəqəsi olan Qızılhacılı qəsəbəsinin ağsaqqallarının, ziyalılarının, şəhid ailələrinin və Qarabağ qazilərinin bir qrupunun iştirak etdiyi, səmimi və işgüzar şəraitdə keçən görüşdə 8 minə yaxın əhalisi olan qəsəbənin içməli suya olan tələbatının ödənilməsi ilə bağlı görüləcək işlər müzakirə olunub.

Millət vəkili ölkə əhalisinin içməli su ilə təminatının və kənd təsərrüfatı sahələrinin suvarma suyu ilə təchizatının yaxşılaşdırılması istiqamətlərində dövlət başçısı tərəfindən həyata keçirilən tədbirlər, ö cümlədən Goranboy rayonunda aparılan işlər barədə seçicilərə ətraflı məlumat verib.

Deputat bu günlərdə Prezident İlham Əliyevin Asiya İnkişaf Bankının rəhbərliyi ilə keçirdiyi videokonfransda Azərbaycanda suvarma ilə bağlı planlardan, böyük su itkilərinin qarşısının alınması üçün yeni su infrastrukturunun və idarəetmə sisteminin yaradılmasının zəruriliyinin vurğulandığını xatırladıb.

Milli Məclisin üzvü qeyd edib ki, bu məqsədlə yaradılan xüsusi hökumət komissiyası tərəfindən ölkənin su potensialı yenidən qiymətləndiriləcək, bu istiqamətlərdə yeni prioritetlər və yatırılacaq investisiyaların həcmi müəyyənləşdiriləcək.

Suvarmanın inkişafı üzrə dövlət proqramının qəbul edilməsi, texniki və maliyyə dəstəyi baxımından bu işlərə Asiya İnkişaf Bankı və digər beynəlxalq iqtisadi və maliyyə qurumlarının cəlb edilməsinə əlverişli şərait yaradılacaq.

Ağalar Vəliyev Qızılhacılı qəsəbə sakinlərinin içməli su ilə təchizatının yaxşılaşdırılması ilə bağlı seçicilərinin çoxsaylı müraciətlərini nəzərə alaraq bilavasitə dəstəyi ilə yeni artezian quyusunun qazılmasını təşkil edəcəyini və yaxın vaxtlarda bütün müasir standartlara cavab verən artezian quyusunun istifadəyə veriləcəyini vurğulayıb.

Səyyar görüşdə Qızılhacılı qəsəbə sakinləri sərhədyanı təmas bölgəsi olan Goranboy rayonunun əhalisinə dövlətimiz tərəfindən göstərilən diqqətə və qayğıya görə ölkə rəhbərliyinə təşəkkürlərini bildiriblər.

# Elman Rüstəmovun yanlış diaqnozu...

## Bankları bağlamaq niyə çıxış yolu deyil?

***2015-ci ildə baş verən iki devalvasiyadan bu yana Azərbaycanın bank sektoru çətin günlər yaşayır. Aradan keçən müddətdə çoxsayda bankın fəaliyyəti dayandırılıb: onlar ya ləğv edilib, ya da digərlərinə birləşdirilib.***

Bu yaxınlarda daha dörd bankın fəaliyyəti dayandırıldı. Ekspertlər isə sözügedən sektorda sağlamlaşdırmanın bu şəkildə təmin ediləcəyinə bir o qədər də inanmırlar.

"Ölkənin bank sektoruna pandemiyanın təsiri özünü belə tez göstərə bilməz. Bunun üçün bir az uzun vaxt lazımdır. Odur ki, əgər, hansısa göstəricilərdə mənfi fəsadlar, meyllər ortaya çıxıbsa, bu, sektorun vəziyyətindən irəli gəlir, koronavirus səbəbindən deyil. Bizdə, bank sektorunu sağlamlaşdırmağa ehtiyac var. Bu, isbata ehtiyacı olmayan məsələdir. Mövcud iqtisadi şərait pisləşdikdə isə hər şey daha əyani üzə çıxır" deyən iqtisadçı Pərviz Heydərovun fikrincə, bank sektoru iqtisadiyyatın elə bir sahəsi deyil ki, sağlam vəziyyətdədirsə, kənar və subyektiv təsirlərin ucbatından dərhal pis vəziyyətə düşsün. Sitat: "Sözügedən sektoru və yaxud sistemi mənfi mənada silkələmək üçün gərək, həm də onun özü "xəstə vəziyyətdə" olsun... Azərbaycanda bank sektoru isə əvvəldən sağlam deyildi. Və bu yaxınlarda 4 bankın lisenziyasının əllərindən alınma şəklində vermək heç də səmərəli deyil. Çünki bir yandan, neftin dünya bazarında qiymətləri aşağı olduğundan, ölkəmizin valyuta gəlirləri azalıb, digər yandan məlum səbəbdən həm dünyada, həm də ölkə iqtisadiyyatında iqtisadi aktivlik sıfır səviyyəsindədir. Belə şəraitdə Mərkəzi Banka valyuta ehtiyatlarını qorumaq lazımdır, yoxsa ondan kredit vermək? Özü də hansı quruma və hansı məqsədlə?! Əmanətlərin Sığortalanması Fonduna - camaatın pulunu qaytarmaq üçün... Bəs, sabah valyuta bazarımızda Mərkəzi Bankın dollarına ehtiyac yarana bilməzmi?! Buna axı, zəmanət yoxdur!"

Ekspert xatıraldıb ki, 2015-2016-cı illərdəki böhrandan sonra ölkənin bank sistemində 11-dən çox bank bağlanmışdı: "Proses davam edəcəkdi, sadəcə olaraq, bağlanılan banklarla əlaqədar hökumətin, dövlətin üzləşdiyi problemlər və çətinliklər digər bankların ləğvi prosesini dayandırdı. Çünki başqa əlac yox idi. Təkcə, Beynəlxalq Bank dövləti "beli üstə" qoydu. Belə ki, hökumət bankın xarici öhdəlikləri qarşısında bütün cavabdehliyi üzərinə götürməklə bir növ bank sistemini və o cümlədən, maliyyə sektorunu nüfuzdan düşməkdən qorudu. Adı çəkilən bank sistem əhəmiyyətli olduğundan, başqa çarə də yox idi. Və odur ki, hökumət lazım olanı etdi.

Məsələ bundadır ki, 2005-2006-cı ildə hökumətin qarşıya qoyduğu qeyri-neft sektorunu inkişaf etdirmək və bu sahədən ixracı artırmaq tələblərinə, məqsədinə də uyğun deyil, çünki sözügedən tələbə və məqsədə cavab vermək üçün bank sektoru qeyri-neft sektorunu maliyyələşdirməlidir. Sektorun real vəziyyəti isə buna imkan vermir".

İqtisadçının fikrincə, ancaq iş ondadır ki, sektorda inhisarlaşma yenə əvvəlki templə gedir. Sitat: "Bu ilin mayın 12-dək ölkədə fəaliyyət göstərən 28 bankdan 5-nin aprelin 1-nə aktivləri 1 milyard manatdan çox olub ki, Beynəlxalq Bank üzrə bu göstərici 8 milyard 880 milyon 952 min manat, PAŞA Bankda 4 milyard 759 milyon 677 min manat, Kapital Bankda 4 milyard 412 milyon 658 min manat, Xalq Bankda 2 milyard 282 milyon 872 min manat və Bank Respublika üzrə 1 milyard 344 milyon 750 min manat təşkil edib. Qalan 23 bankdan 21-nin aktivləri 100 milyon manatdan 1 milyard manata qədər, 2 bankın aktivləri isə 100 milyon manatdan az təşkil edib. Fikrimcə, Beynəlxalq Bank bizə dərs olmalıdır. Bir vaxt sözügedən bank sistemdə piramidanın zirvə nöqtəsi idi, - böhran dalğası birinci məhz onu "vurdu". Halbuki, sektorda və yaxud sistemdə sərbəst rəqabət mühitinin formalaşması üçün müvafiq addımlar atılsa idi, böhran dalğası sözügedən bankı vurmazdı. İş bundadır ki, bu gün



sı da buna sübut idi".

Ekspert hesab edir ki, bank sektorunu sağlamlaşdırmaq üçün təkcə bankları ləğv etmək - onların lisenziyasını əlindən almaq çıxış yolu deyil. Banklara dövlət və Mərkəzi Bank tərəfindən dəstək lazımdır. Məsələn, keçən il ölkə başçısıtərəfindən müdaxilə olunaraq, problemli kreditlər məsələsinin yoluna qoyulması və bankların "süni nəfəs aparatından" ayrılması kimi... Eyni zamanda, məsələ real sektorun və bazarın öhdəsinə buraxılmalıdır. Yəni, iqtisadiyyatın real sektorunun maliyyələşdirməsinə tədricən nail olmaqla. Düşünməyə dəymәzmi?

"Bəli, ilin əvvəlindən bəri, bankların ən çox meyl etdikləri və gəlir götürdükləri istehlak kreditlərinin verilməsi azalıb, əmanət qoyuluşu aşağı düşüb, aktivlər nisbətən pisləşib, bunlar azmış kimi, ilin axırına Mərkəzi Bankın valyuta ehtiyatlarında da azalma proqnozlaşdırılır və s." deyən iqtisadçı vurğulayır ki, ölkədə bağlanmış məlum 4 bankda yerləşdirilmiş 680 milyon manat sığortalı əmanətin geri ödənilməsi üçün Əmanətlərin Sığortalanması Fondunun cəmi 200 milyon manatı var, yəni gücü yalnız buna çatır. Sitat: "Qalan 480 milyon manat məbləğisə Mərkəzi Bank verməlidir və verəcək. Yəni, kredit şəklində adı çəkilən fonda ötürəcək ki, bütün 680 milyon manatı qaytarmaq mümkün olsun. Özü də 200 milyon manatlıq hissəni xarici valyuta şəklində. Ardınca əlavə olunub ki, ilin sonunadək Mərkəzi Bankın valyuta ehtiyatlarında azalma baş verəcək. Yaxşı, indi bu arada həmin 4 bankı bağlamaq lazım idimi?! Bağlanmalı idisə, hələlik yalnız ən pis vəziyyətdə olana, "AtaBank"a bunu tədbiq etmək mümkün deyildimi?! Axı, bu arada 480 milyon manat məbləği Mərkəzi Bankdan Əmanətlərin Sığortalanması Fonduna kredit dəki böhrandan sonra ölkə iqtisadiyyatı 2017-ci ildən etibarən bərpa olunmağa başlasa da, bank sektoru iflic vəziyyətində qalmaqda davam edirdi. Yalnız dövlət başçımızın təşəbbüsü və birbaşa müdaxiləsi yolu ilə problemli kreditlər məsələsi həllini tapdıqdan sonra banklar özlərinə gəlməyə başladılar ki, bu da bir növ koma vəziyyətindən çıxmağa bənzədi. Odur ki, keçən ilin sonuna ölkənin bank sektorunda vəziyyətin normallaşdığını desəm, səhv edərdim, yox, əgər, "2015-2016-cı illərdə dünya bazarlarında neftin ucuzlaşması səbəbindən ölkə iqtisadiyyatına dəyən zərbə nəticəsində düşdüyü vəziyyətdədir" desəm, yenə yanılardım.

Bəli, bank sistemində real vəziyyət 2015-2016-cı illərdə dünya bazarlarında neftin qiymətinin düşməsi nəticəsində ölkə iqtisadiyyatına dəyən zərbədən sonra yaranmış durumda deyildi və həmin vəziyyətdə sayıla da bilməz. Lakin, də sektorda rəqabət mühitinin formalaşması üçün müvafiq şəraitin yaradılması gecikir. Belə bir mühit yaranarsa, hər hansı bankın müflis olmasını da bazar özü müəyyən edəcək. Əslində məhz belə də olmalı, bankların sıradan çıxmağı inzibati yolla tənzimlənməməlidir. Və ən əsası, sektorda inhisarçırlığa imkan verilməməlidir".

Digər ekspertlərin də bank sektorundakı durumla bağlı mövqeyi aşağı-yuxarı bu cürdür. Ümumi qənaət isə ondan ibarətdir ki, bu sektorun sağlamlaşdırılması üçün öncə "xəstəliyin" diaqnozu dəqiq qoyulmalıdır. Yalnız bundan sonra onun "müalicəsi" də arzuedilən effekti verə bilər. Lakin belə görünür, Elman Rüstəmov və rəhbərlik etdiyi baş bank hələlikyanlış diaqnoz üzərindən hərəkət edir, bu səbəbdən də "sağlamlaşdırma" prosesi hələ ki, istənilən nəticəni yaratmayıb...

***Orxan Həsənli***

# Xəzəri hasarlayan məmurların "qələbəsi"...

## Koronavirus bəlası xalqı dənizə həsrət qoyan oliqarxlarla bağlı konkret addımlarınatılmasına mane olmamalıdır

***Dörd il öncə çoxlarımızı sevindirən xəbər yayıldı. Xəbərdən belə məlum olurdu ki, dənizi hasarlayanları, xüsusilə qanunsuz olaraq dəniz kənarında villa sahiblərini yaxın zamanlarda böyük "sürpriz" gözləyir. Həmin vaxt bildirilirdi ki, Xəzər dənizinin imkanlı məmurların girovluğundan geri alınmasıüçün ciddi işlər aparılır. "Deməkolar ki, sökülləcək hasarlar, villaların tam siyahısı hazırdır. Bnunla da imkanlışəxslər, oliqarxlar, yüksək çinli məmurlar zəbt etdikləri ərazilərdən çıxmağa vadar olacaqlar.Bu isə əbəs yerə deyil. Belə ki, ilin əvvəlindən Azərbaycanda dəniz sahilində torpaq sahələrini icazəsiz hasarlayan şəxslərə qarşı cəza tədbirləri sərtləşdirilib" deyə yerli KİV qeyd edirdi.***

Məsələ burasındadır ki, "İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" 2015-ci il 18 dekabr tarixli qanunun tətbiqi və "İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" qanunun tətbiq edilməsi barədə" 2000-ci il 29 avqust tarixli fərmanında dəyişikliklər edilməsi haqqında fərman imzalanıb. Dəyişikliklərə əsasən, Xəzər dənizinin Azərbaycana məxsus olan bölməsində sahilboyu 20-50 metr zolağın altında olan torpaq sahələri ilə bağlı tələblərin pozulmasına görə cərimələr müəyyənləşib.Həmin torpaq sahələrinin müvafiq icra hakimiyyəti orqanının icazəsi olmadan hasara alınma yolu ilə və ya digər üsullarla bağlanmasına, müvafiq icra hakimiyyəti orqanının icazəsi ilə hasara alma digər üsullarla bağlanması zamanı tikinti konstruksiyalarının dənizin və onun sahilində su ilə qurunun təmas xətinin görünməsinin və ya dəniz sahilində gediş-gəlişin məhdudlaşdırılması və yaxud 100 metrdən bir dövlət sərhədinin mühafizəsinin təmin olunması məqsədilə eni 6 metrdən az olmayaraq sahilə birbaşa keçidin təmin olunmaması məqsədilə fiziki şəxsləri 4 min manat, vəzifəli şəxsləri 8 min manat, hüquqi şəxsləri 40 min manat miqdarında cərimə gözləyir.Bu cərimələr dövlətin iqtisadi və ya təhlükəsizlik mənafelərinin təmin edilməsi ilə əlaqədar müvafiq icra hakimiyyəti orqanının qərarı olmadan həmin torpaq sahəsində dənizin sahilinə gediş-gəlişin məhdudlaşdırılmasına görə də tətbiq olunacaq.Sadalanan xətalar təkrar törədildikdə, fiziki şəxslər 5 min manat, vəzifəli şəxslər 10 min manat, hüquqi şəxslər 50 min manat cərimə ediləcək.

"Unikal" qəzeti olaraq bu mövzudan dəfələrlə bəhs etmişik; elə ötən il də Xəzərin hasarlanmasından bəhs edərkən yazmışdıq ki, dənizi hasarlayan məmur-oliqarxlar hələ də öz işindədir: onların dənizkənarı ərazilərdəki villaları öz əzəmətli görünüşü ilə tikildikləri yerlərdə qalırlar, heç bir söküntüdən söhbət getmir.Reallıq ondan ibarətdir ki, hazırda Xəzərin az qala boş sahil ərazisi qalmayıb, bütün əsas çimərlik zonaları tamamilə tutulub. Görünür, bu il də əvvəlki illərdə olduğu kimi paytaxt əhalisi çimməyə pulsuz çimərlik tapa bilməyəcək. Hündürlüyü 5-6 metrdən yüksək olan hasarların arxasından isə, hətta dənizi görmək mümkün deyil. Bakı buxtasının gözəlliyini yalnız Azərbaycanın fiziki xəritəsində görmək olar.Onu da deyək ki, bu mövzu ilk dəfə hələ 2000-ci illərin əvvəlində gündəmə gəlmişdi; 2000-ci ilin yanvarın 13-də bununla bağlı sərəncam da imzalanmışdı. Sərəncamda deyilirdi ki, əhalinin çoxsaylı şikayətlərini, Xəzər dənizinin xalqa məxsus olduğunu əsas götürərək, dənizin 130 metrlik sahil sahəsində tikilmiş fiziki və ya hüquqi şəxslərə qanunsuz olaraq verilmiş sahələr ya inzibati, ya məhkəmə qaydasında alınsın və insanların dəniz çimərliklərinə sərbəst girişçıxışı təmin edilsin.

Sonrakı illərdə poblemi aradan qaldırmağa imkan verən hüquqi baza möhkəmləndirilsə də, oliqarx- məmurlar əhalinin dənizə girmə hüququnu məhdudlaşdırmağa davam edirlər. Bu, onların faktiki olaraq müvafiq qanunvericiliyə etinasız yanaşmasının nümayişidir.



Yeri gəlmişkən, təxminən ilyarım öncə bu mövzuda danışan Xəzər Kompleks Ekoloji Monitorinq İdarəsinin direktoru Ərəstun Həsənov yerli mətbuata olduqca maraqlı açıqlama vermiş, demişdi ki, bu ilin yazında bir sıra dövlət qurumlarının Xəzər sahili zolaqda yerləşən obyekt sahiblərinə verdiyi xəbərdarlığın vaxtı bitib. Direktor vurğulamışdı ki, Xəzər sahillərini çoxsaylı villalar zəbt edib, nə Bakıda, nə şəhərdən kənarda Xəzərətrafı zonada bir qarış belə boş sahə qalmayıb, dəniz sahili tam hasarlanıb.

O xatırlatmışdı ki, dəfələrlə sahilləri zəbt edənlərin cəzalandırılacağı deyilsə də, bu, söz olmaqdan o yana keçməyib: "Hətta dənizin içinə doğru uzanan villalar var ki, ümumiyyətlə hər hansı icazə sənədi yoxdur. Belə hallar isə vətəndaşın istirahət hüququnun əlindən alınmasıdır. Görünən də budur ki, oliqarxlar bu yerləri asanlıqla qaytarmaq fikrində deyillər, bunun üçün isə dövlət başçısı işə qarışmalıdır".

İdarə direktorunun sözlərinə görə, problemin həllində bu işə məsul olan şəxslər acizdir və onlar dəniz sahilindəki villalara yaxın getməyə belə cürət etmirlər: "Görünür, bizim oliqarxlara anlatmaq olmur ki, dəniz sahili bütün vətəndaşlara aiddir, bura "oliqarx şıltaqlıqları" məkanı deyil. Bunu indi etmək lazımdır, əks halda sahildə boş bir qaya belə qalmayacaq".

Ötən il də yazdığımız kimi, oliqarxlar qanunları saya salmamaqda, aidiyyatı qurumlar isə dənizi özününküləşdirənlərə qarşı hüquqi addımlar atmaqda çarəsizdirlər: "Görünür, çıxış yolu yenə problemə ölkənin ali rəhbərliyinin müdaxiləsidir. Yoxsa bu gedişlə xalqı Xəzərin üzünə həsrət qoyanların özbaşınalığı davam edəcək, bir azdan dənizi ya ancaq yuxuda görəcəyik, ya da ona heç olmasa tamaşa etmək üçün quş kimi qanadlanıb göyün üzünə qalxmaq, oradan aşağı baxmaq lazım gələcək".

Artıq 2020-ci ildir. Düzdür, tüğyan edən koronavirus pandemiyası bir çox aktual mövzuları arxa plana keçirib. Lakin bu həmin problemlərin tamamilə unudulduğu mənasına gəlməməlidir. Bəlkə də Xəzəri hasarlayanlar elə bilirlər ki, artıq onlar "qalib" gəliblər - camaatı dənizin üzünə həsrət qoyanlarla bağlı konkret addımların atılması gündəmdən çıxıb. Bu problem qanunvericiliyin tələblərinə uyğun şəkildə həllini tapmadığı zamana qədər mövzu diqqətimizdə qalmağa davam edəcək. Elə aidiyyatı qurumlar da Xəzərin "oliqarx işğalı"ndan azad edilməsi üçün artıq sözdən işə keçməlidir.

Beləliklə də, hər nə qədər indi gündəmin başlıca mövzusu koronavirus bəlası olsa da, dənizi hasarlayan məmurlar özlərini "qalib" kimi hiss etməməlidirlər.

***Orxan Həsənli***



## "Qaçqınkom"un vəzifəli şəxsləri barəsində cinayət işi başlanıldı

***Ölkəmizdə uğurla həyata keçirilən sosial-iqtisadi inkişaf proqramlarının icrası çərçivəsində qaçqın və məcburi köçkünlərin sosial müdafiəsi və mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına, onların mövcud problemlərinin həllinə xüsusi həssaslıqla yanaşılır.***

Unikal.org xəbər verir ki, bununla yanaşı, dövlətin bu sahədə gördüyü işlərə kölgə salа biləcək qanunsuz hallara qarşı prokurorluq orqanları tərəfindən ən ciddi tədbirlər davam etdirilməkdədir.

Həyata keçirilməkdə olan belə tədbirlərdən biri kimi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin ("Qaçqınkom") vəzifəli şəxslərinin qanunsuz əməlləri barədə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə daxil olmuş material araşdırılıb.

Azərbaycan Respublikası Baş Prokurorluğunun Mətbuat xidmətinindən "Report"a bildirilib ki, keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində Komitənin vəzifəli şəxslərinin öz vəzifə səlahiyyətlərindən sui-istifadə edərək paytaxtın Binəqədi rayonu Həmzə Babaşov küçəsində yerləşən Təcili Tibbi Yardım stansiyasının tikintisi yarımçıq qalmış binalarında məskunlaşmış çoxsaylı qaçqın və məcburi köçkün ailələrinə mənzillərin qanunsuz verilməsi üçün onlardan müxtəlif məbləğlərdə pulu dəfələrlə təkrar rüşvət kimi tələb edib almalarına şübhələr üçün əsaslar müəyyən edildiyindən faktla bağlı Cinayət Məcəlləsinin 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 311.3.2-ci (təkrar rüşvət alma) cinayət işi başlanıb.

Hazırda cinayət işi üzrə qeyd olunan qanunsuz halların tam, hərtərəfli yoxlanılmaqla təqsirli şəxslərin dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb edilmələri istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Azərbaycan Respublikasının Baş Prokurorluğu bu qəbildən qanunazidd hallarla üzləşən vətəndaşlara müraciət edərək "961" nömrəli "Çağrı Mərkəzi" və ya Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin "161" nömrəli "Qaynar xətt" əlaqə mərkəzinə məlumat vermələrini xahiş edir.

***Zaurə***

## 100 nəfər reanimasiyada müalicə alır - TƏBİB

***Azərbaycanda 262 yeni yoluxma faktı aşkar olunub.***

Unikal.org xəbər verir ki, bunu Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İdarə Heyətinin sədri Ramin Bayramlı Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində çıxışı zamanı deyib.

O bildirib ki, iki nəfər vəfat edib: "Ümumi 6522 ümumi yoluxma faktı olub. 100 nəfərin müalicəsi reanimasiya şöbəsində davam etdirilir. Onlardan 21-i süni tənəffüs aparatına qoşulub.

# Azərbaycanda onlara pensiya veriləcək

***Azərbaycanda donorluqla əlaqədar əlil olan şəxslərə pensiya veriləcək.***

Unikal.org xəbər verir ki, bu barədə "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" qanun layihəsində qeyd edilib.

Qanun layihəsində qeyd edilib ki, şəxs donorluqla əlaqədar əlil olarsa, əmək stajından və pensiya kapitalının məbləğindən asılı olmayaraq pensiya almaq hüququ əldə etmək hüququ var.

Qeyd edək ki, sənəd Milli Məclisin Səhiyyə komitəsinin bu gün keçirilən iclasında müzakirəyə çıxarılıb və plenar iclasa tövsiyə olunub.

# "Payızda koronavirusun ikinci dalğasına hazırlaşmalıyıq" - ÜST

***"Payızda koronavirusun ikinci dalğasına hazırlaşmalıyıq".***

Unikal.org "RİA Novosti"yə istinadən verdiyi xəbərə görə, bunu Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa regionu üzrə direktoru Hans Kluqe deyib.

"Biz ölkələrə müraciət edirik: Vəziyyət yaxşılaşır deyə, bunu bayram etmək vaxtı deyil, hazırlaşmaq vaxtıdır. Biz indi payıza hazırlaşmalıyıq!", - deyə ÜST rəsmisi vurğulayıb.

O qeyd edib ki, hazırda əksər Avropa ölkələrində koronavirusla bağlı vəziyyət yaxşılaşır.

# İqtisadiyyat Nazirliyi aztəminatlı ailələrə dəstək verdi

***Koronavirus pandemiyasının dünya ölkələrini böhran və sosial-iqtisadi itkilərlə üz-üzə qoyduğu son dövrlər dövlətlər üçün ciddi bir sınağa çevrilib. Qlobal dünyanın bir parçası olan Azərbaycan belə mürəkkəb dövrdə öz vətəndaşlarını koronavirus pandemiyasından və onun yaratdığı fəsadlardan qorumaq üçün bütün mümkün tədbirləri görür.***

Unikal.org xəbər verir ki, dövlət tərəfindən həyata keçirilən tədbirlərə dəstək məqsədi ilə ölkəmizin hər yerində sosial həmrəylik aksiyaları davam edir.

Bu aksiyaların məqsədi koronavirus pandemiyasının qarşısının alınması məqsədilə tətbiq edilmiş karantin rejimi dövründə aztəminatlı və digər həssas kateqoriyadan olan ailələri və onlara sosial yardım göstərmək istəyən şəxsləri bir araya gətirmək, bu işdə vətəndaş həmrəyliyini genişləndirməkdir. Sevindirici haldır ki, bu ak qurumları ilə yanaşı, cəmiyyətin üzvləri, eləcə də, sosial məsuliyyətli sahibkarlar fəal iştirak edirlər.

Belə bir sosial təşəbbüslərdən biri də ötən aydan başlayaraq İqtisadiyyat Nazirliyinin dəstəyi ilə həyata keçirilir. Aztəminatlı ailələrin ən çox tələb olunan istehlak mallarına ehtiyacının ödənilməsi məqsədilə başlanmış sosial aksiyaya özəl biznesi təmsil edən sahibkarlar da yaxından dəstək göstəriblər.

Humanitar təşəbbüs çərçivəsində Nazirliyin təşkilatçılığı ilə həftəlik tələbat üçün nəzərdə tutulmuş ərzaq bağlamaları Bakıda və Abşeronda aztəminatlı ailələrə çatdırılıb. Aksiyanın reallaşdırılmasına qoşulan sahibkarlar bu təşəbbüsə hərtərəfli dəstək veriblər.

Belə ki, "Azərmaş" ASC ərzaq bağlamalarının çatdırılması üçün xüsusi avtomobillər ayırıb, Təhsil Nazirliyinin "Bir" Tələbə-Könüllü proqramının iştirakçıları isə ərzaq bağlamalarını karantin rejimi tələblərinə tam əməl etməklə aztəminatlı ailələrə çatdırmağa yardım ediblər. Sosial aksiya çərçivəsində 4300-dən çox ərzaq bağlaması çatdırılıb.

İqtisadiyyat Nazirliyi sosial həmrəylik və korporativ məsuliyyət nümayiş etdirən, adlarının çəkilməsinə lüzum görmədən bu təşəbbüsdə aktiv iştirak edən bütün sahibkarlara təşəkkür edir, bu cür humanitar addımların ölkəmizin fəal iqtisadi və sosial həyata qayıdacağı günü daha da yaxınlaşdıracağına töhfə verdiyini qeyd edir.

# Korruspiyadan "beş", tarixdən "iki" alan icra başçılarımız

## Dünən Məmməd Məmmədov, bu gün Müstəqim Məmmədov... - növbədə kimdir?

***İki gün öncə, iyunun 3-də Prezident Tərtərdə Dövlət Rəmzləri Muzeyinin açılışında iştirak edib.***

Rayon icra hakimiyyətinin başçısı Müstəqim Məmmədov ölkə rəhbərinə muzeydə nümayiş etdirilən eksponatlar barədə məlumat verib. Bildirilib ki, inşasına 2019-cu ilin aprel ayında başlanmış və noyabr ayında başa çatdırılmış muzey binasının ümumi sahəsi 720 kvadratmetrdir. Muzeyin sərgi zalında ümumilikdə 8 bölmə yaradılıb. Burada Azərbaycanın müxtəlif dövrlərə aid xəritələri sərgilənir.Prezident İlham Əliyev: Bizim tarixi adlarımız burada gərək öz tarixi adları ilə əks olunsun. Sisyanın əsl adı Qarakilsədir. Sonradan ermənilər buna Sisyan adı veriblər. Ona görə bunu pozun və Qarakilsə yazın.

Müstəqim Məmmədov: Baş üstə.

Prezident İlham Əliyev: İndiki Ermənistan Respublikasının toponimlərinin mütləq əksəriyyəti Azərbaycan mənşəlidir. Onlar müxtəlif vaxtlarda bu toponimləri dəyişdiriblər.

Qeyd edək ki, bu son aylarda dövlət başçısının tarixi həssaslıq baxımından icra başçılarına ikinci iradıdır. Daha əvvəl - mart ayında Tovuzda Tarix-Diyarşünaslıq Muzeyinin açılışında iştirak edən ölkə başçısı eksponatlarla tanışlıq zamanı nümayiş olunan tarixi xəritələrlə bağlı yerli İcra Hakimiyyətinin rəhbəri Məmməd Məmmədova iradlarını bildirmişdi. Prezident soruşmuşdu: "Bu, neçənci əsrin xəritəsidir? Gərək yazılsın. Hər bir xəritədə yazılmalıdır neçənci əsrə aiddir, çünki dövlətlər dəyişib, sərhədlər dəyişib. Bu xəritəni siz haradan götürmüsünüz?".

İcra başçısı isə bildirmişdi ki, xəritə Mədəniyyət Nazirliyindən götürülüb.

Bundan sonra ölkə başçısı iradlarını davam etdirərək bildirmişdi: "Mədəniyyət Nazirliyindən? Qədim adlar, məsələn, Sisian yazılıb. O vaxt Sisian adı yox idi, sonra kimsə bunu uydurub. Xəritədə indiki Azərbaycan ərazisində Mingəçevirdən başqa heç bir tarixi ad yazılmayıb. Halbuki Bərdə, Qəbələ, Naxçıvan - bütün bunlar qədim şəhərlərimiz olub. Ona görə soruşuram, bu, hansı əsrə aiddir? Çünki bu xəritədən heç nə başa düşmək mümkün deyil. Qafqaz Albaniyası dövləti də burada göstərilmir. Amma baxın, bu Urartu hansı hərflərlə yazılıb. Ona görə buna baxmaq lazımdır. Mədəniyyət Nazirliyi ilə əlaqə saxlayın, xəritələr həm dəqiq olmalıdır, həm də bunun tarixi göstərilməlidir. Bu xəritədə bilinmir hansı tarixə aiddir. İndiki Azərbaycan ərazisində heç bir şəhərin adı yoxdur. Var buna cavab? Xəritə asmısınız, hesab edirsiniz ki, bununla iş düzəlir? Bu xəritə bizim tariximizdir. Uşaqlar gəlib bu xəritədən tarix haqqında nə başa düşəcəklər? Heç bilinmir nədir bu. Özü də haradan götürmüsünüz, Allah bilir. Buna belə yanaşmaq olmaz. Eksponatları doldurursunuz, hesab edirsiniz ki, bununla iş bitir? Özü də uşaq otağıdır. Uşaq gəlib soruşacaq ki, bu nədir, mənim məmləkətim nədir? Haradadır mənim qədim şəhərlərim? Onun əvəzinə orada Urartu görürük".

(Yeri gəlmişkən, Prezident Tovuzda olarkən Azərbaycan Aşıq Sənəti Dövlət Muzeyinin açılışında da iştirak etmiş, muzeyin eksponatları ilə tanışlıq zamanı isə aşıq sənətinin yayılma arealını əks etdirən xəritədəki toponimlərlə bağlı iradlarını bildirmişdi.

Mədəniyyət Nazirliyinin əməkdaşı Azadə Hüseynova deyib: Bunlar işğal edilmiş ərazilərdə aşıq sənətinin geniş yayılmış sahələridir.

Prezident: Bunlar Ermənistan ərazisində yerləşir. Bu ərazilər tarixi, qədim Azərbaycan torpağıdır. Ona görə siz burada düzəliş edin. Onları Azərbaycan dilində olduğu kimi yazın. Məsələn, "Dilizhan" yox, "Dilican". "Dilican" yazılmalıdır. Sevan Göyçə gölüdür, yazmısınız "Goycha lake", amma burada da yazılıb "Sevan". Razdan çayının da əsil adı Zəngidir. Siz tamamilə bu sözlərdən, toponimlərdən istifadə edin. Çünki bunlar hamısı bizim qədim torpağımızdır. "Ekhegnadzor" sonrakı addır, bunun da qədim Azərbaycan adı vardır. Ona görə onları düzəltmək lazımdır).



Yuxarıdakı faktlardan aydın olan odur ki, rayon icra hakimiyyəti rəhbərlərimiz bir çox hallarda tarix, milli kimlik məsələlərində yetərincə həssas deyillər və ciddi səhvlərə yol verirlər. Unudurlar ki, tarix, milli kimlik hadisəsi bütün həqiqətlərin açarıdır. Bu səbəbdən də onlara dırnaqarası münasibət yolverilməzdir. Üstəlik, belə münasibəti rayonların icra başçıları sərgiləyirlərsə, bu, tamamilə qəbuledilməzdir.

Yaddan çıxarılmamalıdır ki, yer adları, toponimlərin tədqiqi, onlara həssas münasibət, bir sözlə, milli dəyərlərə ehtiram azərbaycançılıq ideologiyasının əsasını təşkil etməklə bərabər, gənclərdə vətənpərvərlik hisslərinin aşılanmasında əvəzsiz rol oynayır. Gəncliyin tariximizi dərindən öyrənməsi qlobal məkanda cərəyan edən proseslər fonunda da mühüm aktuallıq kəsb edir. Çünki bu, ilk növbədə onlara milli kimlik hissini aşılayır, vətənə bağlılığını artırır. Rayon rəhbərlərinin bir çox hallarda belə sadə həqiqətlərdən xəbərsizliyi ancaq təəssüf doğura bilər.

Ümumiyyətlə, dövlət vəsaitlərini təyinatsız, qeyri-şəffaf xərcləməkdə, vətəndaşları süründürməçilikdə, "get-gələ" salmaqda, özlərinə, qohum-əqrəbalarına geniş biznes imkanları yaratmaqda mahir olan icra başçılarının tariximizlə, milli kimliyimizlə bağlı məsələlərdə naşılıq nümayiş etdirməsi üzücü haldır. Ümid edək ki, dövlət rəhbərinin indiyə qədərki tənqidlərindən nəticə çıxarılar və heç olmasa, bundan sonra həmin məsələlərlə bağlı oxşar iradların şahidi olmarıq...

***Toğrul Əliyev***

# Zərdabda indi də Mərdan Camalzadədən şikayətlər artır

## Yeni icra başçısı Lütfəli Babayevin miras qoyub getdiyi dərdlərə "dərman" tapa bilmir



***Uzun illər Lütvəli Babayevin, hazırda isə Mərdan Camalzadənin rəhbərlik etdiyi Zərdab rayonundan şikayətlər səngimək bilmir.***

Xatırladaq ki, L.Babayev 2007-2019-cu illərdə Zərdab Rayon İcra Hakimiyyətinin başçısı postunda çalışıb. O bu vəzifəni tutarkən yerli mətbuatda ən çox tənqid hədəfi olan rayon rəhbərlərindən birinə çevrilib.

12 il boyunca Lütvəli Babayevin fəaliyyətindən şikayətlərin, narazılıqların nə sayı olub, nə də hesabı. Üstəlik, həmin şikayətlərin, narazılıqların motivi də müxtəlifdir; onlarla tanış olanda adama belə gəlir ki, Babayevin icra başçısı olduğu dönəmdə Zərdab rayonunda problemsiz bir sahə də qalmayıb. Maraqlıdır ki, Lütvəli müəllim artıq bir neçə aydır postundan kənarlaşdırılıb, amma hələ də onun Zərdabda qanunsuz əməllərinə etiraz edilir.

Etirazların əsas motivlərindən biri kəndlilərə məxsus örüş sahələrinin mənimsənilməsidir.

Bir neçə gün öncə adıçəkilən rayonun Alcanlı kənd sakinləri kənddəki otlaq sahəsinin əllərindən alınaraq ayrı-ayrı adamlara verildiyini deyiblər. Sitat: "Əsas məşğuliyyətimiz heyvandarlıqdır. Otlaq sahəsi olmayan kənddə isə heyvandarlığın inkişafından söhbət gedə bilməz. Ölkə başçısı məmura tapşırır ki, heyvandarlığı, əkinçiliyi inkişaf etdirmək üçün kəndliyə hər cür şərait yaratsın, ancaq məmur, bələdiyyə neynir, tutub kəndlinin əlindən axırıncı qarış otlaq sahəsini də alır ki, heyvanını otarmağa yer tapmasın. Kəndli də çarəsiz qalıb, "bir halda ki, otlaq sizindir, bizim heyvan otarmağa yerimiz yoxdur, götürün, heyvanlar da sizin olsun", deyib, heyvanlarını da dəyər-dəyməzinə məmura satır".

Sakinlərin sözlərinə görə, 20 ildən çoxdur ki, bu proses gedir və hazırda iş o yerə çatıb ki, heyvanları otarmağa sahə qalmadığından, kəndlilər onları tövlələrdə saxlamaq məcburiyyətində qalıblar. 1-ci Alcanlı kəndinin sakini Qədir Xəlilov deyib:"Bu problem həm 1-ci, həm də 2-ci Alcanlı kəndlərinin sakinlərinə aiddir. 1996-cı ildə Zərdabda pay torpaqları bölgüsü aparılarkən hər ailəyə düşən pay torpağından kəsib kəndin örüş sahəsini yaratdılar. Hər iki kəndin sakinləri heyvanlarını ümumi otlaq sahəsinə buraxırdı. Bələdiyyələr fəaliyyətə başlayandan sonra otlaq sahələrimiz hissə-hissə satılmağa başladı. Satıla-satıla bir də baxdıq ki, heyvanlarımızı otarmağa bir qarış da yer qalmayıb. İndi hektarlarla otlaq sahəsi 5-6 nəfərin əlindədir. O sahələrdə yalnız onların heyvanları otlaya bilər".

Kənd sakinlərinin deməsinə görə, elə təkcə Kəlbəcər köçkünü olan bir şəxs 20 ildən çoxdur ki, 30 hektara yaxın torpaq sahəsini ələ keçirib. Bu azmış kimi, kənd sakinlərini məhkəməyə verib, ona zərər vurduqlarını iddia edib. Məhkəmə prosesi davam edir. Bundan əvvəlsə Zərdab Rayon Məhkəməsi ayrı-ayrı sahibkarların iddiaları əsasında 1-ci Alcanlı kəndinin 11 sakininə qarşı ümumilikdə 40 min manat civarında cərimə qətnamələri çıxarıb. 2-ci Alcanlı kəndinin sakinlərindən 5 nəfəri isə ümumilikdə 5000 manat cərimələnib.

"Otlaq sahələri bələdiyyə yaranandan sonra hissə-hissə zəbt olunmağa başladı. Bizim dolanışığımız heyvandarlıqdan çıxır. Heyvanı olmayan kəndli acından ölməyə məhkumdur. Üç övladım var, onları heyvandarlıqdan gələn gəlirlə böyüdürdüm, indi əlim hər yerdən tamamilə üzülüb. Yem bahadır, heyvanlara gündəlik yem almaq heç ağılasığan iş deyil. Qalmışıq bir ovuc məmurun əlində... Kimdən kimə şikayət edəsən ki?! Qatıblar xalqı qarşılarına, qovduqca qovurlar", - kənd sakinləri deyiblər.

Alcanlı bələdiyyəsindən isə bildirilib ki, otlaq sahələrinin satılması ilə bağlı deyilənlər əsassızdır. Yay və qış otlaq sahələri və biçənəklər əhalinin mal-qarası üçün ümumi istifadəyə, ehtiyat torpaq fondunda qalan örüş və biçənək sahələri isə qanunvericiliklə müəyyən edilmiş qaydada hüquqi və fiziki şəxslərin icarəsinə verilir. Ümumi istifadədə olan sahələr əhalinin istifadəsinə müddətsiz, hüquqi və fiziki şəxslərin icarəsinə isə on ildən on beş ilədək müddətə verilir. Alcanlıdakı otlaq sahələrinin də bir hissəsi əhalinin istifadəsində, bir hissəsi icarədədir. Sakinlərsə icarədə olan sahələrə də öz heyvanlarını buraxırlar. Nəticədə məhkəməyə verilərək cərimələnirlər.

Otlaq sahələri ilə bağlı problem təkcə 1-ci və 2-ci Alcanlı kəndlərində deyil. Zərdabın daha bir neçə kəndinin sakinləri də otlaq məsələsindən əziyyət çəkirlər. Ötən il rayonun Şahhüseynli, bu il Çallı kəndlərinin sakinləri də KİV-ə oxşar şikayətlərlə müraciət ediblər. Şahhüseynlilər bildiriblər ki, onların istifadəsində olan 700 hektardan çox örüş sahəsi hissə-hissə əllərindən alınaraq rüşvət müqabilində ayrı-ayrı adamlara verilib. Çallı sakinləri isə örüş sahələrinin əllərindən alınmasına etirazlarını bu ilin fevralında magistral yolu bağlamaqla bildiriblər.

Həmin vaxt Zərdab Rayon İcra Hakimiyyətinin yeni başçısı Mərdan Camalzadə etiraz yerinə gələrək sakinlərə söz vermişdi ki, ən qısa zamanda məsələni araşdırıb problemi həll edəcək. Bu yaxınlarda Çallı sakinləri bildiriblər ki, 3 aydan çox keçməsinə baxmayaraq, icra başçısı problemlə hələ də maraqlanmayıb. Görünən odur ki, Lütvəli Babayevin icra başçısı olduğu vaxtdan miras qalan əsas problemlərdən biri - Zərdabda kəndlilərin örüş sahələrinin kimlər tərəfindənsə özününküləşdirilməsi həll edilməmiş qalır. Onun varisi Mərdan Camalzadənin bu dərdə dərman tapa biləcəyinə dair ümidlər isə sürətlə azalır...

***Orxan Həsənli***



# "Anti-terror əməliyyatları keçirmək iqtidarındayıq" – Millət vəkili

***"Tərtər Olimpiya Kompleksinin açılışında cənab prezidentin Dağlıq Qarabağ probleminin həlli istiqamətində bir neçə toxunduğu məsələlər oldu. Əsas məqam ondan ibarətdir ki, ümumiyyətlə Ermənistanın tarixi, eyni zamanda Dağlıq Qarabağın tarixi ilə bağlı cənab prezident çox mühüm açıqlama verdi".***

Bu fikirləri Unikal.org-a açılamasında Milli Məclisin deputatı Arzu Nağıyev səsləndirib. O bildirib ki, ölkə başçısının son çıxışları tarixi faklar əsasında Ermənistanı çıxılmaz vəziyyətdə qoyub: "Cənab prezident bir daha qeyd etdi ki, tarixdə çox uzağa da getmək lazım deyil. 1918-ci ildən bəri Azərbaycan ərazisində İrəvanın ermənilərə verilməsi, Dağlıq Qarabağa ermənilərin köç etməsi onların özləri tərəfindən də dəfələrlə etiraf olunub. Yəni, bir daha onlar bilməlidir ki, bu ərazilər tarixi Azərbaycan torpaqlarıdır. Cənab prezidentin çıxışında ən mühüm məqamlardan biri bu idi. Digər məsələ Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı idi. Prezident qeyd etdi ki, bu gün həbs edilən və birinin də həbsi gözlənilən keçmiş qondarma rejimin rəhbərləri həqiqətən cinayətkar olduqlarını həm erməni xalqı, eyni zamanda, bütün dünya bildi. Məlumdur ki, bunlar hansı cinayətləri törədib. Bunun hesabına hətta Ermənistanda hakimiyyətə gəliblər. Digər məsələ ondan ibarətdir ki, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ATƏT-in Minsk qrupunun müəyyən işlər gördüyünü bilirik. Biz sülhü dəstəkləyirik. Azərbaycan güclü dövlətə çevrilir. Güc hesabına erməniləri danışıqlar masasına əyləşdirmək lazımdır. Əks halda biz öz səlahiyyətimizdən və hüququmuzdan istifadə edərək bu münaqişəni məhz anti-terror əməliyyatları keçirməklə həll etmək iqtidarındayıq. Yəni həm qlobal, həm regional oyunçular, dövlətlər bizi dərk etməli, başa düşməlidirlər. Həmin an yetişəndə biz məsələnin həlli istiqamətində addımlar atacağıq. 2016-ci il aprel hadisələrində əməliyyatların dayandırılmasını bizdən necə xahiş etmişdilərsə, artıq bu məsələ tək regional dövlətlər üçün deyil, qlobal dövlətlər üçün bir görk olmalıdır. Biz bu məsələni öz gücümüzə həll etməyə qadirik. Düşünürəm ki, əsas məsələ bundan ibarət idi".

***Famil Fərhadoğlu***

# "ASAN xidmət" mərkəzləri sabah bu saatadək işləyəcək

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərinin və Abşeron rayonunun ərazisində xüsusi karantin rejiminin sərtləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə müvafiq Qərarına əsasən aidiyyəti "ASAN xidmət" və "ASAN Kommunal" mərkəzlərinin fəaliyyəti də məhdudlaşdırılacaq.***

Unikal.org-un xəbərinə görə, Bakı şəhərindəki bütün "ASAN xidmət" və "ASAN Kommunal", həmçinin Sumqayıt və Gəncə regional "ASAN xidmət" mərkəzlərinin fəaliyyəti 5 iyun saat 14:00-dan 8 iyun 2020-ci il saat 09.00-dək dayandırılır.

Qeyd olunan tarixlərdə hazır sənədlərin götürülməsi üçün mərkəzlərə müraciət etməli olan vətəndaşlar növbəti iş günlərində müvafiq xidmətlərdən yararlana bilərlər.

Xatırladaq ki, aprelin 27-dən "ASAN xidmət" və "ASAN Kommunal" mərkəzlərində vətəndaşların qəbulu "ASAN xidmət" mobil tətbiqi, www.asan.gov.az saytı və 108 Çağrı Mərkəzi vasitəsi ilə əvvəlcədən onlayn növbə tutmaqla həyata keçirilir.



## DİM buraxılış imtahanlarının vaxtını dəyişdi - Yeni TARİXLƏR

***Dövlət İmtahan Mərkəzi 6 və 7 iyun 2020-ci il tarixlərində keçirilməsi nəzərdə tutulan buraxılış imtahanlarının vaxtını dəyişərək, müvafiq olaraq 10 və 11 iyun tarixlərinə təyin edib.***

Dövlət İmtahan Mərkəzindən bununla bağlı daxil olan müraciətində deyilir: "Məlum olduğu kimi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 04 iyun 2020-ci il tarixli 191 nömrəli qərarına əsasən, Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərinin və Abşeron rayonunun ərazisində xüsusi karantin rejiminin sərtləşdirilməsi ilə bağlı müəyyən məhdudiyyətlər tətbiq olunacaq.

Nazirlər Kabinetinin qeyd olunan qərarına uyğun olaraq Dövlət İmtahan Mərkəzi tərəfindən 6 və 7 iyun 2020-ci il tarixlərində keçirilməsi nəzərdə tutulan imtahanlar müvafiq olaraq 10 və 11 iyun tarixlərində keçiriləcəkdir. Yəni iyunun 6-da imtahanda iştirak etməli olan şəxslər iyunun 10?da, iyunun 7-də imtahanda iştirak etməli olan şəxslər isə iyunun 11-də imtahan verəcəklər.

İmtahan keçiriləcək şəhər və rayonların ardıcıllığı, imtahanın başlanma saatı və imtahan iştirakçısının buraxılış vərəqəsində göstərilən binaya gələcəyi vaxt olduğu kimi qalır. "İmtahana buraxılış vərəqəsi" çap etmiş şəxslərin yenidən buraxılış vərəqəsi çap etməsinə ehtiyac yoxdur".

## Meyitdən hansı orqanların götürüləcəyi məlum oldu

***Meyit donordan transplantasiya məqsədilə ürək, ağciyər (ürək-ağciyər kompleksi), böyrəklər, qaraciyər, mədəaltı vəzi, mədə, bağırsaqlar, uşaqlıq, yuxarı və aşağı ətraflar, sümüklər, dəri-fassiya-əzələ kompleksi və onların seqmentləri, sümük iliyi, gözün buynuz qişası, kök hüceyrələr və siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən digər orqan və toxumalar götürülə bilər.***

Bu barədə "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" qanun layihəsində qeyd olunub.

Eyni zamanda, canlı donordan transplantasiya məqsədilə yalnız böyrəyin biri, ağciyərin bir payı, qaraciyərin bir hissəsi, mədəaltı vəzin bir hissəsi, nazik bağırsağın bir hissəsi, dərinin bir hissəsi, sümük iliyi və kök hüceyrələrin götürülməsinə icazə veriləcək.

## İqbal Məmmədov lerikliləra müraciət etdi

***Millət vəkili İqbal Məmmədov yeni koronavirus infeksiyasının ölkəmizdə sürətlə yayılması ilə bağlı seçicilərinə müraciət etdi.***

"Unikal"ın məlumatına görə, müraciətdə deyilir:

"Əziz Lerikli̇lər! Hörmətli dostlar! Karona virusa yoluxma hallarının son günlər ölkədə artması, əhalinin müəyyən hissəsinin karantin rejiminə və şərtlərinə əməl edilməməsi ilə əlaqədardır. Etiraf etməliyik ki, bu virusun nə qədər təhlükəli olduğunu bir çox vətəndaşlar qəbul etməyib özünü və başqalarını bu təhlükəyə doğru sürükləyir və dövlətin indiyə qədər həyata keçirdiyi yüksək qorunma tədbirlərinə kölgə salırlar.

Sizlərin hər birindən xahiş edirəm bu çətin günlərdə özünüzü, yaxınlarınızı, dövlətinizi və xalqınızı düşünərək ictimai yerlərdə maskalardan istifadə edəsiniz bir birinizdən məsafə saxlayasınız.Həftə sonlari evdə qalasınız.Bu problem hamımızın problemidir. Belə problemlər yalnız yüksək intizam ilə həll olunur".

# İpək Yoluna Dəstək Qrupu ATƏT PA-nın rəsmi strukturuna çevriləcək

***İyun ayının 3-də ATƏT PA-nın İpək Yoluna Dəstək Qrupunun "Post-COVID dövründə iqtisadiyyatın yenidən canlandırılması üçün nəqliyyat və ticarətin sadələşdirilməsi ilə bağlılığın artırılması: ATƏT PA-nın rolu nədən ibarətdir?" mövzusunda onlayn iclası keçirilib.***



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən "Unikal"a verilən məlumata görə, iclası giriş nitqi ilə açan Qrupun sədri, ATƏT PA-nın vitse-prezidenti və ATƏT PA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri Azay Quliyev koronavirus pandemiyası dönəmində belə bir görüşün keçirilməsinin əhəmiyyətini vurğulayaraq üzv ölkələrin bu platformadan istifadə edərək yeni iqtisadi əməkdaşlıq imkanlarını müzakirə etməsinin əhəmiyyətini qeyd edib. COVID-19 böhranı şəraitində nəqliyyat və ticarət prosedurlarının sadələşdirilməsinin vacibliyini iştirakçıların nəzərinə çatdıran Qrupun sədri bu prosesdə ATƏT PA-nın, İpək Yoluna Dəstək Qrupunun və üzv dövlətlərin parlamentlərinin prinsipial rol oynadığını deyib.

Azay Quliyev vurğulayıb ki, görüşün gündəliyində Qrupun fəaliyyəti ilə bağlı bir sıra təşkilati məsələlər də əksini tapıb. Belə ki, ATƏT PA-nın Prezidenti Georgi Tsereteli və Baş katib Roberto Montellanın 29 may 2020-ci ildə keçirilən ATƏT PA-nın Büro iclasında irəli sürdükləri təklifə əsasən Qrupun statusunun yüksəldilməsi və ATƏT PA-nın rəsmi strukturuna çevrilməsi məsələsi də müzakirə olunacaq. Belə bir təşəbbüsə görə ATƏT PA-nın Bürosuna minnətdarlığını bildirən Azay Quliyev bildirib ki, Qrupun ATƏT PA-nın Xüsusi (ad hoc) Komitə statusunu alması üzv dövlətlər arasında əməkdaşlığın yeni keyfiyyət mərhələsinin əsasını qoyacaq.

Daha sonra prezident G.Tsereteli və Baş katib R. Montella çıxış edərək Qrupun 3 il ərzində əldə etdiyi nailiyyətləri yüksək qiymətləndirdiklərini və onun ATƏT PA çərçivəsində Xüsusi (ad hoc) Komitə statusunu alması məsələsi ilə bağlı fikirlərini bildiriblər. Onlar Qrupun Xüsusi Komitə qismində fəaliyyətinin davam etdirməsinin effektiv addım olacağına inandıqlarını vurğulayıblar.

Onlayn konfransa məruzəçi qismində qatılan ATƏT-in İqtisadiyyat və Ətraf Mühit fəaliyyətləri üzrə əlaqələndirici Daniel Krus çıxış edərək deyib ki, COVID-19 pandemiyası hazırkı logistika sisteminin zəifliyini göstərərək milli və regional səviyyələrdə sıx əməkdaşlığa olan ehtiyacı üzə çıxardı. Avstriyanın "Rail Cargo" şirkətinin İdarə Heyətinin üzvü Tomas Paleçek çıxış edərək COVID-19 pandemiyası dövründə təmsil etdiyi qurumun həyata keçirdiyi nəqliyyat və logistik layihələr haqqında və Avrasiyada yerləşən İpək Yolu üzərindəki dəmir yolu nəqliyyatının hazırkı durumu barədə məlumat verib.

Görüşdə qurumun 2021-2022-ci illərdə keçiriləcək beynəlxalq konfransları ilə bağlı müzakirələr də aparılıb. ATƏT PA-nın İpək Yoluna Dəstək Qrupunun 2020-ci ilin aprelində keçirilməsi nəzərdə tutulan, lakin COVID-19 pandemiyası səbəbi ilə təxirə salınan 4-cü Beynəlxalq İstanbul Konfransı 2021-ci ilin aprelinə keçirilib.

Onlayn görüşdə ATƏT PA-nın İpək Yoluna Dəstək Qrupunun üzvlüyünə müraciət etmiş Qazaxıstan və Macarıstanın nümayəndə heyətlərinin quruma qoşulması məsələsinə baxılıb və qəbul olunub. Beləliklə, yeni nümayəndə heyətlərinin quruma qoşulması ilə Qrupa üzv ölkələrinin sayı 27-yə çatıb.

Sonda ATƏT PA-nın vitse-prezidenti Lord Piter Bouness, İtaliyanın ATƏT PA-dakı nümayəndə heyətinin rəhbəri Paolo Qrimoldi, Türkiyənin ATƏT PA-dakı nümayəndə heyətinin rəhbəri Nabi Avcı, ATƏT PA-nın Siyasi məsələr və təhlükəsizlik üzrə ümumi Komitəsinin sədr müavini Kostel Nikulayi Dunava çıxış edərək gündəlikdəki məsələlərlə bağlı fikirlərini bildirib.

İclasda Azərbaycanın ATƏT PA-dakı nümayəndə heyətinin üzvləri, Azərbaycan Respublikasının Avstriyadakı səfiri Qalib İsrafilov və Azərbaycanın ATƏT-dəki missiyasının müavini Rövşən Sadıqbəyli iştirak edib.

# "Ölkəyə gələn turistlərin hamısı 14 gün karantində saxlanılsın" - Baş infeksionist

***Artıq bəzi ölkələr öz sərhədlərini turistlərin üzünə açıb, bəziləri də yaxın 10 gün ərzində qonaqları qəbul edəcək.***

Azərbaycanda isə beynəlxalq uçuşlar iyun ayının 15-dən etibarən Türkiyə ilə açılış edəcək. Pandemiya dövründə təxliyə olunan vətəndaşların 14 gün karantində qaldığını nəzərə alsaq ölkəyə gələn turistlərin də 14 gün karantində qalacağı şübhə doğurmur.

Lakin əksər ölkələrdə, elə İtaliyanın özündə ölkəyə gələn turistlərin 14 gün karantində qalmasına ehriyac duyulmur.

Maraqlıdır, xarici təcrübə Azərbaycanda da tətbiq edilə bilərmi?

Məsələ ilə bağlı Modern.az-a danışan Azərbaycanın baş infeksionisti Cəlal İsayev bəzi ölkələrdə 14 günlük karantin rejiminin ləğvinin şəxsin sənədinə xüsusi möhür vurulmasından dolayı olduğunu bildirib:



"Sərhədlərini açıq elan edən və turist qəbul edən ölkələr hava limanında əcnəbilərdən sənəd tələb edir. Belə ki, şəxs öz ölkəsindən koronavirus testindən keçir və testin nəticəsi ilə bağlı müvafiq möhür şəxsin sənədinə vurulur. Bundan sonra hava limanından əcnəbilər ölkəyə buraxılır. Amma bu da təhlükəlidir.

Çünki kimsə testi səyahətdən 1 həftə, 10 gün əvvəl ala bilər ki, bu müddət ərzində də ətrafdan ona virus yoluxa bilər. Amma yenə də bu məsələni dərindən təhlil etmək lazımdır. Yəqin ki, hər ölkə öz prinsiplərinə görə qərar qəbul edəcək. Amma mən istəyərdim ki, bizdə COVID-19 sənədinin olub-olmamasından asılı olmayaraq ölkəyə gələn turistlərin hamısı 14 gün karantində saxlanılsın".

# Sahil Babayev videokonfrans keçirdi

## Nazir: "Qeyri-formal məşğulluqdan formal məşğulluğa keçidin sürətlənməsində sahibkarlardan gözləntilər çoxdur"

*"Məşğulluğun qorunması ilə yanaşı, xüsusən də əmək müqavilələrində artım tempinin hətta pandemiya dövründə də davam etməsi və bu artımın böyük əksəriyyətinin özəl sektora aid olması pozitiv sosial-iqtisadi məqamlardan biri oldu. Bu, eyni zamanda, ölkədə qeyri-formal məşğulluqdan formal məşğulluğa keçidin sürətlənməsində sahibkarların əhəmiyyətli rolunu göstərir və ona görə də bu sahədə onlardan gözləntilər çoxdur".*



Bunu Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev Azərbaycanda Amerika Ticarət Palatası ("AmCham Azərbaycan") nümayəndələri ilə birgə keçirilən vebinarda bildirib.

"AmCham Azərbaycan"ın prezidenti Nuran Kərimov aparılan sosial islahatların Palata tərəfindən maraqla izləndiyini deyib. O, belə görüşlərin nazirlik və özəl sektor arasında əmək bazarına dair islahatlara dair fikir və məlumat mübadilələri aparmağa əlverişli imkan yaratdığını bildirib.

S.Babayev vurğulayıb ki, Prezident İlham Əliyevin uğurlu sosial-iqtisadi inkişaf strategiyasının prioritetlərindən biri olaraq sahibkarlığın inkişafını dövlət bütün istiqamətlər üzrə ardıcıl olaraq dəstəkləyir. Bunun müsbət nəticəsi kimi, milli iqtisadiyyatda özəl sektorun rolu getdikcə artır.

Pandemiya dövründə məşğulluğa və sosial rifaha dəstək tədbirlərini qeyd edən S.Babayev ümumilikdə 4,8 milyon insanın və ya əhalinin 48 faizə qədər hissəsinin bu tədbirlərlə əhatə olunduğunu, sahibkarların da dövlətin dəstəyi ilə təmin olunduqlarını bildirib.

O qeyd edib ki, eyni zamanda, bu dövrdə məşğulluğun qorunmasında, eləcə də həssas qruplarla bağlı sosial aksiyalarda sahibkarların yaxından iştirakı, dövlət siyasətinə dəstək verməsi, sosial məsuliyyət mövqeyindən həmrəylik nümayiş etdirmələri ilə bağlı ölkəmizdə uğurlu bir təcrübə formalaşdı. Məhz həmin mövqedən sahibkarlar, o cümlədən "AmCham Azərbaycan"da təmsil olunan şirkətlər qeyri-formal məşğulluğun qarşısının alınması, kölgə iqtisadiyyatının daha da azaldılması proseslərində qarşıdakı dövrdə daha fəal şəkildə öz töhfələrini verə bilərlər.

Qeyri-formal məşğulluğa qarşı mübarizə tədbirlərindən bəhs edən S.Babayev bildirib ki, bu sahədə məsuliyyət tədbirlərinin görülməsi ilə yanaşı, formal məşğulluğa keçidi stimullaşdıran təsirli mexanizmlər də tətbiq olunur. Minimum əmək haqqının artırılması, bir sıra vergi güzəştləri, vergi prosedurlarının sadələşdirilməsi, pandemiya dövründə sahibkarların dəstəklənməsi, eləcə də bu günlərdə daha bir sosial-iqtisadi dəstək kimi, məcburi dövlət sosial sığorta haqqı dərəcələrinin endirilməsi və s. bunun əyani nümunələridir.

Nazir "Əmək müqaviləsi bildirişi" altsisteminin funksional imkanlarının artırıldığını, altsistemdə işəgötürənlər üçün vacib məlumatların, xəbərdarlıqların yerləşdirildiyini qeyd edib. O, "Məşğulluq" altsisteminin işəgötürənlər üçün əhəmiyyətini diqqətə çatdırıb, "AmCham Azərbaycan"da təmsil olunan şirkətlərin də işçi qüvvəsinə olan tələbatlarının ödənilməsi üçün bu innovativ imkanlardan maksimum yararlanmalarını tövsiyə edib.

Əmək, məşğulluq sahəsində aparılan islahatları diqqətə çatdıran S.Babayev bildirib ki, islahatlarda sahibkarlarla sosial dialoqa əsaslanan əməkdaşlığa xüsusi önəm verilir və bu amil ümumən əmək bazarının inkişafında hədəflərə nail olunması üçün vacibdir.

Görüşdə əmək bazarında ortaya çıxan yeni məsələlər, əmək münasibətlərində yaranan yeni forma və yanaşmalarla bağlı olaraq əmək qanunvericiliyinin təkmilləşdirilməsi üçün aparılan işlər, Əmək Məcəlləsinə təklif edilən əlavə və dəyişikliklər barədə də Palata üzvlərinə məlumat verilib.

ABŞ-ın Azərbaycandakı səfiri Li Litzenberger pandemiyaya qarşı mübarizə aparılması, əhalinin sağlamlığının mühafizəsi sahəsində Azərbaycanda aparılan işlərin, pandemiya dövründə iqtisadiyyata və sosial rifaha dəstək tədbirlərinin təqdirəlayiq olduğunu bildirib. O, ölkəmizdə dövlət tərəfindən sahibkarlığın dəstəklənməsini, həmçinin əmək və məşğulluq sahəsində aparılan islahatlarda sahibkarlarla əməkdaşlığa, sosial dialoqa önəm verilməsini də müsbət dəyərləndirib.

Palatanın nümayəndələri belə görüşlərin əhəmiyyətini vurğulayıblar. Görüş əmək və məşğulluq sahəsində islahatlara, əmək qanunvericiliyinin təkmilləşdirilməsinə dair fikir mübadiləsi ilə davam edib, rəy və təkliflər ifadə olunub. Nazir Palata üzvlərinin suallarını cavablandırıb.

1996-cı ildə yaradılan "AmCham Azərbaycan" Azərbaycanda fəaliyyət göstərən, xarici və yerli təşkilatların maraqlarını dəstəkləyən və təşviq edən aparıcı biznes assosiasiyasıdır. Qurum Azərbaycan iqtisadiyyatının hər bir sektorunda fəaliyyət göstərən 250-dən çox üzv şirkəti özündə birləşdirir və ölkəmizdə bütün xarici investisiyaların təxminən 80%-ni, yerli investisiyaların mühüm qismini təmsil edir.

# Əli Əsədov karantin rejiminin sərtləşdirilmə səbəbini açıqladı



***Azərbaycan Respublikasının Baş Naziri, Operativ Qərargahın rəhbəri Əli Əsədov iyunun 4-də ölkəmizdə koronavirusa yoluxma hallarının kəskin artması ilə bağlı əhaliyə müraciət edib.***

"Unikal"ın məlumatına görə, müraciətdə deyilir: "Hörmətli həmvətənlər! Məlum olduğu kimi, 2020-ci ilin əvvəlindən başlayaraq dünyada cərəyan edən və fevral ayından Azərbaycana da idxal olunan koronavirus infeksiyasının qarşısının alınması məqsədilə dövlət və hökumət tərəfindən ilk günlərdən təxirəsalınmaz və qətiyyətli tədbirlər görülüb və görülməkdədir. Profilaktik və təxirəsalınmaz tədbirlərin operativ həyata keçirilməsi üçün Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 fevral tarixli Sərəncamı ilə Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılmışdır. Operativ Qərargah "Sanitariya-epidemioloji salamatlıq haqqında" Qanuna uyğun olaraq martın 24-dən aprelin 20-dək Azərbaycanda xüsusi karantin rejimi elan etmişdir, kütləvi tədbirlər ləğv edildi, ölkəmizin quru sərhədləri bağlanıldı, şəhər və rayonlararası gediş-gəliş dayandırıldı. Xəstəliklə mübarizənin gücləndirilməsi məqsədilə xüsusi karantin rejimi mərhələli şəkildə sərtləşdirildi. Bu müddət ərzində epidemiyanın Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə dövlət başçısının tapşırıqlarına uyğun olaraq bütün sahələr və istiqamətlər üzrə lazımi tədbirlər görülüb və görülməkdədir. Atılmış bütün addımların əsas məqsədi vətəndaşlarımızın sağlamlığının və həyatının qorunmasıdır.

Görülmüş tədbirlər müsbət nəticələr vermişdir və bu, statistik göstəricilərdə də öz əksini tapmışdır. Həkimlərin tövsiyələri və statistik göstəricilərə əsaslanaraq, aprelin 27-dən Operativ Qərargah mərhələli şəkildə yumşaldılma tədbirlərinə başlamışdır. Karantin dövrü ərzində istər həkimlərin, istərsə də digər rəsmi şəxslərin müraciətlərində mütləq olaraq sanitariya-epidemioloji və gigiyenik qaydalara riayət edilməsi əsas tələb kimi qoyulmuşdur. Əhalimizin böyük hissəsi görülmüş işləri yüksək qiymətləndirərək həmrəylik göstərdi və ilkin olaraq həmin tövsiyələrə və tələblərə riayət edirdi. Lakin təəssüflə qeyd etməliyəm ki, son yumşaldılma tədbirləri zamanı vətəndaşlarımızın böyük bir hissəsi müəyyən olunmuş qaydalara və təcrid tövsiyələrinə riayət etmədi. Bunun nəticəsi olaraq son günlər infeksiyaya yoluxanların sayı kəskin artmışdır.

Bunlara əsaslanaraq və tibbi qərargahın müraciəti ilə Operativ Qərargah bu gün qərar qəbul edib. Qərara əsasən 6 iyun saat 00:00-dan 8 iyun saat 06:00-dək aktiv yoluxma hallarındakı artımı səbəbindən Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərində və Abşeron rayonunda sərt karantin rejimi tətbiq olunacaq. Qərarda göstərilən tələblərə riayət olunması məcburidir və mütləqdir.

Xəstəliyin yoluxma halları digər şəhər və bölgələrdə artacağı hallarda sərt tədbirlər gələcəkdə həmin bölgələrdə də təkrarən tətbiq olunacaqdır. Qərarın icra olunmasına nəzarət Daxili İşlər Nazirliyinə həvalə olunmuşdur. Sonda bir daha bildirmək istəyirəm ki, görülən bütün tədbirlərin ali məqsədi vətəndaşlarımızın sağlamlığının və həyatının qorunmasıdır".

***Famil***

# 3 22 574 koronavirus testi aparılıb

***İndiyədək Azərbaycanda COVID-19-a yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 322574 test aparılıb.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan Unikal.org-a verilən məlumata görə, hazırkı dövrədək ölkədə 6522 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 3737 nəfər müalicə olunaraq sağalıb, 78 nəfər vəfat edib. 2707 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir.

# Növbəti həftəsonu qadağa olmaya bilər

***"Növbəti həftə küçəyə çıxma qadağasının olub-olmayacağı haqda danışmaq hələ tezdir".***

Unikal.org-un verdiyi xəbərə görə, bunu TƏBİB-in İdarə Heyətinin sədri Ramin Bayramlı deyib.

O bildirib ki, bu barədə veriləcək qərar növbəti həftə ərzində yoluxmanın sayından asılı olacaq.

## “Daha sərt karantin qaydaları tətbiq oluna bilər” - Cavid Osmanov

***”Koronavirusa qarşı mübarizə tədbirləri ölkəmizdə pandemiyanın tüğyan etdiyi vaxtda uğurla həyata keçirildi. Nəticə etibarı ilə ölkəmiz ən sabit ölkələrdən biri sayılmışdır”.***

Bu sözləri Milli Məclisin deputatı Cavid Osmanov Unikal.org-a açıqlamasında deyib. O bildirib ki, Azərbaycan dövləti koronavirusla mübarizədə təkcə milli deyil, eyni zamanda regional və qlobal miqyasda uğurla çıxış edib:

”Bildiyiniz kimi, 30-a yaxın ölkəyə də Azərbaycan dövləti tərəfindən yardımlar edilib. Son yumşalma tədbirlərindən sonra isə biz görürük ki, insanlarda bu virusun tamamilə yox olması ilə bağlı fikirlər yarandı. Bəziləri hətta deyirdilər ki, bu virus heç yoxdur, hansısa böyük dövlətlərin siyasi oyunlarıdır. Bəziləri isə deyirdilər ki, ”Covid-19” infeksiyası mənə heç nə edə bilməz. Beləliklə, məsuliyyətsiz insanlarımızın ucbatından biz gördük ki, yumşalma tədbirləri həyata keçirildikcə infeksiyanın yoluxma halları daha da artdı. Ötən gün isə daha bir anti-rekord oldu. 325 yeni yoluxma halı oldu, eyni zamanda 5 vətəndaşımız öldü. Bu çox pis haldır.

Biz görürük ki, günü-gündən yoluxma halları daha da çoxalır. Təbii ki, ilk növbədə Nazirlər Kabineti yanında Operativ Qərargah da vurğulamışdır ki, Azərbaycan dövləti üzərinə düşən bütün vəzifələri layiqincə yerinə yetirdi. Bununla bağlı həm aztəminatlı ailələrə, həm də sahibkarlara dövlət dəstəyi tədbirləri həyata keçirildi.

Yumşalma rejimi başladıqdan sona məsuliyyət daha çox Azərbaycan vətəndaşı üzərinə düşürdü. Sadaladığım amillər də onu göstərdi ki, əksəriyyət sosial məsuliyyətini anlamadı. Nazirlər Kabineti yanında Operativ Qərargahın qaydalarına əməl olunmaması nəticəsində belə hallar baş verib. Təbii ki, ötən gün keçirilən brifinqdə belə bir təklif oldu ki, həftə sonları tamamilə evdən çıxmaq halalrının qarşısı alınsın. İnsanlrımız izolyasiya qaydalarına əməl edərək evlərində qalsınlar. Mən bunu yüksək qiymətləndirirəm. Bir daha qeyd edirəm ki, əgər Operativ Qərargah görsə ki, təkcə şənbə-bazar günlərinə məhdudiyyət qoyulmaqla yenə də yoluxma halları çoxalır, yəqin ki gələcəkdə daha çox məhdudiyyətlər qoyulacaq.

Hər bir Azərbaycan vətəndaşı yaxşı başa düşməlidir ki, yoluxma hallarının azaldılması üçün hər kəs öz sosial məsuliyyətini dərk etməlidir və Nazirlər Kabineti yanında Operativ Qərargah qoyduğu qaydalara birmənalı olaraq əməl olunmalıdır. Əgər əməl olunmasa və insanlarımız əvvəlki kimi məsuliyyətsiz yanaşsalar, karantin qaydaları yenidən sərtləşdirilə bilər. Azərbaycan vətəndaşının sağlamlığının qorunması üçün daha ciddi, daha sərt karantin qaydaları tətbiq oluna bilər.”

***Murad İbrahimli***

# Əbülfəs Qarayevin illər sonra ortaya çıxan yalanı...

## Sabiq nazirin bir zamanlar böhtan adlandırdığı ittihamların həqiqət olduğu qətiləşir

***Düz 14 il öncəydi; 2006-cı ilin iyun ayının əvvəllərində mədəniyyət naziri Əbülfəs Qarayev mətbuat konfransı keçirmiş və jurnalistlərin suallarını cavablandırmışdı. Mətbuat konfransı zamanı Əbülfəs Qarayev mətbuat səhifələrində haqqında yazılan məqalələrə də toxunaraq tənqiddən çəkinmədiyini, ünvanına səsləndirilən müxtəlif məzmunlu ittihamları (o vaxt bu ittihamlar arasında rüşvət və korrupsiyaya yönəlik eyhamlar da az deyildi) qorxulu qəbul etmədiyini söyləmiş, onları böhtan adlandırmış, belə demişdi: ”Mən ölkə prezidentinin təyinatına əsasən vəzifəyə gəlmişəm və Azərbaycanda mədəniyyət və turizm sahəsini dirçəltmək üçün əlimdən gələni edirəm.***

4 ay ərzində mədəniyyət və incəsənət xadimləri ilə görüşmüşəm, istər yaşlı, istərsə də gənc nəslin problemləri ilə maraqlanmışam. Eyni istiqamətdə işlərimi davam etdirirəm. Əslində mənim haqqımda yazılan böhtan xarakterli yazılara əhəmiyyət vermirəm...”

Bu Qarayevin özü barədə zaman-zaman səslədirilən tənqidlərə çoxsaylı cavablarından biridir və sabiq nazir üçün çox xarakterikdir: o, Azərbaycanın digər iri məmurlarının çoxu kimi barəsindəki ittihamları daim təkzib etmək, böhtan olaraq qiymətləndirmək yolu tutub. Hələ turizm sahəsinə də cavabdeh olarkən mətbuatda həmin sektorun məmur monopoliyasının ”əsirinə” çevrildiyini qətiyyətlə inkar edir, bunu uydurma adlandırırdı, eyni zamanda ölkənin turizm göstəricilərinin hətta qonşu Gürcüstandan belə geridə qalmasının səbəblərini əsaslandıra bilmirdi. Nəticəsi bu oldu ki, axırda turizm Əbülfəs müəllimin nəzarətindən çıxarıldı.

Mədəniyyət sahəsində yaşananları daim müsbət yöndən təqdim və təhlil edən Qarayev bu sahə ilə bağlı tənqidləri eşitmir, eşitmək istəmirdi, onları böhtan kimi qiymətləndirirdi, axırda ümumiyyətlə vəzifəsindən oldu. Həm də kifayət qədər biabırçı hadisə - nazirliyin yüksək vəzifəli şəxslərinin elə kabinetindəcə qandallanması fonunda!

Yola salmaq üzrə olduğumuz həftə isə artıq ”eks nazir” statusu daşıyan Əbülfəs müəllimin xaricdəki biznes aktivləri barədə sensasion faktlar yayıldı. Belə ki, onun bir neçə ölkəyə, o cümlədən offşor adalara səpələnmiş çoxsaylı şirkətləri barədə sənədlər üzə çıxdı. Həmin sənədlərdən belə məlum olur ki, bu yaxınlarda əvvəl işdən azad edilən, müavini və rəhbərlik etdiyi nazirliyin idarə rəisi həbs olunan, indiyədək ölkənin “ən fağır, ən yoxsul naziri” (digərləri ilə müqayisədə!) hesab edilən Əbülfəz Qarayevin ailə şirkətləri Azərbaycanla yanaşı Rusiya, Litva, Panama, Maltanı da əhatə edir.

Əslində DTX-nin Mədəniyyət Nazirliyində aşkarladığı bəzi korrupsiya faktları Əbülfəz Qarayevin mədəniyyət pullarını necə taladağı haqda müəyyən təsürat yaradırdı. İndi isə məlum olur ki, o Azərbaycandan çıxardığı pullarla xarici ölkələrdə daşınmaz əmlak və digər aktivlər alıb. Məsələn, keçmiş nazirin yeganə övladı - qızı Suad Qarayeva hələ 2002-ci ildən ad və soyadının baş hərflərini özündə ehtiva edən ”SQ-FUTURE” MMC-nin təsisçisidir. Bakı şəhəri, Səbail rayonu, Müslüm Maqomaye küçəsi, ev 22-də hüquqi qeydiyyatda olan şirkətin qanuni təmsilçisi Ülviyyə Məcidovadır.Həmin ünvanda 2006-cı ilin martında Əbülfəs Qarayevin həyat yoldaşı Kazımova Lalə Tofiq qızının təsisçiliyi ilə Mədəniyyət Nazirliyi tərəfindən maliyyələşdirilən ”Yol+İlk elmi-populya dərgi redaksiyası” MMC qeydə alınıb. O, “Jazz Dostları” ictimai birliyinin də təsisçisidir. Lalə Kazımova 2010-cu ilin dekabrında Türkiyədə ad və soyadının abbreviaturasını ifadə edən “KL Bodrum Emlak Ticaret ve Sanayi Limited Şirketi”ni təsis edib. Şirkət İstanbul Ticaret Sicili Memurluğunda 5000 TL nizamnamə kapitalı ilə qeydiyyatdan keçib. Nizamnaməyə görə, Qarayevlərin ailə şirkəti Türkiyədə və ölkə xaricində turizm obyektləri, otel, yaşayış binaları, villa və idman təsisatlarına sahib olmaq, işlətmək hüququ əldə edib.

Qarayevlərin Türkiyədəki turizm təsisatları barədə məlumat olmasa da, keçmiş nazirin xanımının sosial şəbəkələrdəki hesabında Bodrumdakı beşulduzlu “Kuum” otelinin simvolunu (qoşaqanadlı mələk) profil şəkli seçməsi maraq doğurur.Lalə Kazımovanın adına Litvada da şirkət qeydiyyata alınıb. ”Triat Exire UAB” adlı həmin şirkət 10 ilə yaxındır ki, Litvanın daşınmaz əmlak bazarında fəaliyyət göstərir. Vülnüsdə Şaltiniy 22-də Qarayevlər ailəsinə məxsus çoxsaylı daşınmaz əmlak icarəsindən gəlir 35 min dollardan artıqdır.

Əbülfəs Qarayevin qızı Suad Qarayevanın təsisçisi olduğu daha bir daşınmaz əmlak şirkəti 2013-cü ildə Rusiya paytaxtında qeydiyyatdan keçib. ”Qals MMC” Moskvanın Tatarskaya küçəsi 7 ünvanında hüquqi qeydiyyata alınıb. Şirkətin adı Qarayevlər ailəsinin soyad və adlarının abbreviaturasından götürülüb: Qarayev, Abulfas, Lalə və Suad. Bu şirkət üzərindən Qarayevlər ailəsi Moskvada icarəyə verilmiş çoxsaylı mənzillərə, ticarət obyektlərinə sahibdir.

O da maraqlıdır ki, 2015-ci ildə Əbülfəs Qarayevin qızı Suada Qarayeva - Maleki ilə ailə quran İran əsilli Britaniya vətəndaşı Şəhriyar Maleki də bu izdivacdan sonra Azərbaycanda iri biznesə sahib olub. O, 2016-cı ildən Bakıda ”Colab” biznes mərkəzlərinin şərikidir. Paytaxtda iki ünvanda - Neftçilər pr. 151-də ”Port Baku Mall”-da və “Time” Business Mərkəzində hər biri 1000 kvadratmetrlik iki böyük iş mərkəzlərində ofislər, seminar və konfrans salonları icarədədir.

Keçmiş nazirin kürəkəni 2016-cı ilin noyabrında Azərbaycanda ”Green Farms Azerbaijan” MMC şirkətini də qeydiyyatdan keçirib. Şirkətə aid saytda qeyd olunur ki, o, ”Green Farms International” şirkətinin Azərbaycan üzrə nümayəndəliyidir. Əbülfəs Qarayevin nazir kimi nüfuzu



sayəsində həmin MMC 2017-ci ilin mayında Biləsuvar İcra Hakimiyyətindən 5 min hektar torpaq sahəsini olduqca aşağı qiymətə 49 illik icarəyə götürüb.Həmin ərazi Qarayevlərin və qohumlarının nəzarətinə keçənə qədər qışlaq sahəsi olub və yerli əhali tərəfindən təyinatı üzrə istifadə edilib. Əbülfəs Qarayev 2017-ci ildə Nazirlər Kabinetinin sərəncamı ilə bu ərazinin əkin sahəsi kimi istifadə olunmasına və qudasının Maltadakı şirkətinin nəzarətinə verilməsinə nail olub. O da ilgincdir ki, icarə müqaviləsinə imza atan keçmiş icra başçısı, Əbülfəs Qarayevin yaxın dostu Mahir Quliyev aprelin 29-də Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən saxlanılıb.Bunlar sabiq nazirin ailə biznesi ilə bağlı faktların hamısı deyil. İnternet resursları vasitəsilə bu barədə yayılan bütün sənədlərlə tanış ola bilərsiniz. Biz yuxarıdakıları nümunə olaraq sizinlə bölüşdük. Məqsədimiz Qarayevin illər öncə əslində necə böyük yalanlar danışdığını gözlər önünə sərməkdi. O, bir zamanlar cavabdehlik daşıdığı turizm və mədəniyyət sahəsində rüşvət, korrupsiya hallarını yalanlayır, bizneslə yaxından-uzaqdan əlaqəsi olmadığını qətiyyətlə bəyan edir, bu barədə yazanları, danışanları böhtançı kimi damğalayırdı.

İndi isə hər şey göz önündədir, necə deyərlər, kor-kor, gör-gör...

***Sənan Mirzə***

# Qafqazda yeni təxribat planı hazırlanır

## Azərbaycanla Gürcüstan arasında münasibətlərin gərginləşdirilməsi üçün səylər artırılıb

***Son günlər Gürcüstanda azərbaycanlılara qarşı müyyən təxribatlar həyata keçirilir. Azərbaycanlıların yaşadığı Kvemo -Kartili regionunda etnik və dini müstəvidə gürcü ruhanilərinin qızışdırıcı bəyanatlarına rast gəlirik. Bundan əlavə, ”Keşikdağ” məbəd kompleksində gürcü tərəfdən yeni provakasiyaların olacağı vurğulanır.***

Bu barədə “Unikal” qəzetinə açıqlama verən politoloq Məhəmməd Əsədullazadə deyib ki, Gürcüstanda baş verən bu proseslərdə müəyyən qüvvələr var ki, onlar iki ölkə arasında əlaqələrə zərbə vurmağa çalışır. Onun sözlərinə görə, burada Gürcüstan hakimiyyətində təmsil olunanların da müəyyən rolu var: Bidzina İvanaşvilinin kölgəsində olan hakimiyyət Azərbaycanla əlaqələrdə yeni problemlər axtarır. Bu gün Azərbaycan və Gürcüstan enerji və nəqliyyat layihələri reallaşdırıb. Bu ölkələr Qərbin regionda əsas partnyorlarıdı və birgə iş sahəsində regionda yeni bir mərhələ formalaşdırıblar. Belə olan xüsusda, bu kimi təxribatların baş verməsi regionda siyasi təşəbbüslərə zərbə vurmaqdır. Bu ölkədə azərbaycanlılara qarşı təxribatların arxasında Gürcüstan prezidenti S. Zuarabaşvili və B. İvanaşvilinin komandası durur. Həmçinin Moskva tərəfindən idarə olunan bəzi azərbaycanlıların da rolu burada istisna deyil. Azərbaycanlıların kompakt yaşadığı ərazilərdə bəzi gürcü ruhanilərinin və rəsmilərinin təxribatları Gürcüstanda daxili vəziyyəti mürəkkəbləşdirəcək. Gürcüstan hakimiyyətinin apardığı siyasət ölkədə dini və etnik zəmində problemlərə yol açır. Və bu da regionda Rusiyanın maraqlarının təmin olunmasına gətirir. Rəsmi Tiflisin Azərbaycanla bağlı problemlər axtarması, özü üçün ciddi problemlərin başlanmasına gətirə bilər. Azərbaycan dost və qonşu strateji tərəfdaş olan Gürcüstana daima dəstək olub. Amma Gürcüstan hakimiyyətinin son illərdə dost olmayan siyasətinin şahidi oluruq”.

Politoloq onu da qeyd edib ki, bu siyasətin iki xalq arasında problemlər səviyyəsinə qaldırılmasında rəsmi Tiflis məsuliyyət daşıyır: “Azərbaycan hakimiyyəti, xüsusi ilə prezident İlham Əliyev daima Gürcüstana dəstək verib. Məhz bu gün də bütün parametrlərlə siyasi-iqtisadi dəstək davam edir. 2008-ci ilin Avqust müharibəsində Rusiyanın təzyiqlərinə rəğmən Azərbaycan Gürcüstana maliyyə və hərtərəfli yardım etdi. Yaxşı olardı ki, rəsmi Tiflis özü tərəfindən idarə etdiyi , müəyyən qüvvələrin maraqlarına uyğun olan bu siyasətə son versin”.

Gürcüstandan Azərbaycana qarşı olan təxribatlar barədə danışan Bakı Politoloqlar klubunun sədri, Prezident yanında İdarəçilik Akdemiyasının politoloqu Zaur Məmmədov deyib ki, artıq Dövlət Sərhəd Xidməti də Keşikçidağ məsələsi ilə bağlı açıqlama yayıb: “Biz yenidən Gürcüstandan Azərbaycana qarşı təxribatların şahidi oluruq. Bu təxribatların mənbəyinin hamısı Gürcüstanda deyil, biz bunu bilməliyik. Gürcüstan xüsusi xidmət orqanlarının bu ilin aprel ayında 2019-cu illə bağlı açıqladığı hesabatda da göstərildi ki, keçən il Azərbaycanla olan Keşikçidağ insidentində xarici qüvvələrin əli olub, onlar müxtəlif siyasi partiyalar və hərəkatlarla Azərbaycana qarşı və iki ölkə arasında münasibətlərin pozulmasını məqsəd güdən təxribatçı qruplardan istifadə ediblər”.

Onun sözlərinə görə, Azərbaycan sərhədçiləri ötən il çox soyuqqanlı şəkildə gürcü təxribatçıların qarşısını alıb: “Məqsəd Gürcüstan və Azərbaycan arasında münasibətlərin korlanması, Gürcüstandan daha çox Azərbaycana təzyiqlərin edilməsidir. Biz bu təxribatlarda bir neçə ölkənin rol oynadığını deyə bilərik. Əsasən də ermənilərin buradakı iştirakını vurğulamaq istəyirəm. Biz iki ölkənin bu gərginliyi aradan qaldırmaq üçün aktiv şəkildə rol oynadığını görürük. “Gürcü Marşı”, Leyboristlər Partiyası kimi təşkilatların və etnik qrupların adları artıq məlumdur. Onların arxalarında kimin dayandığı aydındır. Həmin qüvvələr ötən il Keşikçidağla yanaşı, Batumidə Türkiyəyə qarşı “Gürcü marşı” təşkil etmişdilər. Maraqlıdır ki, bu gün Gürcüstan ərazilərini işğal edənlərə qarşı heç bir addım atmayan şəxslər, habelə ermənilərin Gürcüstanın 300-dən çox kilsəsinə iddiasının olmasına baxmayaraq, onlara səslərini çıxarmayanlar bu dəfə də Azərbaycana qarşı təxribata əl atdılar”.

Zaur Məmmədov qeyd edib ki, indiki məqamda Azərbaycana qarşı ciddi təzyiqlərdən söhbət gedir: “Azərbaycan hakimiyyəti azad və müstəqil şəkildə siyasət yürüdür. Görünən budur ki, bu siyasət bəzi qüvvələrin və bir sıra xarici ölkələrin maraqlarına cavab vermir. Azərbaycanda aparılan kadr və siyasi islahatlar bəzi paytaxtlarda qıcıq yaradır, bu səbəbdən də onlar sərhədlərdə təxribatlara əl atırlar. Gürcü Pravoslav patriarxlığı ayrı-ayrı paytaxtlarla sıx münasibətlərə malikdir. Patriarxlığın ötən il və bu gün Keşikçidağla bağlı gördüyü işlər əsl təxribatdır. Təkcə Gürcüstandan yox, son zamanlarda Ermənistanın Qazax istiqamətində də təxribatlarının şahidi oluruq. Həmin paytaxtlar sərhədlərdə təxribatlara əl atmaqla, Azərbaycana qarşı təzyiq etmək istəyirlər. Bunlar kifayət qədər ciddi və həssas məqamdır. Sərhədlərdə baş verən belə təxribatlar Gürcüstan və Azərbaycan xalqları arasında nifaq sala bilər. Eyni zamanda bu təxribatlar ölkə daxilində də təşkil edilə bilər ki, bu günlərdə həmrəy olmağımıza ehtiyac var”.



Politoloq Ermənistan rəhbərliyinin bu təxribatlarda oynadığı rola da diqqət çəkib: “Maraqlıdır ki, Nikol Paşinyan Ermənistanda hakimiyyətə gəldikdən sonra ən çox səfər etdiyi ölkə Gürcüstandır. O, Gürcüstanın Ermənistanla daha da yaxınlaşmasını arzulayır. Ermənilər Gürcüstanı Azərbaycan və Türkiyənin yanından uzaqlaşdırmaq və təxribat törətməkdə maraqlıdırlar”.

Gürcüstan Dövlət Təhlükəsizlik Xidməti Borçalıda gürcülər və azərbaycanlılar arasında etnik münaqişəyə dair açıqlama yaydı. Bildirildi ki, bəzi qruplar və ya şəxslərin bu iki millət arasında qarşıdurma yaratmaq istəyi var. Sizcə, bu prosesin arxasında kimlər dayanır? Bu barədə teleqraf-a müsahibəsində “Borçalı” Cəmiyyətinin sədri, politoloq Zəlimxan Məmmədli maraqlı fikirlər səsləndirib. O bildirib ki, Gürcüstanda yaşayan soydaşlarımız İslam dininin daşıyıcılarıdır, eyni zamanda, onların orada yaşamağından narahat olan qüvvələr var. Bunlar ermənilər, PKK yanlı kürdlər, İran və Rusiyadır. Habelə, Gürcüstanda din adı altında fəaliyyət göstərən bir sıra icma bura daxildir: “Zaman-zaman bizim məscidlərə xaç işarələri çəkilir, müsəlman kəndlərinin girişlərində xristianlığın simvolları asılır. Dövlət orqanları çoxdan bu kimi hallara qarşı profilaktik tədbirlər görməli idi. Təəssüflər olsun ki, biz, zamanında həyəcan siqnalları verdiyimiz halda, bunu başqa səmtə yönəltdilər. Amma onlar vaxtında siyasi proseslərdən tamamilə uzaqlaşdırılmalı idi. İndiki zamanın özündə də borçalılar və gürcülər arasında qarşıdurma yaratmaq planı var. Yəqin ki, Keşikçidağ olayları yadınızdadır. Həmin gərginliyin və tarixi türk toponimlərinin gürcüləşdirilməsi prosesinin arxasında da onlar dayanırdı. Siyasət kənardan bunları susqunluq içində izləyir. Sanki baş verənlər siyasətin də maraqlarına uyğun gəlir.

Gürcüstanda Nəriman Nərimanov şəxsiyyətinin ətrafında bir bəhanə tapılıb və bu, siyasi gündəmə daşınır. Buna birbaşa din adamlarının və yepiskopun müdaxilə etməsi, məsələyə siyasi müdaxilə, etnik və dini kimliyi saya salmamaq, həssas olan Borçalı bölgəsinin mahiyyətini dərk etməmək deməkdir. O da mümkündür ki, bunu dərk edərək, bu proqrama qol qoyublar.

Qorxulu tendensiyadır, Gürcüstanın təhlükəsizlik orqanları onları durdurmalıdır. Din siyasətə qarışmamalıdır, siyasətə qarışan din xadimi - etnik və dini zəmində qarşıdurma yaratmaq istəyən yepiskop və onu himayə edənlər məsuliyyətə cəlb olunmalıdır. O cümlədən, Azərbaycana və soydaşlarımıza rəsmi hakimiyyətin izahatı verilməlidir. Din adamlarının izahat vermək hüququ yoxdur. Orada olan din adamı - yepiskop iki xalq və iki din arasındakı şeytanı qovmalıdır. Amma Gürcüstanın yepiskopu şeytanı iki xalqın və iki dinin arasına soxur. Bunu da məqsədyönlü şəkildə edir. Bu, böyük təxribatdır, bundan Gürcüstan və bütöv Qafqaz əziyyət çəkə bilər. Gürcü siyasiləri bunun fərqində olmalı və bu avantürist, şeytana aşiq olan keşişi iblisin çəngindən xilas etməlidir”.

Politoloq onu da qeyd edib ki, erməni milli mərkəzi yüz ildən çoxdur ki, öz siyasətini yürüdür və gürcülər ermənilərin Gürcüstan siyasətinə girməsinin fərqindədirlər: “Erməni separatizmi Gürcüstanda genişlənir. Əvvəldə də qeyd etdiyim kimi bölgədə gərginliyin yaranmasında ermənilər, PKK, Rusiya, İran və Gürcüstanda olan şovinist mərkəzlər, ultra-radikal qüvvələrin rolu var. Onlar İranla ortaq layihələrini həyata keçirirlər. Hər halda erməni separatizmi Gürcüstanı təhdid edir. Ermənilərin Abxaziya və Cənubi Osetiyada da separatçıların tərəfində olması haqda faktlar var.

Demək olar ki, Saakaşvilinin dönəmində onların kökünü kəsdilər. Saakaşvili Gürcüstanı bölməklə hədələyən separatçı Çaxalyanı həbs etdirdi. Amma İvanaşvili gələndən sonra dost Zəlimxanın Gürcüstana girişinə qadağa qoydu, amma Çaxalyanı həbsdən təntənə ilə azad etdi. Yəni, Gürcüstanın rəsmi kursunda da erməni simpatiyası ilə yanaşı, türk antipatiyası da sezilir. Azərbaycandakı vətəndaşlarımız və mediamız bunu bilməlidir. Bizim indiki zamanda əsas silahımız millətimizdir. Biz əl-ələ verəcəyiksə, bu oyunları pozmaq qüdrətində olacağıq. Buna inanıram”.

***Z.Məmmədli***

# Vaşinqton separatizmə dəstək üçün “qırmızı xətt”ə daha da yaxınlaşır

## ASİYA ƏJDAHASI"NIN SƏBRİ TÜKƏNİB, DÖYÜŞƏ HAZIRDIR

***Mayın sonunda Pekində 13-cü çağırış Çin Xalq Nümayəndələr Məclisinin (XNM) 3-cü iclası keçirilib. Çinin illik parlament iclasları hökumətin bu il üçün hesabatlarını nəzərdən keçirir və təsdiqləyir, qarşıdakı dövr üçün planları hazırlayır və yeni qanunlar qəbul edir. Gözlənilmədən bu dəfə Honq-Konqun Milli Təhlükəsizlik Qanununun hazırlanması ilə bağlı məsələ gündəmə gəlib.***

2014 və 2019-cu illərdə Honq-Konqda baş verən iğtişaşlar zamanı ÇXR orqanlarının “strateji dözümlülüyünün” səbəblərindən biri də məhz qətiyyətli tədbirlər sayəsində nizamın bərpası üçün qanunvericilik bazasının yoxluğu idi. Təhlükəsizliyin qorunması ilə bağlı yerli qanunun qəbulu Honq-Konqun ÇXR-ə verilməsi barədə 1984-cü ilin Çin-İngiltərə sazişində təmin edilib. Mətn 2003-cü ildə hazırlanıb, lakin etirazla üzləşdiyindən qəbul edilməyib. Yaranmış qanunvericilik boşluğundan iğtişaşların təşkilatçıları faydalanıblar.

Təəccüblü deyil ki, XTM təklifi müzakirə edərək demək olar ki, yekdilliklə Syanqan (Honq-Konq) üçün qanun hazırlamağa qərar verib. Bununla yanaşı, Çin liderləri, qanunvericiliyin Honq-Konqun əsas qanununu, yəni konkret olaraq konstitusiyanı pozması halında “bir ölkə - iki sistem” siyasətini azaltmağa yönəlməyəcəyini vurğulayıblar. Sakinlərin hüquqları pozulmayacaq. Məhdudiyyət yalnız xuliqanlığı sevənlərə və daha ciddi kütləyə - ÇXR-dən ayrılma təhrikçilərinə, təxribat və terror aktlarının təşkilatçılarına təsir edəcək.

Bundan əlavə, nizam və sabitlik Honq-Konqa məşhur olduğu maliyyə əməliyyatları üçün zəruri olan şöhrətini qorumaq imkanı verəcək. “Atlar daha sürətli qaçacaq və rəqs məclisləri daha da yaxşılaşacaq”, - deyə Dövlət Şurasının Honq-Konq və Makao İşləri Ofisinin rəhbəri Sya Baolon Honq-Konq millət vəkilləri ilə görüşdə zarafatla deyib. O, Honq-Konqun ÇXR yurisdiksiyasına verilməsi ərəfəsində Den Syaopinin bu sözlərini təbdil edib: “Hippodromda at yarışları davam edəcək, rəqs dayanmayacaq”.

Bununla birlikdə, yeni qanun Honq-Konqda yeni zorakılıq hadisəsinə səbəb olub, minlərlə gənc avtobus işçisi yenidən küçələrə çıxıb, polislə toqquşub və həbslər baş verib. Qərb ölkələrinin təpkisi, Çin hakimiyyətinin tədbirlərini pisləyən açıqlamalar eşidilib. Təbii ki, ən sərt reaksiya Vaşinqtondan gəlib. Prezident Tramp 2019-cu ilin “Honq-Konq Vətəndaş Haqları və Demokratiya Qanunu”na istinad edərək, “kifayət qədər Honq-Konq muxtariyyətinin” yoxluğuna görə xüsusi gömrük rejiminin dayandırıldığını açıqlayıb.

Vəd edilmiş təhlükəsizlik qanununun qəbulundan sonra Honq-Konq Xüsusi İnzibati Bölgəsinin digər qanunları da dəyişməyəcək. Bənzərsiz şəhər sakinlərinin həyat tərzinin dəyişməsi ehtimalı azdır. Bu, səbəbsiz deyil, qanununun müzakirəsinin başlanmasından sonrakı ilk günlərdə



Honq-Konqun dünyadakı xüsusi mövqeyini və bununla əlaqəli faydalarını itirməkdən çəkinən, iğtişaşlardan yorulan 1 milyona yaxın insan onu dəstəkləyən petisiyaya imza atıb.

Honq-Konqun dünya əhəmiyyətli maliyyə, nəqliyyat və ticarət mərkəzi kimi rolu çoxdan məlumdur. Onunla sərhəddə müasir Şenjenin limanları və beynəlxalq hava limanı, beynəlxalq ticarət mərkəzləri və zəngin bankları var. Fond birjası da. Lakin bütün bu müəssisə və təşkilatlar Çin qanunlarına uyğun olaraq fəaliyyət göstərir və Qərbdə onlara inamsızlıq qalır.

“Qızıl yumurta qoyan toyuğ”u kəsmək istəməməsi Pekinin səbr etdiyi şeylərdən biri idi. Digər izah Denin 1984-cü ildə Marqaret Tetçerlə danışıqlar apararkən, Honq-Konqda 50 il nizamı dəyişməyəcəyinə dair vəddir. Gerisayım 1 iyul 1987-ci ildə, Britaniya bayrağı endirildikdə başlayıb.

Düşünürəm ki, başqa, bəlkə də ən vacib səbəb var: ÇXR-in - sosialist ölkəsinin tərkibində kapitalist dövlətinin qanunları - “bir ölkə - iki sistem” anlayışı.

Digər bir inkişaf etmiş və orijinal ərazi ilə - Tayvanla birləşmə perspektivini nəzərə alsaq, Çin üçün bu siyasətə sədaqət son dərəcə vacibdir. Pekin adanın 22 milyon sakininə onilliklər boyu inkişaf etmiş nizam və həyat tərzini qoruma vəd edir. Tayvanda Honq-Konqdakı iğtişaşların bütün eniş-yoxuşlarını xüsusi diqqətlə izlədikləri, Çin hakimiyyətinin həm hərəkətlərini, həm də hərəkətsizliyini fəal şəkildə şərh etmələri təəccüblü deyil. “Honq-Konq Təhlükəsizlik Aktı” artıq diqqət mərkəzindədir.

Honq-Konq və Tayvan Vaşinqton üçün Çinlə Soyuq müharibənin velosipedində iki pedal olub. Pekin üçün Honq-Konq və Tayvan problemləri bir-birinə bağlıdır. Bu problemli ərazilərlə əlaqədar olaraq “bir ölkə - iki sistem” siyasəti və “Birləşmiş Çin” strategiyası qüvvədədir. Pekin onlardan yazılı və şifahi razılaşmalara əməl etmə tələb edir. Honq-Konq üçün bu, 1984-cü ildə Çin-İngiltərə danışıqları zamanı qeydə alınan daxili təhlükəsizlik haqqında qanunun qəbuluna ehtiyacdır. Tayvan üçün, bu, “1992-ci il konsensusu”dur: “Çin və Tayvan ayrı-ayrı dövlətlər deyil”.

Son bir neçə ayda hadisələrin qeyri-şiddətli inkişafına dair ümidlər gözümüzün qabağında əriyib. Vaşinqtonda Pekinin səbrinin zəiflik kimi qəbul edildiyi və ən həssas yerə təzyiqləri artırmağa çalışıldığı görünür. Mayın 19-da, XTM sessiyasının açılışı ərəfəsində ABŞ dövlət katibi Mayk Pompeo Tayvan administrasiyasının rəhbəri Say İnveni yenidən vəzifəyə başlaması münasibətilə “Madam prezident” deyə müraciət edərək təbrik edib. Maddi hədiyyə Tayvana “MK-48 Mod 6” 18 ağır torpedo dəstəsini 180 milyon dollara satma razılaşması idi. Bu, keçən il 2,2 milyard dollara tank və raket partiyası və 8 milyard dollara satılan modernləşdirilmiş “F-16” qırıcılarına əlavədir.

Pekinin səbri tükənmək üzrədir və Vaşinqton separatizmə dəstək üçün “qırmızı xətt”ə daha da yaxınlaşır. 2005-ci ildə Çin separatizmə qarşı mübarizə haqqında qanun qəbul edib, bu da ÇXR-in bütün hərbi potensialından istədiyi təqdirdə istifadəni təmin edir. Çinlilər açıq şəkildə bu qanunu tətbiq etmək istəmir, güclü xəbərdarlıq siqnalları göndərirlər.

Güclü bir siqnal Honq-Konq milli təhlükəsizlik qanunu idi. Say İnvenin andiçmə günü Tayvandakı Hərbi Hava Qüvvələrinə Çin Hərbi Dəniz Qüvvələrinin hücumu barədə simulyasiya videoçarxı başqa bir siqnaldır. “Global Times” qəzetinin redaktor məqaləsi də. Məqalədə deyilir: “Qüvvələrin rəqabəti son nəticədə Tayvan boğazında vəziyyətin inkişafını müəyyənləşdirir. Materik Çinin hərbi gücü Tayvan ordusunun gücünü etibarlı şəkildə dəf etməyə və ABŞ ordusunu qorxutmağa qadirdir. İndi ABŞ və Tayvan kiçik və ucuz fəndlər göstərir. Onlar sadəlövhdürlər. Ağılarına belə gəlmədikləri yerlərə zərbə endirəcəyik”.

Xəbərdarlıq siqnalları getdikcə güclənir. Lakin ən diqqətçəkən məqam Baş Komandan Zinpinin mayın 26-da hərbçilərlə - parlament üzvləri ilə görüşü zamanı söylənib. Sifariş aydın və başa düşüləndir: “Ən pis vəziyyətdə şüurlu şəkildə hərbi və döyüş hazırlığı vacibdir, hər cür çətin vəziyyətə vaxtında və səmərəli şəkildə cavab verilməlidir, dövlətin suverenliyini, təhlükəsizliyini və maraqlarını qətiyyətlə qoruyun”.

Çin rəhbərliyinin səbri daşıb. Honq-Konq, Tayvan, Sincan və digər ağrı nöqtələri, koronavirus, sonsuz bir sıra kiçik, orta və böyük çirkinliklərlə əlaqəli ticarət sanksiyaları və Çin əleyhinə ifadələr sinerji effekti yaradıb. Çin artıq rəqabətdən qorxmur. Çin-ABŞ münasibətlərində dönüş nöqtəsi artıq arxada qalıb.

***Yuri Tavrovski***
***“Moskovski komsomolets”,***
***03.06.2020***

# Azərbaycan neft kvotasını pozub?

## Moskva və Ər-Riyad OPEK+ ölkələrindən narazıdır



***Səudiyyə Ərəbistanı və Rusiya mart ayında olduğu kimi, hazırda da neft bazarında “qiymət müharibəsi”nin təkrarlanmasını istəmir.***

Modern.az “Bloomberg” agentliyinə istinadən xəbər verir ki, hər iki ölkə may ayında neft hasilatının azaldılması barədə razılaşmanı avqustun 1-nə qədər uzatmaq istəyir.

Amma Moskva ilə Ər-Riyad o fikirdədir ki, Qazaxıstan, Azərbaycan, İraq, Nigeriya və Anqola OPEK+ formatının üzvləri kimi üzərinə götürdüyü neft kvotaları ilə bağlı öhdəlikləri icra etmir. Qabon və Sudan isə öz öhdəliklərinin əksinə, neft hasilatını həm də artırıb.

Bütün bu səbəblərə görə, iyunun 4-də OPEK+ sammitinin texniki xarakter daşıyacağı gözlənilir.

Kvotaların saxlanılması ilə bağlı problem iyunun 4-də keçiriləcək iclasa qədər həllini tapmayıb. Buna görə, texniki xaraket daşıuyacaq iclasda gələn aylar üçün neft hasilatının həcmi ilə bağlı proqnozlar müzakirə olunacaq.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

***Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun dəstəyilə "Qaçqın və məcburi köçkünlərin, əhalinin sosial cəhətdən qayğıya ehtiyacı olan təbəqələrinin problemlərinin həlli ilə bağlı həyata keçirilən tədbirlərin işıqlandırılması" istiqaməti üzrə layihə çərçivəsində hazırlanır.***



# Əlilliyi olan şəxslərə müjdə-Qanunvericilik bazası onların xeyrinə dəyişdirilir

**Quliyev Rəfail: "Düşünürəm ki, yeni dəyişikliklər əlilli olan şəxslərin məşğulluğuna töhvə verəcək. Bu dəyişikliklə mən bildiyim qədər cərimələr də nəzərdə tutulub. Bu zaman müəssisələr əlilliyi olan şəxslər üçün layiqli iş şəraiti yaratmasalar cərimə olunacaqlar. Bu isə əlilliyi olan şəxslərin inteqrasiyasını sürətləndirəcək"**

***Əlilliyi olan şəxslər cəmiyyətin ən həssas təbəqəsi sayılır. Son illər əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi, onların cəmiyyətə inteqrasiyası istiqamətində qanunvericilik bazası dəyişdirilir. Bu günlərdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yaydığı məlumata görə, Əmək Məcəlləsində dəyişikliklər edilməsinə dair yeni Qanun layihəsində əlilliyi olan şəxslərin əmək münasibətləri sahəsində hüquqlarının daha dolğun şəkildə təsbit olunmasına yönələn yarımbəndin əlavə edilməsi nəzərdə tutulub.***

Layihədə işəgötürənin əsas vəzifələri sırasına "əlilliyi olan şəxsin səhhətinin peşə vəzifələrini yerinə yetirməsinə mane olduğu, yaxud başqa şəxslərin səhhəti və əmək təhlükəsizliyi üçün təhlükə törətdiyi hallar istisna olmaqla, onunla əlillik səbəbindən əmək müqaviləsini bağlamaqdan, işdə irəli çəkməkdən imtina edilməsinə, əmək müqaviləsinə xitam verilməsinə və öz razılığı olmadan başqa işə (peşə, vəzifə) keçirilməsinə yol verməmək" məzmununda yarımbəndinin daxil edilməsi də yer alıb. Bununla Məcəllənin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Qanunun müvafiq maddəsi ilə uyğunluğu da təmin olunacaq.

1-ci qrup əlilliyi olan şəxs Quliyev Rəfail "Unikal" qəzetinə açıqlamasında bildirib ki, bu dəyişikliyin olması çox müsbət nəicələr yaradacaq: "Mən 1-ci qrup əliləm. Özüm müəlliməm. Amma bu gün əlilliyi olan müəllimin məktəbdə işləməsinə maneələr yaradılır. Səbəb də odur ki, məktəblərdə mərtəbələr arasında lift yoxdur. Əlilliyi olan şəxs işləyəcəksə ona məktəbdə şərait olmalıdır. Bundan başqa işəgötürənlər əlilliyi olan şəxsi işə götürməyi özlərinə yük hesab edirlər. Çünki, heç kəs belə şəxslərə iş şəraiti yaratmaq istəmir. Düşünürəm ki, yeni dəyişikliklər əlilliyi olan şəxslərin məşğulluğuna töhvə verəcək. Bu dəyişiklikdə mən bildiyim qədər cərimələr də nəzərdə tutulub. Bu zaman müəssisələr əlilliyi olan şəxslər üçün layiqli iş şəraiti yaratmasalar cərimə olunacaqlar. Bu isə əlilliyi olan şəxslərin inteqrasiyasını sürətləndirəcək".

Həmsöhbətimiz deyir ki, qanuna dəyişiklik vacib olduğu qədər onun icrasına nəzarət də vacibdir: "İndiyə qədər də qanunda əlilliyi olan şəxslərlə bağlı müddəlar yer alıb. Amma bir çox halda icra edilmir. Qanunun təkmilləşdirilməsi ilə yanaşı icrasına nəzarət də gücləndirilməlidir".

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat katibi Fazil Talıbov bildirdi ki, son illər əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi üçün qanunvericilik bazasının təkminləşdirilməsi istiqamətində işlər aparılır. Amma əlilliyi olan şəxslərin məşğulluğu üçün ilk görülməli olan iş yaşayış binaları, infrastruktur obyektləri və müəssisələrin inşası zamanı onların əlilliyinin nəzərə alınmasıdır: "Nazirlər Kabineti tərəfindən "İnfrastruktur obyektlərinin və yaşayış binalarının layihələndirilməsi və tikintisi zamanı əlilliyi olan şəxslərin tələbatının nəzərə alınmasına, istismarda olan infrastruktur obyektlərinin və yaşayış binalarının əlilliyi olan şəxslərin istifadəsi üçün ağlabatan uyğunlaşdırılmasına nəzarət" qaydaları qəbul edilib. Bu Qayda "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanunun 17-ci maddəsinə uyğun olaraq hazırlanıb və infrastruktur obyektlərinin, yaşayış binalarının layihələndirilməsi və tikintisi zamanı əlilliyi olan şəxslərin tələbatının nəzərə alınmasına, o cümlədən istismarda olan infrastruktur obyektlərinin və yaşayış binalarının əlilliyi olan şəxslərin istifadəsi üçün ağlabatan uyğunlaşdırılmasına nəzarətin həyata keçirilməsini müəyyən edir və tənzimləyir. Əlilliyin növündən, formasından və ağırlıq dərəcəsindən asılı olmayaraq, yaşadığı yerdə layiqli həyat sürməsi üçün infrastrukturun və yaşayış binalarının əlilliyi olan şəxsə müyəssərliyinin təmin edilməsi və əlilliyi olan şəxslərin digərləri ilə bərabər səviyyədə cəmiyyətin həyatında tam və səmərəli iştirakına şəraitin yaradılması istiqamətində nəzarət aşağıda göstərilən qaydada həyata keçirilir: İnfrastruktur obyektlərinin və yaşayış binalarının əlilliyi olan şəxslərə müyəssər olması məqsədilə layihələndirmə üzrə şəhərsalma və tikintiyə dair normativ sənədlərin təkmilləşdirilməsinə, mütəmadi olaraq yeniləşdirilməsinə və beynəlxalq standartlara uyğunlaşdırılmasına nəzarət Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən həyata keçirilir. Həmin sənədlərdə əlilliyi olan şəxslərin yaşayış binalarından, o cümlədən pilləkənlərdən, pilləkən qəfəslərindən, çıxış və girişlərdən, dəhlizlərdən, açıq keçidlərdən, rampalardan, liftlərdən, mənzillərin giriş qapılarından rahat və təhlükəsiz istifadə edə bilməsi nəzərə alınmalıdır. Yaşayış binalarının və infrastruktur obyektlərinin, o cümlədən yolnəqliyyat, rabitə, informasiya, mədəniyyət, məişət və digər sosial obyektlərin əlilliyi olan şəxslərin istifadəsi üçün uyğunlaşdırılmasına dair tələblər həmin binaların və obyektlərin layihələndirilməsi zamanı layihəçi tərəfindən nəzərdə tutulmalıdır".

Qaydalarda istismarda olan yaşayış binalarının və infrastruktur obyektlərinin əlilliyi olan şəxslərin istifadəsi üçün ağlabatan uyğunlaşdırılmasına nəzarətin həyata keçirilməsi də öz əksini tapıb. İnfrastruktur obyektlərinin və yaşayış binalarının istismar zamanı əlilliyi olan şəxslərin istifadəsi üçün ağlabatan uyğunlaşdırılmasına nəzarət yerli icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir. F. Talıbov deyir ki, infrastruktur obyektlərinin və yaşayış binalarının istismarı zamanı əlilliyi olan şəxslərin istifadəsi üçün ağlabatan uyğunlaşdırılmasını təmin etmək məqsədilə yerli icra hakimiyyəti orqanları tərəfindən yarımildə ən azı 1 (bir) dəfə monitorinqin aparılması təmin edilir: "Monitorinq zamanı müvafiq infrastruktur obyektlərinin və yaşayış binalarının əlilliyi olan şəxslərin istifadəsi üçün ağlabatan uyğunlaşdırılması məqsədilə həmin obyektlərə vizual və ya tələb olunduğu hallarda instrumental baxışlar keçirilərək, obyektlərin mövcud vəziyyətinin qiymətləndirilməsi həyata keçirilir. Monitorinqin nəticələri əsasında əlilliyi olan şəxslərin tələbatını ödəməyən obyektlərin və binaların siyahısı və tələb olunduğu hallarda həmin obyektlərə və binalara dair yenidənqurma işlərinin aparılması ilə bağlı təkliflər hazırlanır. Monitorinqin nəticələri "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" qanunda nəzərdə tutulmuş qaydada rəsmiləşdirilir. Monitorinqin nəticələrindən, habelə müvafiq qurumun hərəkət və hərəkətsizliyindən inzibati və məhkəmə qaydasında şikayət verilə bilər".

F. Talıbovun sözlərinə görə, əlilliyi olan şəxslərin hüquqları sahəsində dövlət monitorinqinin həyata keçirilməsi qaydaları da müəyyənləşib. Əlilliyi olan şəxslərin hüquqları sahəsində dövlət monitorinqinin həyata keçirilməsi istiqamətlərinə müyəssərlik-iş, təhsil, səhiyyə və digər sosial mühitin, ictimai, nəqliyyat və kommersiya infrastrukturunun əlilliyi olan şəxslərin xüsusiyyətlərinə uyğunluğu, inklüzivlik-əlilliyinin növündən, formasından və dərəcəsindən asılı olmayaraq, yaşadığı yerdə layiqli həyat səviyyəsinin təminatı üçün əlilliyi olan şəxsə müyəssərliyin təmin edilməsi, əlilliyə görə ayrı-seçkilik-əlilliklə bağlı istənilən fərqqoyma, istisna və məhdudiyyət tətbiqetmə, o cümlədən müyəssərliyə nail olmaq üçün ağlabatan uyğunlaşmadan imtina daxildir. Buraya ağlabatan uyğunlaşma, yeni əlilliyi olan şəxslər tərəfindən əsas insan hüquqlarının və azadlıqlarının digərləri ilə bərabər səviyyədə həyata keçirilməsinin təmin olunması məqsədilə zəruri və mümkün uyğunlaşma və düzəlişlərin edilməsi də aiddir.

## Bakıda hamilə arvadına dəhşət yaşadan kişi mühakimə edilir

***Bakıda xüsusi amansızlıqla arvadını öldürməyə cəhd etməkdə təqsirli bilinən 1984-cü il təvəllüdlü Xəyal Məmmədovun cinayət işi üzrə məhkəmə prosesi başlayıb.***

Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Siyavuş Hacıyevin sədrliyi ilə baş tutan prosesdə təqsirləndirilən şəxsin anket məlumatları dəqiqləşdirilib.

Məhkəmə baxışı iyunun 10-na təyin olunub. İttihama görə, ötən ilin avqustunda Sabunçu rayonu Maştağa qəsəbəsində Xəyal Məmmədov arvadı, 1988-ci il təvəllüdlü Günay Məmmədova ilə ailə münaqişəsi zəminində mübahisə edib.

Mübahisə zamanı Günay Məmmədova həyat yoldaşı tərəfindən bıçaqlanıb. Qadının üzərində 19 ədəd kəsilmiş-deşilmiş yara aşkar edilib və qadın cərrahi əməliyyat olunub. Vaxtında tibbi yardım göstərildiyi üçün onun həyatını xilas etmək mümkün olub.

Günay Məmmədova Xəyal Məmmədovun həm də doğma əmisi qızıdır. Cütlüyün 4 övladı var. Hadisə baş verən zamanı Günay Məmmədova üç aylıq hamilə olub. Əməliyyat zamanı qadının həmin uşağı tələf olub. Sabunçu rayon Polis İdarəsinin cinayət-axtarış şöbəsi və 14-cü polis bölməsinin əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində cinayət törədən Xəyal Məmmədov tutulub.

İstintaq orqanı tərəfindən Xəyal Məmmədovun barəsində Cinayət Məcəlləsinin 29,120.2.4-cü (xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla adam öldürməyə cəhd) maddəsi ilə ittiham elan edilib(teleqraf).

## Daşkəsəndə qardaş bacısını odun parçası ilə qətlə yetirdi

***Daşkəsən rayonunda qətl hadisəsi baş verib. Rayon Prokurorluğundan verilən məlumata görə, aparılmış araşdırmalarla 2000-ci il təvəllüdlü Elvin Abbasovun qısqanclıq zəminində bacısı, 1996-cı il təvəllüdlü Elgün Abbasovanın başına odun parçası vurmaqla onu qətlə yetirməsinə əsaslı şübhələr müəyyən edilib.***

Faktla bağlı Daşkəsən Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb, E.Abbasov şübhəli şəxs qismində tutularaq istintaqa cəlb edilib. Hazırda iş üzrə zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

## Ölkəyə qanunsuz gətirilən siqaretlər müsadirə olunub

***Qərb Ərazi Baş Gömrük İdarəsinin əməkdaşları iki fakt üzrə külli miqdarda siqaretin bəyan edilmədən ölkə ərazisinə keçirilməsi cəhdinin qarşısını alıblar.***

Dövlət Gömrük Komitəsinin mətbuat xidmətindən verilən məlumata görə, hər iki fakt idarənin "Qırmızı Körpü" gömrük postunda qeydə alınıb. Gömrük baxışı zamanı, Türkiyədən gələn "IVECO" markalı avtomobilin salonunda "Leader" markalı 1800 ədəd, Gürcüstandan gələn "DAF" markalı avtomobilin salonunda isə "Marlboro" markalı 9800 ədəd siqaret aşkar edilib.

Hər iki faktla bağlı araşdırma aparılır.

## Zaqatalada 2,6 ton çətənə kolu məhv edildi

***Zaqatala Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən yabanı halda bitən narkotik tərkibli bitkilərin aşkar edilərək məhv edilməsi istiqamətində növbəti əməliyyat tədbiri keçirilib.***

DİN-in Mətbuat Xidmətindən verilən məlumata görə, Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilən tədbirlərlə rayonun Yengiyan kəndi ərazisində yabanı halda bitən, ümumi çəkisi 2 ton 640 kiloqram olan 5348 ədəd çətənə kolu kökündən çıxarılıb və yandırılaraq məhv edilib.

# Arvadını öldürən vəzifəli şəxs barədə şok qərar: Anlaqsız olub... - Təfərrüat

***Bakıda arvadını xüsusi amansızlıqla öldürməkdə təqsirli bilinən 1988-ci il təvəllüdlü Ramiz Taxvelinin cinayət işi üzrə məhkəmə prosesi keçirilib.***




Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Rasim Sadıxovun sədrliyi ilə baş tutan prosesdə qərar elan olunub. Qərara görə, Ramiz Taxvelinin barəsində olan cinayət işi üzrə icraat dayandırılıb.

Ekspertizanın rəyinə görə, Ramiz Taxveli hadisəni törədən zaman anlaqsız olub.

İttihama görə, 2018-ci il dekabrın 9-da Nəsimi rayonu, R.Behbudov küçəsində yaşayan Ramiz Taxveli həyat yoldaşı Adelya Taxvelini 14 mərtəbəli binanın 5-ci mərtəbəsinin balkonundan atıb.

Hüquq-mühafizə orqanları tərəfindən aparılan araşdırmalar zamanı kişinin cinayəti narkotik qəbulu nəticəsində psixi pozğunluq halında törətdiyi müəyyən olunub. Ramiz Taxveliyə məxsus avtomaşına baxış keçirilərkən kibrit qutusunda çəkisi 5.647 qram olan qurudulmuş marixuana aşkar edilib.

İstintaq sənədlərinə görə, Ramiz Taxveli ilk qızı Aliyanın epilepsiya xəstəsi olaraq doğulmasında arvadı Adelyanı daim günahkar bilib və buna görə mütəmadi olaraq mübahisə edib.

O, dekabrın 9-u axşam saat 22 radələrində marixuana qəbul edərək arvadı Adelyanı yuxudan oyadaraq döyüb və işgəncə verib. Daha sonra onu saçından tutub sürüyərək otaqları gəzdirib, uşaqların yatdığı otağa apararaq onlarla vidalaşmağa məcbur edib. Həmin vaxt yataqda olan xəstə qızı Aliyanı götürərək yerə çırpıb.

Bu zaman epilepsiya xəstəsi olan Aliya başından xəsarət alıb. Uşaqlar atalarına yalvarıb və analarını çağırsalar da, Ramiz Taxveli buna əhəmiyyət verməyib.

Adelyanı sürüyərək balkona çıxarıb, orada ayaqlarından tutaraq yuxarı qaldırıb və balkondan aşağı atıb.

Qeyd edək ki, Taxveli Ramiz Pərviz oğlu "Buta Palace"nin artdirektorudur. O, Azərbaycanın Xalq artisti Gülağa Məmmədovun qız nəvəsidir.

Qətlə yetirilən Adelya Taxveli isə "Atəşgah Sığorta" şirkətinin əməkdaşı olub.

İstintaq orqanı tərəfindən Ramiz Taxvelinin barəsində Cinayət Məcəlləsinin 120.2.4-cü (xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla adam öldürmə) maddəsi ilə ittiham elan edilib.

# Sabunçuda dəhşətli qətl törədən şəxslər danışdı

***Sabunçu rayonunda qətl hadisəsi törətməkdə təqsirli bilinən şəxslərə üç maddə ilə ittiham elan edilib.***



Sabunçu rayon Prokurorluğu tərəfindən 1993-cü il təvəllüdlü Fuad Yusifli və 1992-ci il təvəllüdlü Sadiq Cəlalovun barəsində Cinayət Məcəlləsinin 120.2.1-ci (bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (təşkilat) tərəfindən adam öldürmə), 120.2.11-ci (quldurluq, hədə-qorxu ilə tələb etmə, terrorçuluq və ya banditizmlə əlaqədar adam öldürmə) və 181.3.3-cü (zərərçəkmiş şəxsin sağlamlığına ağır zərər vurulmaqla quldurluq törətmək) maddələri ilə ittiham verilib.

Sabunçu rayon Məhkəməsinin qərarı ilə hər iki təqsirləndirilən şəxsin barəsində 3 ay müddətinə həbs qətimkan tədbiri seçilib.

Şübhəli şəxs qismində ifadə verən şəxslər elan olunmuş ittiham üzrə özlərini təqsirli biliblər. Onlar hadisəni tamah məqsədilə törətdiklərini deyiblər.

İttihama görə, iyunun 1-də səhər saat 06 radələrində 1955-ci il təvəllüdlü Hüseyn Əhmədovun paytaxtın Sabunçu rayonu Kürdəxanı qəsəbəsi ərazisində yerləşən işlədiyi mağazanın anbarında üzərində zorakılıq əlamətləri olan meyitinin aşkar edilməsi, eləcə də mağazanın seyfindən külli miqdarda pul vəsaitinin oğurlanması faktı ilə bağlı Sabunçu rayon prokurorluğunda cinayət işi başlanıb.

Aparılmış istintaqla Kürdəxanı qəsəbə sakinləri 1993-cü il təvəllüdlü Fuad Yusifli və 1992-ci il təvəllüdlü Sadiq Cəlalovun qabaqcadan əlbir olaraq cinayət əlaqəsinə giriblər.

Onlar bir qrup şəxs halında özgənin əmlakını quldurluq yolu ilə ələ keçirmək məqsədi ilə hücuma məruz qalmış şəxsin həyatı və sağlamlığı üçün təhlükəli zorakılıqla bağlı olan basqın edərək iyunun 1-də saat 04 radələrində mağazanın anbar qapısından içəri daxil olublar.

Orada mühafizəçi işləyən Hüseyn Əhmədovu yumruqla zərbələr vurub, habelə əllərini, ayaqların və ağzını yapışqan lentlə (skotçla) bağlayıblar.

Hər iki şəxs Hüseyn Əhmədovu öldürdükdən mağazanın içərəsindəki dəmir seyfdən 51 min 292 manat məbləğində pulu götürüblər.

Prokurorluq və polis əməkdaşları tərəfindən həyata keçirilmiş təxirəsalınmaz istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri nəticəsində Fuad Yusifli və Sadiq Cəlalov həbs ediliblər.

Hər iki şəxs müdafiəçinin iştirakı ilə dindirilərkən törətdikləri cinayəti etiraf ediblər, onlardan hadisə zamanı mağazadan götürdükləri vəsaitin 50 min 492 manatı həmçinin, mağazanın mühafizə kameraları üçün quraşdırılmış cihazlar maddi sübut kimi götürülüb.

Hazırda hadisənin təfərrüatlarının tam, hərtərəfli və obyektiv araşdırılması istiqamətindəzəruri istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

# Günəş enerjisi ilə işləyən ictimai nəqliyyatın inkişaf perspektivləri - İCMAL

***Günəş panellərinin ucuzlaşması və onların həm sənaye istehsalında, həm də gündəlik həyatda istifadəsinin yayılmasının genişlənməsi bu cür ekoloji təmiz texnologiyanın ictimai nəqliyyatda tətbiqinə zəmin yaradıb. İctimai nəqliyyatın gələcəyi iri şəhərlərdə sərnişindaşımalarda alternativ enerji mənbələrindən istifadə ilə bağlıdır. Onu da iddia etmək olar ki, nəqliyyat sektorunun bu seqmenti gec-tez "yaşıllaşacaq".***

Şübhəsiz ki, ictimai sərnişindaşımalarda avtobusların rolu böyükdür. Lakin onlar havanı əhəmiyyətli dərəcədə çirkləndirir. İctimai avtobuslardan imtina sakinlər üçün logistika baxımından rasional deyil və buna görə də ən yaxşı seçim bu nəqliyyat növünün innovativ inkişafıdır.



Qeyd etmək lazımdır ki, hazırda bir çox ölkələrdə elektrik mühərriklə işləyən ictimai avtobusların istifadəsi geniş yayılıb. Amma günəş panellərinin istifadəsi bu nəqliyyat növünü daha da ekoloji və iqtisadi səmərəli edə bilər. Minik avtomobillərindən fərqli olaraq, avtobuslarda (dam hissəsində) günəş panellərini quraşdırmaq daha rahatdır, çünki onların damı daha böyükdür. Belə şəraitə əsas problem həll edilmiş olur - günəş panellərinin yerləşdirilməsi üçün kifayət qədər yerin olması. Günəş panellərindən istifadə avtobuslarda tək iqlim nəzarəti sistemini deyil, həm də mühərriki elektrik enerjisi ilə təmin etməyə imkan verə bilər. Ancaq günəş panelləri texnologiyasının hazırkı inkişaf səviyyəsi çərçivəsində əksər hallarda nəqliyyat vasitələrinin hərəkətini tam təmin etmək mümkün olmur və nəticədə stasionar enerjidoldurma stansiyalarından istifadə qaçılmazdır.

Hazırda bu istiqamətin inkişafının qarşısında duran əsas məsələ - uzun müddət xidmət edə biləcək batareyanın yaradılmasıdır. Bununla yanaşı, günəş panellərinin ictimai nəqliyyat sisteminin inkişafında istifadə edilməsinin genişləndirilməsi də aktual məsələlərdən biridir. Bunların həlli günəş panellərindən geniş miqyasda istifadəsinə şərait yaradacaq.

Sərnişin avtobusları ölçüsünə görə günəş enerjisinin yığılması və onun sonrakı istifadəsi üçün kifayət qədər həcmli batareyalar quraşdırmağa imkan verir. Bu, öz növbəsində, gələcəyin ictimai nəqliyyatına hava şəraitinin dəyişkənliyindən asılı olmadan hərəkət etməyə imkan verir.

Onu da qeyd etmək lazımdır ki, gələcəyin ekoloji cəhətdən səmərəli ictimai nəqliyyatı artıq mövcuddur. Məsələn, 2013-cü ildən Avstraliyada "Tindo" avtobusları istismar olunur. Avtobus Adelaida şəhərində sərnişinlərin daşınması prosesinə cəlb edilib və günəş enerjisi ilə çalışır. Onun əsas üstünlüyü odur ki, hər il havaya 70 ton $CO_2$ atılmasının qarşısı alınır. Bu cür ictimai nəqliyyatdan istifadə edərək enerji doldurmadan 200 km məsafəni qət etmək mümkündür.

Bundan başqa, ABŞ-ın Uinston-Seylem şəhərində sərnişindaşıma gələcəyin yerüstü nəqliyyatı - "Solar Shuttle" ilə həyata keçirilir. Gələcəyin ekoloji cəhətdən təmiz ictimai nəqliyyatını şəhər həyatına uyğunlaşdırmanın uğurlu nümunəsi ilə İsveçrə də öyünə bilər. Belə ki, "Swiss" avtobusları günəş enerjisi ilə işləyir. "Road Trains" avtobus qatarları isə ölkənin bir neçə şəhərində gəzinti səfərlərini həyata keçirir.

Günəş enerjisi ilə işləyən ictimai nəqliyyatın inkişafında maraqlı bir istiqamət eko-qatarların inkişafıdır. Dəmir yolu sektorunda ekoloji səmərəlilik bir neçə yolla əldə edilə bilər.

Birincisi, avtobuslarda olduğu kimi, qatarların damlarında günəş panelləri quraşdırıla bilər. Burada lazımi sayda batareyanı yerləşdirmək üçün kifayət qədər yer var. Macarıstanda günəş panelləri ilə təchiz edilmiş "Vili" layihə qatarı Kiraliret-Kismaros marşrutu üzrə hərəkət edir. Ekskursiya qatarı yalnız günəş enerjisindən istifadə edərək hərəkət edir. Günəş panelləri vasitəsi ilə əldə edilən enerji ilə işləyən qatar Hindistanda da mövcuddur. "Himalayın Kraliçası" adlanan qatar Kalkadan Şimla şəhərinə sərnişinlərin daşınmasını təmin edir. Bundan əlavə, qatarların günəş panellərindən enerji ilə qismən təchiz edilməsi getdikcə populyarlaşır.

İkincisi, alternativ mənbələrdən istifadə edərək dəmiryol xətlərinin elektrik enerjisi ilə təmin edilməsi məsələsi də hazırda aktuallaşır. Bu variantda da qatarların elektrik enerjisi ilə təmin edilməsi günəş enerjisindən istifadə etməklə təşkil olunur. Elektrik enerjisinin verilişi qismən və ya bütövlüklə dəmir yolu xətləri boyunca günəş panellərinin quraşdırılması ilə mümkün olur. Gələcəyin bu cür alternativ nəqliyyat növü artıq Paris və Amsterdam şəhərləri arasında istifadə olunur. Bənzər bir layihə Böyük Britaniyada da tətbiq edilir.

Əlbəttə, gələcək ictimai nəqliyyat sisteminin qurulmasında alternativ enerji mənbələrindən istifadə çox suallar yarada bilər. Lakin bu, nə qədər fantastik görünsə də, bir o qədər də realdır. Məsələn, Çində gələcəyin nəqliyyatı artıq reallığa çevrilir. Təkcə Şençjen şəhərində 16 mindən çox elektrik avtobus fəaliyyət göstərir. Böyük Britaniyanın paytaxtı Londonda bir və ikimərtəbəli avtobusların yaxın gələcəkdə eko-rejimə keçirilməsi istiqamətində də işlər aparılır. Nyu-Yorkda isə 2040-cı ilədək bütün avtobusları elektrik mühərrikə keçirməsi planlaşdırılır.

Beləliklə, alternativ enerji mənbələri texnologiyalarının ictimai nəqliyyatda istifadəsi məsələsinə artıq skeptik yox, real baxmaq lazımdır. Azərbaycanda da bu cür texnologiyaların inkişafı mümkündür. Öncə qeyd edilən inkişaf istiqamətlərinin Azərbaycanda da tətbiqi ölkədə ictimai nəqliyyat sisteminin inkişafı, ekoloji məsələlərin həlli və iqtisadi səmərəliliyin artırılmasına mühüm töhfəsini verə bilər. Çünki Azərbaycanda alternativ və bərpa olunan enerji mənbələrinin inkişafı üçün böyük potensial və imkanlar mövcuddur. Günəşli günlərin çox olması isə bu texnologiyaların ictimai nəqliyyatda istifadə edilməsi məsələsini tezləşdirə bilər.

# Dövlət qurumu avtomobillər üçün 5,2 milyon xərcləyəcək

***Texnoloji İstehsalat Komplektləşdirmə İdarəsi avtomobillərin satın alınması üçün elan etdiyi tenderin qalibini açıqlayıb.***

"Unikal" xəbər verir ki, tenderi "Gəncə avtomobil Zavodu" İB qazanıb.

İdarə "Gəncə avtomobil Zavodu" İB ilə avtomobil nəqliyyat vasitələrinin və digərlərinin satınalınması üçün 5 milyon 169 min 120 manat məbləğində müqavilə imzalayıb.

# İcra hakimiyyətinin 5 böyük tenderini 2 ŞİRKƏT UDUB

***Qaradağ rayon icra hakimiyyəti rayonda abadlıq və yol təmiri tenderlərinin nəticələrini açıqlayıb.***

Rayon icra hakimiyyəti başçisi aparatinin Mənzil-Kommunal Təsərrüfati İstehsalat Birliyinin 5 tenderində 2 şirkət qalib gəlib.

5 tenderin ümumi məbləği 2 milyonq manata yaxındır. Onun 870 min manatını "NOR CONSTRUCTİON" MMC, 1 milyon 50 min manatını isə "Təmir-Təchizat-4" MMC qazanıb.

Mənzil fondunun əsaslı təmiri tenderində - 157 180 mana t - "NOR CONSTRUCTİON" MMC

Abadlıq işlərinin yerinə yetirilməsi tenderində - 711026 manat - "NOR CONSTRUCTİON" MMC

Abadlaşdırma işləri üzrə mal materialın alınması tenderində - 74 633 manat - "Təmir-Təchizat-4" MMC

Abadlaşdırma işləri üçün xususi geyim və yumşaq inventarın alınması tenderində - 83 099 manat - "Təmir-Təchizat-4" MMC

Yolların əsaslı təmiri tenderində - 893 034 manat - "Təmir-Təchizat-4" MMC qalib gəlib.

# İpoteka Fondu investisiya şirkəti axtarır - TENDER



***İpoteka və Kredit Zəmanət Fondu qiymətli kağızlarla əməliyyatlar üçün investisiya şirkəti axtarır.***

FED.az xəbər verir ki, bunun üçün iki tender elan edilib. Birinci tenderdə İpoteka və Kredit Zəmanət Fondu üçün qiymətli kağızların öhdəlik götürmədən yerləşdirilməsi və anderraytinqi üzrə xidmətləri satın alınır. Açıq tender 02 iyun 2020-ci il 15:30-da dövlət satınalmalarının vahid internet portalı vasitəsilə başlayıb.

Tender üzrə ilkin sənədlər 25 iyun 2020-ci il 10:00-dək, təklif zərfləri və təklifin təminatı isə 03 aprel 2020- ci il 18:00-dək qəbul ediləcəkdir. Tender üzrə prosedurlar 07 iyul 2020-ci il tarixində saat 10:00-da təklif zərflərinin açılması ilə başlanılacaq. Satınalma müqaviləsinin icra müddəti 18 (on səkkiz) ay müəyyən edilir. Tender üzrə iştirak haqqı 150 manat məbləğində müəyyən edilmişdir

İkinci tenderdə İpoteka və Kredit Zəmanət Fondu üçün qiymətli kağızlar ilə aparılan əməliyyatlarla bağlı müştəri sifarişlərinin qəbul və icra edilməsi üzrə xidmətlər satın alınır. Açıq tender 02 iyun 2020-ci il 16:00-da dövlət satınalmalarının vahid internet portalı vasitəsilə başlayıb.

Tender üzrə ilkin sənədlər 25 iyun 2020-ci il 11:00-dək, təklif zərfləri və təklifin təminatı isə 06 iyul 2020-ci il 18:00-dək qəbul ediləcək. Tender üzrə prosedurlar 07 iyul 2020-ci il tarixində saat 11:00-da təklif zərflərinin açılması ilə başlanılacaq. Satınalma müqaviləsinin icra müddəti 12 (on iki) ay müəyyən edilir. Tender üzrə iştirak haqqı 100 manat məbləğində müəyyən edilib.

# Vacib halda evdən çıxarkən 102-yə zəng vuracaqsınız!

***Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərinin və Abşeron rayonunun ərazisinin sakinləri həftəsonları yaşayış yerlərini və ya olduğu yerləri tərk etmək istədikdə DİN-ə müraciət etməlidir.***

Unikal.org-un xəbərinə görə, bu, Baş Nazir Əli Əsədovun imzaladığı "Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərinin və Abşeron rayonunun ərazisində xüsusi karantin rejiminin sərtləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" qərarda yer alıb.

Belə ki, sakinlər yaşayış yerlərini və ya olduğu yerləri həyat və sağlamlığa bilavasitə təhlükəli vəziyyət yarandığı halda, eləcə də təxirəsalınmaz tibbi yardıma ehtiyac olduqda yalnız təcili tibbi yardım xidməti vasitəsilə, habelə yaxın qohumların dəfnində iştirak etmək üçün Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Növbətçi Hissələri İdarəetmə Xidmətinin 102 Xidməti - Zəng Mərkəzi vasitəsi ilə icazə almaqla tərk edə bilər.

# Metro və avtobuslar işləməyəcək

***Xəbər verdiyimiz kimi, 6 iyun saat 00:00-dan 8 iyun saat 06:00-dək Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərinin və Abşeron rayonunun ərazisində sərt karantin elan olunub.***

Unikal.org xəbər verir ki, qərara əsasən, bütün iş, xidmət və ticarət sahələri üzrə fəaliyyət, eyni zamanda ictimai nəqliyyatın və avtomobillərin hərəkəti dayandırılacaq.

Burada xüsusi təyinatlı, qəza-bərpa, təcili tibbi yardım avtomobillərinin və fəaliyyətinə icazə verilən orqanların (qurumların) və təşkilatların xidməti avtomobillərinin hərəkəti istisnadır.

# Qəlyan çəkənlər cərimələndi

***Şəmkirdə sanitar-karantin qaydalarını pozan çay evi aşkarlanıb.***

DİN-in mətbuat xidmətinin Gəncə şəhərindəki regional qrupundan verilən məlumata görə, Şəmkir rayon Polis Şöbəsinin əməkdaşları rayonun Aşağı Seyfəli kəndi ərazisində Ricat Qafarovun işlətdiyi çay evində müştərilərin koronavirusa görə qadağan edilən edilmiş qəlyan avadanlıqlarından istifadə etməsi müəyyən edilib. Bundan başqa çay evinə baxış zamanı müştərilərin sosial məsafə gözləmədiyi, tibbi maskalardan istifadə etmədikləri də aşkar edilib.

Obyektdə olan ümumilikdə 5 nəfər saxlanılaraq rayon Polis Şöbəsinə gətiriliblər. Karantin qaydalarını pozan obyekt sahibi və müştərilər barəsində İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi protokol tərtib olunub və onlar müvafiq qaydada ciddi cərimə ediliblər.

# "icaze.e-gov.az" portalı yenidən aktivləşir

***Nazirlər Kabinetinin fəaliyyətinə icazə verilən iş və xidmət sahələrində işləyən şəxslərin hərəkətinə işəgötürən tərəfindən həmin şəxslər barədə məlumatlar elektron imzadan istifadə edilməklə "icaze.e-gov.az" portalına daxil edildikdən sonra yol veriləcək.***

Bu barədə Nazirlər Kabinetinin "Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərinin və Abşeron rayonunun ərazisində xüsusi karantin rejiminin sərtləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" qərarında bildirilir.

Qeyd edək ki, Nazirlər Kabineti tərəfindən fəaliyyətinə icazə sahələr bunlardır:

Nazirlər Kabienti tərəfindən n müəyyənləşdirilən dövlət orqanlarının (qurumlarının) və digər təşkilatların fəaliyyəti; xəstəxanalar və təcili tibbi yardım müəssisələrinin fəaliyyəti; sosial xidmət müəssisələrinin fəaliyyəti, o cümlədən əqli və hissiyat pozuntusu olan, habelə xüsusi qayğıya ehtiyacı olan şəxslər üçün baxıcılıq xidməti; kommunal xidmətlər (su təchizatı və kanalizasiya, qaz təchizatı, istilik təchizatı, enerji paylanması, məişət tullantılarının yığılması və utilizasiyası);

elektrik enerjisinin istehsalı və təchizatı; meliorasiya və su təsərrüfatı; rabitə xidmətləri; teleradio yayımçılarının (televiziya və radio kanalları, kabel televiziyaları) fəaliyyəti; dəmir yolu, avtomobil, dəniz, hava nəqliyyatı ilə yük daşımaları; boru kəmərləri ilə nəqliyyatın təmin edilməsi fəaliyyəti; fasiləsiz istehsalat fəaliyyəti (istehsalat-texniki şərtlərə görə fəaliyyətinin dayandırılması mümkün olmayan müəssisələr); neft və qazın hasilatı, emalı, saxlanması və satışı; fəaliyyəti dayandırılmış iş və xidmət sahələrinin mühafizə və texniki təhlükəsizliyinin təmin edilməsi üzrə xidmətləri.

# Milli Məclisdə təhsili ən yaxşı hansı deputat bilir - Ekspertlər

***Hansı sahədə çalışırsan çalış, öz sahənin bilicisi olmalısan. Dahi mütəfəkkir Nizami Gəncəvi də yaxşı deyib : "Kamil bir palançı olsa da insan, yaxşıdır yarımçıq papaqçılıqdan".***



Yəni fərqi yoxdur hansı sahədəsən, istənilən halda gördüyün iş haqqında məlumatlı olmalı, fəaliyyət göstərdiyin istiqaməti də düzgün təmsil etməlisən. İstər palanaçı ol, istər papaqçı, istərsə də deputatg

VI çağırış Milli Məclisin formalaşmasından 3 aydan çox vaxt keçir. Parlamentdə müxtəlif sahələr üzrə komitələr və onların üzvləri olan deputatlar fəaliyyət göstərir.

Maraqlıdır, deputatlar təmsil etdikləri sahənin bilicisidirmi? Vətəndaş cəmiyyətinin üzvləri kənardan bunu necə müşahidə edirlər?

Modern.az ilk olaraq Milli Məclisin Elm və təhsil komitəsinin tərkibi ilə bağlı ekspertlərə sual ünvanlayıb. Komitədəki deputatların təhsil bilgisi, onlardan gözləntilər barədə sualları elə təhsil sahəsinin ekspertləri cavablandırıb:

Azad Müəllimlər Birliyinin sədri Məlahət Mürşüdlü hesab edir ki, VI çağırış Milli Məclisin Elm və təhsil komitəsində deputat Etibar Əliyevdan çox şey gözləyir:

"Milli Məclisin Elm və təhsil komitəsində təmsil olunanların 95 faizi təhsildən anlayan, bu sahədə təhlillər edən insanlardır. Onların fəaliyyəti barədə danışmaq mənim üçün çətindir. Çünki komitənin tərkibi yeni formalaşıb. Düşünürəm ki, deputatlar "Təhsil haqqında" qanuna yenidən baxmalıdırlar. Bəzi millət vəkilləri seçki kampaniyası zamanı bildirirdilər ki, təhsilin inkişafı üçün mövcud qanuna yenidən baxmaq istiqamətində fəaliyyət göstərəcəklər. Mən gözləyirəm ki, seçki öncəsi verilən təkliflər və öhdəlikləri yerinə yetirilsin. Təhsilin problemləri çoxdur. Əsas problem də qanunvericilik bazasının təkmilləşdirilməsi məsələsidir. Təhsil sahəsində 30-a qədər QHT var ki, bunların da içərisində birbaşa təhsillə bağlı olanı 3 təşkilatdır.

İstəyərdim ki, Milli Məclisin Elm və təhsil komitəsi bu QHT-lərlə, ayrı-ayrı təhsil ekspertləri ilə əməkdaşlıq edib onları müzakirələrinə dəvət etsinlər, təklifləri dinlənilsin. Çünki bu təşkilatlar, ekspertlər cəmiyyətin içərisindədirlər və onlar təhsildəki problemləri daha yaxşı bilirlər. Buna görə əməkdaşlığın mütləq olduğunu düşünürəm. Qarşılıqlı müzakirələr nəticəsində müsbət nəticələr əldə edərik. Bu addımı Elm və təhsil komitəsi digər komitələrdən fərqli olaraq birinci atsa, daha yaxşı olar. Bu sadaladığım məsələləri qaldıracaq və peşəkar təhlillər edib ortaya dəlillər qoya biləcək şəxs Etibar Əliyevdir. Düşünürəm ki, o təhsilin içərisində olan biri kimi bu işləri yürüdüb, bizim məqsədlərimizi həyata keçirəcək. Onda təcrübə var və təhsil problemlərindən də çıxış yolunu bilir".

Təhsil Eksperti Şahlar Əsgərov isə parlamentdə təmsil olunan deputatlardan Ceyhun Məmmədovu daha təcrübəli hesab edir:

"Mən komitə üzvlərinin hamısını tanımıram. Amma tanıdığım deputatlardan Ceyhun Məmmədovun fəaliyyətini yüksək qiymətləndirib, təhsil sahəsində daha bilgili hesab edirəm. Onun rektor olduğu İlahiyyat Universitetində müsbət addımlar atdığının, yeniliklər etdiyinin şahidi olmuşam. Amma yeni seçilən digər deputatları tanımıram deyə, heç nə deyə bilmərəm. Qeyri-hökumət təşkilatları təhsilin gələcəyi haqqında təklif verib deputatlarla bu istiqamətdə işlər görsələr, yaxşı olar. Amma bizim QHT-lər ikinci və üçüncü dünya ölkələrinə aid olan layihələr təklif edirlər. Ona görə mən QHT-lərin fəaliyyətini müsbət qiymətləndirmirəm. Məsələn, təklif verilir ki, qızlara təhsil verək. Siz Avropada belə layihələrə rast gələ bilməzsiniz. Çünki bu məsələlər 100 faiz həllini tapmış proseslərdir. QHT-lərin fəaliyyəti gələcəyə ünvanlanmalıdır, dünəndə qalan söhbətlər layihəyə çevrilməməlidir".

# Bakı Dairəvi-1 avtomobil yolunda dəyişiklik

***Nəqliyyat vasitələrinin Bakı Dairəvi-1 avtomobil yolu ilə müxtəlif istiqamətlərdə (Sumqayıt yolu, "20 Yanvar" dairəsi və "Şamaxı yolu", həmçinin Abbas Mirzə Şərifzadə küçəsi, Yeni Yasamal və MİDA-nin yeni inşa etdiyi yaşayış massivləri istiqamətində) fasiləsiz və rahat hərəkətinin təmin olunması məqsədilə sözügedən yolun 6-cı km-də, yerli keçid yollarını birləşdirən mövcud yolötürücüləri yerləşən ərazidə hərəkətin təşkilində dəyişiklik edilib.***

"Azərbaycan Avtomobil Yolları" Dövlət Agentliyindən "Unikal"a verilən məlumata görə, aparılan yenidənqurma işləri çərçivəsində sözügedən ərazidə yeni geriyə dönmə yeri yaradılıb. Bunun üçün ərazidə yolun hərə-



kət hissəsi zəruri olan yerlərdə 1 və 2 hərəkət zolağı enində genişləndirilib, zəruri yol nişanları, eyni zamanda məlumatverici-göstərici lövhələr quraşdırılıb və standartın tələblərinə uyğun üfüqi nişanlama işləri aparılıb.

Bununla da Yeni Yasamal yaşayış kompleksi və Abbas Mirzə Şərifzadə küçəsi istiqamətində şəhərə daxil olan avtonəqliyyat vasitələrinin uzun məsafə qət edib, Bakı şəhər Baş Dövlət Yol Polisi İdarəsinin qarşısında yerləşən dairədən geri dönmə əməliyyatı yerinə yetirməyə ehtiyac qalmayıb. Artıq Bakı Dairəvi-1 avtomobil yolunun hər iki istiqaməti ilə hərəkət edən avtonəqliyat vasitəıləri yeni yaradılmış yol hissəsindən istiffadə edərək qeyd edilən istiqamətlərdə, o cümlədən Badamdar şossesi istiqamətində rahat şəkildə hərəkət edə bilərlər. Yeni yol hissəsinin yaradılması ilə hərəkətin təşkilində edilən dəyişikliklər nəticəsində sürücülərimiz həm uzun məsafə qət edərək vaxt itkisi ilə üzləşməyəcək, həm də aparılmış yenidənqurma işləri Badamdar şossesi istiqamətində yaşanan tıxac və ləngimələrin aradan qaldırılmasına müsbət təsir edəcək.

***Zaurə***

# Həftəsonu bu qurumların fəaliyyətinə icazə verildi



***Bu həftənin sonu Azərbaycanda fəaliyyətinə icazə verilən qurumların siyahısı açıqlanıb.***

Unikal.org xəbər verir ki, iyunun 6-sı saat 00:00-dan iyunun 8-i saat 06:00-dək yalnız aşağıdakı qurum və xidmətlərin fəaliyyətinə icazə verilir:

- Siyahısı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyənləşdirilən dövlət orqanlarının (qurumlarının) və digər təşkilatların fəaliyyəti;

- xəstəxanalar, təcili tibbi yardım müəssisələrinin fəaliyyəti;

- sosial xidmət müəssisələrinin fəaliyyəti, o cümlədən əqli və hissiyat pozuntusu olan, habelə xüsusi qayğıya ehtiyacı olan şəxslər üçün baxıcılıq xidməti;

- kommunal xidmətlər (su təchizatı və kanalizasiya, qaz təchizatı, istilik təchizatı, enerji paylanması, məişət tullantılarının yığılması və utilizasiyası);

- elektrik enerjisinin istehsalı və təchizatı;

- meliorasiya və su təsərrüfatı;

- rabitə xidmətləri;

- teleradio yayımçılarının (televiziya və radio kanalları, kabel televiziyaları) fəaliyyəti;

- dəmir yolu, avtomobil, dəniz, hava nəqliyyatı ilə yük daşımaları;

- boru kəmərləri ilə nəqliyyatın təmin edilməsi fəaliyyəti;

- fasiləsiz istehsalat fəaliyyəti (istehsalat-texniki şərtlərə görə fəaliyyətinin dayandırılması mümkün olmayan müəssisələr);

- neft və qazın hasilatı, emalı, saxlanması və satışı;

- fəaliyyəti dayandırılmış iş və xidmət sahələrinin mühafizə və texniki təhlükəsizliyinin təmin edilməsi üzrə xidmətlər.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan bildirilib ki, fəaliyyətinə icazə verilən iş və xidmət sahələrində işləyən şəxslərin və xidməti avtomobillərin hərəkətinə işəgötürən tərəfindən həmin şəxslər barədə məlumatlar elektron imzadan istifadə edilməklə "icaze.e-gov.az" portalına daxil edildikdən sonra yol veriləcək.

Eyni zamanda dövlət əhəmiyyətli, həyat təminatlı müəssisələrin və qurumların, həmçinin fasiləsiz işləyən qurumların fəaliyyətləri zəruri hesab edilən işçilərini məhdud sayda cəlb etməklə tənzimlənəcək.

Xatırladaq ki, 2020-ci il 6 iyun saat 00:00-dan 8 iyun saat 06:00-dək Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərinin və Abşeron rayonunun ərazisində bütün iş, xidmət və ticarət sahələri üzrə fəaliyyət, eyni zamanda ictimai nəqliyyatın və avtomobillərin hərəkəti dayandırılacaq (xüsusi təyinatlı, qəza-bərpa, təcili tibbi yardım avtomobillərinin və fəaliyyətinə icazə verilən orqanların (qurumların) və təşkilatların xidməti avtomobillərinin hərəkəti istisna olmaqla).

Qeyd olunan tarixdə Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonunda əhalinin yaşayış yerlərini və ya olduğu yerləri tərk etməsi qadağan edilir.

Sakinlər yaşayış yerlərini və ya olduğu yerləri həyat və sağlamlığa bilavasitə təhlükəli vəziyyət yarandığı halda, eləcə də təxirəsalınmaz tibbi yardıma ehtiyac olduqda yalnız təcili tibbi yardım xidməti vasitəsilə, habelə yaxın qohumların dəfnində iştirak etmək üçün Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Növbətçi Hissələri İdarəetmə Xidmətinin 102 Xidməti - Zəng Mərkəzi vasitəsi ilə icazə almaqla tərk edə bilər. 2020-ci il 5 iyun tarixində Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərinin və Abşeron rayonunun ərazisində dövlət orqanları və qurumları üçün saat 14:00-dək qısaldılmış iş rejimi müəyyən edilib.

***Famil***

# İcra başçısı Gəncədə abadlıq işlərinin gedişatı ilə tanış oldu

***Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov abadlıq işlərinin aparıldığı Şah İsmayıl Xətai və Nizami Gəncəvi prospektləri, habelə Məmməd Xələfov küçəsində olub. Burada işlərin gedişatı ilə maraqlanıb.***

"Unikal"ın məlumatına görə, adıçəkilən ərazilərdə çoxmənzilli binaların həyətləri abadlaşdırılır, yol kənarındakı yaşıllıq zolaqları yenilənir, qazon səpilir. Ağaclara aqrotexniki qulluq göstərilir, yola tərəf əyilərək yol nişanlarının qarşısını kəsən budaqlar budanır. Bununla yanaşı səkilərdə səliqə-səhman yaradılır, yeni bardür daşları düzülür, ehtiyac olan hissələrin asfalt örtüyü bərpa edilir. Məmməd Xələfov küçəsinə də



yeni asfalt örtüyü çəkilir. Əraziyə Gəncə Şəhər Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyinin xeyli sayda canlı qüvvəsi və texnikası cəlb olunub.

Xəbər verdiyimiz kimi, ölkədə koronavirus pandemiyasına qarşı mübarizənin daha da gücləndirilməsi məqsədilə Prezident İlham Əliyevin sərəncamına uyğun olaraq modul tipli xəstəxanaların tikintisinə başlanılıb. Bu xəstəxanalardan biri də Gəncədə inşa edilir. Yeni inşa edilən modul tipli xəstəxananın həyəti və ətrafında da abadlıq işləri həyata keçirilir. İşlərin gedişatına Gəncə Şəhər İcra Hakimiyyəti tərəfindən ciddi nəzarət olunur.

Niyazi Bayramov iş icraçıları ilə söhbət edib, işlərin vaxtında yekunlaşması istiqamətində aidiyyatı şəxslərə öz tapşırıq və tövsiyələrini verib.

# DƏLİ-DİVANƏ

***Onunla təzəcə elə dostlaşmışdıq ki,bir gün belə bir-birimizi görməsək, darıxırdıq. Həkim idi. Xəstələrlə o qədər xoş rəftarı var idi ki, onun yanından çıxan xəstələr özünü çox rahat və bir növü sağalmış hiss edirdi. Bir dəfə iş sonuna yaxın onu görməyə gəldim.***

İş kabinetini bağlayıb:

-Gəlsənə bir təbiətin goynuna çıxaq,-dedi və əlavə etdi ki,mənə çox məzəli əhvalat danışacaq.

Biz su arxının üstündə qurulmuş yeməkxanaya gəldik küncün birində oturub çay və şirniyyat sifariş etdik

- Heç tələbəlik illərindən yadında qalan məzəli bir şey olubmu?-deyə o.məni sorğu-suala tutdu.

Mənim fikrə daldığımı görüb söhbətə başladı.

Beşinci kursda idik və üç sadiq dostlar bir yerdə qalırdıq.Bu beş ildə bir dəfə də olsun aramızda cüzi də olsun narazılığımız olmamışdı.Bizdən yaşca böyük Zaur son zamanlar çox qayğılı görünürdü.Səbəbini bizə anlatmadığı üçün narahat olmağa başlamışdıq.Yuxusunu qarışdırır .yata bilmir,az yatırdısa da sayıqlayır Lalə,Lalə,- deyirdi

Məsələni başa düşdük.Sən demə kişi Ələkbər müəllimin qızına əməlli başlı vurulmuş imiş.Ələkbər müəllim ədazilin biri idi.Rüşvətsiz bir tələbəyə də qiymət yazmazdı.Rektora yaxınlığı ilə seçilirdi deyə ona gözün üst qaşın var deyən bir kişi yox idi.Lalə də ən bahalı palpaltar geyər,bir az gözəl olduğu üçün çox tələbə onunla maraqlansa da heç kəs atasından ehtiyat etdiyindən ona yaxın düşə bilmirdi.Barmaqlarına,qulaqlarına taxdığı daş-qaş uzaqdan bərq vururdu.Qurduğumuz kiçik bir məclisdə bunu ona başa salmaq istəsək də Zaur inadından dönmürdü.Dağ rayonlarının birində doğulub böyümüşdü yanağından necə deyərlər qan damırdı.Birdən içdiyi içkinin təsirindənmi.ya Lalləyə elan etmədiyi etirafındanmı klassiklərdən məhəbbət haqqında elə misralar söyləməyə başladı ki,hamımız şoka düşdük.Onun poeziyaya, klassiklərimizə bu qədər dərindən bələd olması bizi xeyli sevindirdi.Sonda Laləyə həsr etdiyi öz şeiri daha təsili idi.Hətta onunla bərabər hamımızın yanağından göz yaşı süzülürdü.Eyni fikir hamımızı isti qoynuna almışdı:-Bu ki,dəli-divanə imiş.

Bu işin həllinə girişsək də onun baş tutmayacağına tam əmi idik.Şəhərdə cah-cəlal içərisində atasının qazandığı haram pulla böyümüş qız ona həmi deyəcəkdi! .Onun birtəfli məhəbbətini Lalənin dostları vasitəsilə ona çatdırdıq.Cavab çox yekəxanalıqdan doğduğu üçün onu faş edib Zauru aşağılamaq istəmədik.Lakin onun bu birtərəfli məhəbbətini söndürmək üçün yollar aralamağa başladıq.

Tibbi.psixoloji kitabları vərəqləyib buna çarə olaraq zarafatyana bir oyun qurduq.Qızın adından cızma-qara məktub yazıb onu Zaura ünvanladıq Həftənin sonu ona Lalə görüş yeri "təyin" etdi.

Görüşdən əvvəl o nə geyinəcəyi,nə deyəcəyini məşq edirdi.

Bu bizim üçün nə qədəq ağırlı olsa idi.biz dostumuzu dəli olmaqdan xilas etməli idik.Bir qıza gəlbən vurulmaq,özü də bütün varlığınla vurulmaq, həqiqətən dəlilik əlamətidir.Bu əsl məhəbbətdir,giriftar olanlar yaxşı bilir.-Vay odur ki.qarşılığını almayasan onda bu artıq cəhənnəm odunda yanmaqdır

Mən səbrimi basa bilməyib sonra nə oldu sordum.

Təbii ki,qız onu saymamış "görüş"ə gəlməmişdi .Hər halda bizim oyunumuz onun bu bir tərəfli məhəbbətini söndürməsə də onu həqiqi mənada bir qədər yumşaltdı və qızın"getsin anqırsın tayını tapsın" kəlməsini ondan gizlətmiş olduq.

Son olaraq öyrəndik ki,Lalənin atasını rüşvət üstündə həbs ediblər. Lalə isə ərköyünlüyündən getdiyi ailədə dil tapa bilməyib və boşanıb.Ağ briliyant istəyirmiş.-Qaynnanası onun var-dövlət hərisi olduğunu başa düşmüşv, oğluna ondan sənə yar olmaz deyibmiş

Bəs Zaurdan xəbərin varmı?-deyə həyacanla soruşdum

- Əlbəttə. Bizim qurduğumuz "oyun"dan sonra agah olsa da onu bizim üzümüzə vurmadı O, doğulduğu rayonun baş həkimliyinə qədər yüksəlmiş və yanında işlədiyi tibb bacısı ilə ailə həyatı qurub və neçə ildir ki,xoşbəxt həyat sürür, .oğul uşaq sahibidirlər

.Sonda hər ikimiz susduq

Çayınızı yeniləyimmi?-bu bizə xidmət edənin səsi idi.

Elə bil yatmış idik və yuxu görürdük

***Əbülfət Alışov***



# Nakam sənətkarlar: abırlı "Sevda", dərddən qısalan ömür... - ANIM

***Bu gün Azərbaycanın iki talesiz əməkdar artistinin doğum günüdür. Hər ikisi vaxtsız dünyasını dəyişib. Talesiz dedim, amma hər şey nisbidir. Bəlkə əksinə, ən taleli aktyorlardır ki, sənətdən və həyatdan nakam köçsələr də az sayda obrazları ilə tamaşaçının yaddaşında qalıblar.***

Lent.az xəbər verir ki, Tanilya Əhmərova kütləvi tamaşaçıya "Qaynana" filmindən Sevda ilə daha çox tanışdır. "Sevinc buxtası, "Şir evdən getdi" (Şəfiqə), "Üzeyir ömrü" (Üzeyirin anası) filmlərində də çəkilib. Amma "Qaynana"dakı Sevda o qədər xarakteri ilə üst-üstə düşürdü ki, özünün də sevdiyi obraz idi. Həyatdan küsmüşdü, kinodan da həmçinin. Kinonun içində yəqin ki, daha çox rejissorlar və həmkarları vardı.

Sevda obrazı ilə yaddaşlarda qalsa da potensialı tam açılmamış getdi.

1950-ci il iyunun 1-də Bakıda anadan olub. 1977-ci ildə Dövlət Teatr İnstitutunu (Mədəniyyət və İncəsənət Universiteti) bitirib. Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının ştatında aktrisa idi.

Tanilya Əhmərova uzun sürən xəstəlikdən sonra 4 avqust 2015-ci ildə Bakıda vəfat edib.

Ömrünün sonuna qədər heç kimə heç nədən şikayət etmədi, haqqını tələb etmədi. Heç haqqı olduğunu da hesab etmədi. Xəstəliyini belə gizlətmişdi. Dəfələrlə şəxsən zəng edib görüşmək, yazı hazırlamaq istədiyimi demişdim, gülə-gülə yola vermişdi məni. Bir gün də beləcə ölüm xəbərini eşitdik.

***

Digər söhbət açacağım aktyor Ömür Nağıyev 1953-cü ildə Bakıda anadan olub. 1975-1979-cu illərdə Moskvada Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun kino və televiziya rejissorluğu fakültəsini bitirib.

O ali ocağı bitirib sənətdə xoşbəxtliyə qovuşanı görmədim. Hər halda, o institutu qurtaran azərbaycanlılardan sənətdə yüksəlib, sənətindən razı qalan görmədim. 1972-ci ildən "Azərbaycanfilm" kinostudiyasında işləyib. 30-dan çox filmdə çəkilib. Bakı Bələdiyyə teatrında işləyib.

2005-ci ildən S.Vurğun adına Rus Dram teatrının aktyoru idi. Teatrda işlədiyi müddətdə Bernar (K.Xiqqins "Qarold və Mod"), Prokuror (M.İbrahimbəyov "Neft bumu"), Qersoq Kornuelski (U.Şekspir "Kral Lir"), Polis (Elçin "Ubiysa"), Azər-baba (S.Vurğun "Fərhad və Şirin") kimi obrazlar oynayıb.

Ömür Nağıyev əməkdar artist Nəsibə Eldarova ilə evli olub. Onların Rüfət Nağıyev adlı oğulları 2013-cü ilin sentyabrında vəfat edib.

Ömür Nağıyev oğlundan sonra cəmi iki ay yaşayıb. 2013-cü ilin dekabrında dünyasını dəyişib. Hovsan məzarlığında dəfn edilib.

Allah hər iki sənətkarımıza rəhmət etsin.

# Oyuna qarşı oyun – İlqar Rəsul yazır



***Əslində sərhəd bağlamaqla, qürbətdən qayıdanları göz altına almaqla ölkə daxilində virusun yayılmasını əngəlləmək o qədər də güvənilən üsul deyil. Bunu tək Azərbaycan deyil, bütün dünya bilir. Amma əlbəttə, sərhəd də bağlanmalıdır, necə deyərlər, şübhəlilər də göz altına alınmalıdır. Çünki bunlar da xilasa hesablanmış ümumi strategiyanın həlqələridir.***

İndi keçək küçələrdən qorunmağa. Vəziyyət belədir ki, bu koronovirusun dünyada yayılmasında birbaşa maraqlı olan hansısa təşkilat, dəstə və ya insan qrupu var. Bəlkə də heç onlar insan deyillər, insan cildində kimlərdilərsə. Amma bu, artıq başqa söhbətin mövzudur. Qayıdaq ona ki, bu virusun dünyada yayılmasında və vaksinin tapılmamasında maraqlı olanlar var. Heç şübhəsiz, həmin qrupun iradəsindən kənarda kimsə vaksini tapsa, dərhal virus himayədarlarının sayəsində öz xarakterini dəyişib, vaksini qüvvədən salacaq. Niyə? Çünki virusu dövriyyəyə buraxanlar onu "vaxtından əvvəl" hansısa vaksinə təslim etmək üçün qurmayıblar bu oyunu. Demək, onlar çox güclüdürlər və görünən odur ki, qurduqları oyunu planetimizdə poza biləcək qüvvə hələ ki, yoxdur.

Oyun demişkən, bizim artıq bir neçə aydır müşahidə etdiyimiz, pis-yaxşı qorunmağa çalışdığımız, bu oyunun başlanğıcı, primitiv mərhələsidir. Anlaşılan odur ki, əsas mərəkə hələ qabaqdadır. Bunu, oyunu quranların tez-tez dünyaya buraxdıqları "ikinci dalğa olacaq", "üçüncü-beşinci dalğa da var", "pandemiya beş il çəkəcək" kimi informasiyalar da təsdiqləyir. Heç şübhəsiz, həmin oyunçu qurumun emissarları hələ bu virus ortaya çıxmadan dünyanın bütün ölkələrində oturublar. Çamadanlarında da virus dolu bankalar. Göstəriş olan vaxt açırlar bankanı, yayırlar virusu. "Birinci dalğa" da belə olub, "ikinci, üçüncü, beşinci dalğa"lar da belə olacaq. Cədvəl üzrə hansı ölkədə nə qədər lazımdı, o qədər buraxırlar virusu cəmiyyətə.

Məsələn, indi, hamımızın yenidən arxayınlaşıb səhlənkarlıq etdiyimiz dönəmdə, emissarlar şəhərlərdə gəzib, deyək ki, dolu keçən avtobusları müşahidə edirlər, gözlərinə yaxşı gələnə minib, virusu buraxıb növbəti dayanacaqda düşürlər. Vəssalam. Bir avtobus adam yoluxdu. Başqa heç nə lazım deyil. Gün ərzində həmin bir avtobus adam özləri də bilmədən əvvəl çöldə, sonra da evdə insanları yoluxdurmaqla məşğul olurlar. Amma məsələ tək onlarla da bitmir. Axı gün ərzində həmin o gözə yaxşı gəlmiş avtobus dəfələrlə dolub-boşalır. Üstəlik də şəhərin bir çox yerlərində. Təsəvvür etdiniz də nə baş verir?

Amma bir iş var. Biz ağıllı, məsuliyyətli olsaq, "gözəgörünməzlərin" bankanın ağzını açdıqları həmin avtobuslarda belə virusa yoluxmaya bilərək. Necə? Çox sadə. Koronavirusa qarşı qoyulan qaydalara əməl etməklə. Tək avtobusda yox, əlbəttə ki. Ondan düşəndən sonra qoruna bilərik məsuliyyətli olmaqla. Bununla evimizdəkiləri də qorumuş olarıq. Amma bu da hər şeyi həll etmir. Çünki evimizdəkilər də qaydalara əməl etməlidirlər. Evdən bicə nəfər bunu etməsə, qalanların ümumi cəmiyyətə qarşı məsuliyyətli davranışı öz əhəmiyyətini itirir, faydasızlıq baş verir. Hər kəsin öz ailəsində pandemiyaya qarşı məsuliyyətli olması cəmiyyətin məsələyə məsuliyyətini də yarada və gücləndirə bilər. Əgər biz pandemiya dövründə "Ölkəmiz böyük ev, cəmiyyətimiz böyük ailədir" yanaşmasını həyatımıza tətbiq etsək, həmin o oyunçuların qurduğu oyun xeyli uğursuzluğa düçar olar.

Bir məsələni də vurğulayım ki, mənim tez-tez "oyun" deməyim heç kimi çaşdırmamalıdır. Bu, onlar üçün oyun, əyləncədir, bizim üçün ciddi fəlakətdir. Ona görə də virusun mövcudluğuna inanmayanlara, "belə bir şey yoxdur" deyənlərə və ümumiyyətlə, hamıya müraciət edirəm.

Bunu bir çıxış yolu təklifi də saya bilərsiniz: Olsun, lap koronovirus yoxdur və onu kimsə uydurub. Onda biz, hərəmiz öz koronavirus əhvalatımızı niyə uydurmayaq ki. Bəlkə elə ən böyük həqiqətimiz uydurduğumuz olacaq. Axı bilmirik qarşıda bizi nə gözləyir. Bəlkə elə bu, hazırda yaşadığımız yeni dövrdə ən gözəl günlərimizdir. Bəlkə oyunçuların bəşəriyyətə hücumunun öz "müqəddəs missiyası" olduğu kimi, bu hücumlara qarşı tətbiq olunan qaydaların da öz müqəddəs missiyası var?

Gəlin elə düşünək ki, bu hücum əslində bizi məhv etmək üçün yox, birləşdirmək üçündür. Hətta bunun əksidirsə belə, biz onu özümüzə sərf edən, işimizi asanlaşdıran, mübarizəmizə şirinlik qatan tərəfə yozaq.

Elə hesab edək ki, bizi bir yerə yığıb ömrümüzün bir dönəmini sırf yaxınlarla birlikdə keçirməyə vaxt veriblər. Kim vermişdi indiyəcən bizə bu imkanı və vaxtı? Heç kim əlbəttə.

Düşünün, insanlar. Bəlkə kimsə sizi bir birinizlə tanış edir. Axı həyatımızda hər şey həmişə biz düşündüyümüz kimi olmasa da, təxminən nəyin necə olacağını-yaxşı, ya pis (işimiz alınacaq, ya alınmayacaq, gedənimiz ya gələcək, ya gəlməyəcək, xəstəmiz ya sağalacaq, ya sağalmayacaq) olacağını düşünürdük. Amma bunu, belə bir şeyi ağlımıza gətirmirdik. Təsəvvür etmirdik. Biz insanların ömrü boyu ilan görməyənlərində də ilandan qorxmaq var. Niyə? Çünki gen yaddaşımızda var ilanın təyinatı. Amma bu, belə bir əhvalat, "dövlətin icazəsi, tövsiyəsi olmadan çölə-bayıra çıxma, evdə qal" heç gen yaddaşında da yoxdur. Nədirsə, təzədir bu vəziyyət yəni. Əgər təzədirsə, deməli, bu, yad bir oyundur. Yaddırsa, demək ki, bizim onu yaxşı və pis oynayacağımız da məlum deyil. Elədirsə, niyə pis oynayaq ki? Gəlin hesab edək ki, koronovirus bizim bir cəmiyyət olaraq ən yaxşı oynaya biləcəyimiz oyundur. Gəlin hesab edək ki, bu heç xəstəlik də deyil. Sağlamlıqdı? Həm də ağır daşlar qaldırmaq, qaçmaq, üzmək, velosiped sürmək, turnikdə dartınmaq və s. tələb etməyən, öz qaydaları, tələbləri olan bir sağlamlıq oyunu. Və gəlin "bu oyunun qaydalarına kim daha yaxşı əməl edər" uğrunda yarışaq...

# Ştirlisin gəlini, qayadan tullanan "seks-simvol", tənha şairə... – HƏYAT HEKAYƏTİ

***Natalya Varley desəm, bəlkə də oxucuya nə isə demiş olmayacam. Yaxşısı budur, Nina deyim, Şurikin Ninası. "Tələbə, komsomolçu, idmançı və nəhayət, sadəcə, gözəl qız!".***



Natalya Vladimirovna Varley Rumıniyada anadan olub. Atası Vladimir uzaq səfərlər gəmisinin kapitanı idi. Anası Ariadna Sergeyevna isə dağ mühəndisi.

Natalyanın dədə-babası Rusiyaya Uelsdən gəlmədilər. Natalyanın uşaqlığı Murmanskda keçib. Natalya Varleyinki həyatda həmişə gətirib, orta məktəbdə də, musiqi məktəbində də əlaçı olub. Üç qırmızı diplomu var. Uğurla sirk məktəbini, teatr və kino institutlarını bitirib.

50-ci illərin sonunda Moskvaya köçüblər. Bir dəfə anası onu sirkə aparıb. Qızın diqqətini sirkdəki elan çəkib. Sirk studiyasına uşaqlar dəvət olunur. Səhəri gün gizlicə həmin ünvana gəlir. Müsabiqədən keçir. Onu Sirk İncəsənəti məktəbinin akrobatika studiyasına qəbul edirlər.

Sən demə, Natalya Varley uşaqlıqda balerina olmaq istəyirmiş. Kök olduğundan qəbul etmirlər. Sirkə meyl yarananda isə çoxlu idman etməklə, əziyyətə qatlaşmaqla arzusuna çata bilir.

Əvvəlcə Odessa sirkində işləyir. Elə orda da kinorejissor Qeorgi Xilkeviç onu görüb, kinoya dəvət edir.

Rejissor deyir ki, mənim qəhrəmanım gənc yaşlarında elmi işçi olan qadın idi. Natalyanın isə 17 yaşı vardı, ancaq 14 yaşında görünürdü.

Nə qədər qrim ediblərsə, onda elmi işçi simasını ala bilməyiblər, çünki çox uşaq görünüb. Rejissor sirkdə görüb çox bəyəndiyi belə bir gözəlliyi filmində görməyi çox istədiyindən "Göyqurşağı formulası" filminin ssenarisinə tibb bacısı surəti əlavə edib.

Təsadüfi heç nə yoxdur. Leonid Qaydayın filmin çəkilişlərinə gələn assistentinin diqqəti Natalyanın üstündə cəmləşir. Qeorgi Xilkeviç deyir ki, o qız tapıntıdır, bütün tryukların da öhdəsindən gələcək, amma Qayday mənə hədiyyə verməlidir bu tapıntıya görə. İllər sonra Qayday o vaxt heç tanımadığı gənc rejissora bahalı konyak hədiyyə edib.

Leonid Qayday Natalya Varleyi aralarında ulduzların da olduğu beş yüz namizədin içindən seçib. "Qafqaz əsiri" filminə heç kimin tanımadığı sirk artistini çəkir.

Natalya bu film üçün Qaydayın arzuladığı aktrisa idi. Bütün tryukların öhdəsindən özü gələn idmançı aktrisa. Saaxovun bağının pəncərəsindən də özü tullanır, əlindəki kəndir yeganə sığortası olsa belə. Qayadan da özü kəndirlə düşür.

Qayalıqdan çaya tullanmaq səhnəsində Qayday Natalyaya icazə vermir. Kaskadyor dəvət edirlər, çəkiliş vaxtı məlum olur ki, kaskadyor qız üzə bilmir. Başqa yol yox idi, Natalya qayadan çaya da özü tullanır.

Elə səhnələr vardı ki, orda aktrisanın hazırlığı tələb olunurdu. Məsələn, uzunqulağın yanından keçəndə onu arxasınca apara bilmək kimi. Ninanın sirkdə işləməyi köməyinə çatır. Görünməz iplə qız uzunqulağı arxasınca çəkir, amma çəkib aparması zərrə qədər hiss olunmur.

Ninanın qayanın üstündə Şurik üçün rəqsi isə Şurikdən başqa bütün sovet kişilərində ona qarşı həvəs yaratmışdı. Onu sovet kinosunun seks simvolu adlandırmışdılar. Nina sovet kişisinin arzusuna çevrilmişdi. Hədsiz pərəstişkarları vardı.

Aktrisa olmaq fikri yox idi, sirkə daha çox bağlı idi. Ancaq "Qafqaz əsiri" filminin populyarlığından sonra dərhal çəkildiyi "Əcinnə" filminin də eyni dərəcədə şöhrət qazanması onun fikrini əsaslı dəyişdi. Amma o ilk uğurlardan bir daha olmadı. Natalya Varley 60-dan çox filmə çəkildi, 2 mindən artıq obraz dublyaj edib səsləndirib. Heç biri onun 1967-ci ildə qazandığı şöhrəti qaytara bilmədi.

"Qafqaz əsiri"nin premyerası 1967-ci ilin aprelində olur. Film aktrisaya dünya şöhrəti gətirir. Filmə görə cəmi 200 rubl qonorar almışdı. 100 rubl da filmin şöhrətindən sonra aldı.

Bu filmdən sonra Natalya Şukşin adına Teatr İnstitutuna qəbul olunur. Yəni aktrisa olmağa qərar verir. Yuxarıda dediyim kimi, peşəkar fəaliyyəti ona həvəskarlıqda qazandığı uğuru gətirmir.

Adətən şöhrət qazananlar şəxsi həyatda itirir. Birinci əri tanınmış rejissor və aktyor Nikolay Burlyayev olur. Natalyanın dostları aktyor Leonid Filatov, yazıçı Mixail Zadornov bu nikahın əleyhinə idilər. Natalya onları eşitmir.

Bir neçə ildən sonra ayrılırlar. İkinci nikahı aktyor Vyaçeslav Tixonovla Nonna Mordyukovanın oğlu Vladimirlə olur. Onunla da yola getmirlər.

Vladimir hədsiz içirdi, ailədə söz-söhbət səngimirdi. 1971-ci ilin sonlarında ondan da ayrılır.

Ayrılandan sonra, 1972-ci ildə oğlu Vasili dünyaya gəlir.

1985-ci ildə isə ikinci oğlu Aleksandr olur. Atası isə hələ də məlum deyil.

Kinoda mükafatları çoxdur. Nina obrazından qazandığı şöhrətlə baş-başadır.

İndi şeirlər yazmaqla da tanınır. Həm də həvəskar deyil, peşəkar şeirlər yazır.

Xoşbəxt deyil, amma xoşbəxt olmağı bacaran qadındır - dostu, rejissor Qeorgi Xilkeviç onu belə xarakterizə edir.

Tənha yaşayır, pişik, it, xoruz, hətta tısbağa saxlayır.

# "Müəmmalı bir qətlin üç versiyası"

***Dövlət "Yuğ" Teatrında R.Akutaqavanın "Cəngəllikdə" novellası əsasında hazırlanmış "Müəmmalı bir qətlin üç versiyası" adlı tamaşa növbəti dəfə iyunun 6-da sənət ocağının sosial şəbəkədəki səhifələri vasitəsilə saat 19:00-da göstəriləcək.***



"Unikal" xəbər verir ki, tamaşanın quruluşçu rejissoru, teatrın baş rejissoru, Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadə, quruluşçu rəssamı Vüsal Rəhim, musiqi tərtibatçısı Vüqar Camalzadədir.

Səhnə əsərində Əməkdar artist Gülzar Qurbanova, aktyorlar Oqtay Mehdiyev, Əbdülqəni Əliyev, Vüqar Hacıyev, Amid Qasımov, Elşən Əsgərov çıxış edəcəklər. Tamaşanın janrı postmodern oyun kimi müəyyənləşdirilib.

Rejissor tamaşanın yozumu barəsində belə deyir: "Mütləq həqiqət yoxdur. Nə irrasional, nə mistik, nə intuisiya, nə fideizm prinsipi burda əsas götürülə bilməz. Heç yerdə həqiqət birmənalı deyil. Hadisəyə hər baxış bucağında bir həqiqət var. Kimsə əksini sübut edə bilmədiyi kimi, əslində, baş verənlərin tam sübutu da mümkün deyil. Hadisə var - müəmmalı bir qətl. İştirakçılar qiyabi və əyanidir. Həqiqət isə iştirakçıların sayı qədərdir. Əsər detektiv təsiri bağışlasa da, daha çox fəlsəfi metaforik üsluba meyillidir. Cəngəllikdə bir ölüm, bir zorlanma hadisəsi baş verib. Əsas sual ortadadır. Kim-kimi öldürüb? Bu suala üç müxtəlif cavab-yanaşma var. Cavab-həqiqət isə yoxdur. Əslində, hadisə necə baş verib? Tamaşada bu suala cavab axtarılır. Bu axtarışda tərəflərin və insan sifətlərinin kəşfi baş verməlidir. Sonuc isə yenə də eyni... birmənalı həqiqət yoxdur. Hətta intersubyektiv həqiqət mütləq həqiqətə çatmır.

# Ölmə, Vaqif Bayatlı, ölmə!

***Vaqif Səmədoğlu torpaq altındadı, Əkrəm Əylisli qınaq altında, Ramiz Rövşən dörd divar arasındadı. Nə haqq dünyasına gedənlərin, nə yalançı dünyada qalanların arasında yoxsan.***

Hardasan, Vaqif Bayatlı?! Bizim şairimizi: yaşıl köynəkli oğlanı, qonşu toyuna on hasar o yana oynayan o uşağı götürüb hara getdin?!

Səninçün növbədənkənar darıxmağım tutub, səni gündəmdənkənar yad etmək istəyirəm. Buralarda adamları doğum və ölüm günlərində topdan və pərakəndə xatırlayırlar, bir də fövqəladə hallarda.

Ölmə, Vaqif Bayatlı, ölmə!

Bizim bu çirkli gündəmimizə gəlmə, Vaqif Bayatlı, gəlmə.

Bilmirəm, o iki dünyanın arasında nə qədər rahatsan, sənin olduğun o "Bermud üçbucağında" çəkisizliyin hansı fəslidir, amma heç sən də buralarda nə baş verdiyini bilmə, Vaqif Bayatlı, bilmə.

Yenidən hazırlaşıb ikinci dəfə imtahan vermək istəyən tələbənin müəllimini görmək istədiyi kimi görmək istəyirəm səni. İndi mənə aydındı, "yaxşı adamları lap çox, pisləri də heç olmasa bir az istəmək" nə deməkdi. Mən indi bilirəm, pisləri heç olmasa bir az istəmək əslində necə "daşınmaz" bir sevgidi. Mən indi sevincin bütün antonimlərini, ruhun bütün notlarını, hissin bütün çalarlarını öyrənmişəm. Mən indi bilirəm, gül düzəltmək istədiyin adamları gildən düzəltmək necə ağırdı. Biz axı şair idik, niyə hər tərəfimiz heykəllərlə doldu?! Bəlkə, bu sualın cavabını bilirsən, amma sən yenə də dinmə, Vaqif Bayatlı, dinmə.

Bu yaxınlarda Musa Yaqubun gözlərində çarəsizliyin şəklini gördüm. Sözün bitdiyi yerdə dayanıb hər şeyi sözsüz anlamaq dərdi də varmış şairlərin. Ordan o yana nöqtədi, ordan o yana susar şairlər. Yorulub silahını atan döyüşçülər kimi.

Hərdən Sabir Rüstəmxanlıyla dərdləşirəm. Mən mübtədanı ifadə etməmiş, o, cümlənin xəbərini deyir. Və bir daha anlayıram ki, bu dünyada mütləq həqiqət var, mütləq var. Biz onu özümüzdən uzaqlaşdırmaq üçün gah pafos, gah obrazlılıq, gah sentimentalizm, gah bədiilik adlandırırıq, qaçıb içimizdəki soyuqqanlılığa, reallığa qısılırıq. Elə qapını örtüb içəri girən kimi həqiqət bizə pəncərədən baxıb göz vurur.

Ona görə də bütün yaşlarda, bütün bədənlərdəki şair ruhları darıxır sözün bütün mənalarında. Mən onların haqlı olanını lap çox, haqsız olanını da heç olmasa bir az anlayıram. Və bu yazıda adını çəkdiyim və çəkmədiyim bütün yazıçılarımı itirməkdən qorxuram. Onlar mənim uşaqlıq xəyallarımın sərkərdələri idilər. Mən döyüşün sonunda sərkərdəsiz qalmış bir əskər kimi başıma güllə sıxmaq istəyirəm.

Yəqin çox ağır hissdi başına güllə çaxmaq istəyən əsgərin sərkərdəsi olmaq.

Elə buna görə də gəlmə, Vaqif Bayatlı, gəlmə.

***Səhər Əhməd***



## Həkimdən ciddi xəbərdarlıq - Dondurma niyə təhlükəli məhsuldur?

***Yetkin insanın gün ərzində yeyə biləcəyi optimal dondurma porsiyası açıqlanıb.***

"Unikal" xəbər verir ki, ENT klinikasının rəhbəri Vladimir Zaitsev bu soyuq deserti hər gün yeməyin təhlükəli olması barədə xəbərdarlıq edib. Həddən artıq dondurma yemək farингit, tonzillit, laringit və rinosinusitə səbəb ola bilər. Bundan əlavə, şokoladlı dondurma yüksək kalorili hesab olunur, onun yüz qramında demək olar ki, 300 kalori var.

Həkimin sözlərinə görə, isti iqlim zonasında yaşamayan insanlar hər gün dondurma yeyə bilməz. Yetkinlər üçün norma həftədə iki dondurmadır.

Zaitsev dondurmanı olduqca təhlükəli məhsul kimi qələmə verib. O, iltihab riskini minimuma endirmək üçün bu deserti bir qədər əridib və ya isti bir şeylə yeməyi tövsiyə edib. Məsələn, isti çay. Soyuq dondurma və isti çay boğazda təzad yaradacaq ki, bu da xəstələnmə ehtimalını azaldır.

Bu deserti sürətlə yeyib bitirməyə çalışmayın, əks təqdirdə diş və diş ətlərini aşındıra bilərsiniz. Bu da trigeminal nevrit üçün təhlükə yaradır. Başlıcası kondisionerli otaqda dondurma yeməyin.

## Meyvə və tərəvəzləri qabıqlı şəkildə yemək daha faydalıdır

***Limon, portağal, alma və kartofu qabığı ilə yemək yaxşıdır. Meyvə və tərəvəzlərin qabıq hissəsi onunləti ilə müqayisədə daha çox lif və vitamin ehtiva edir. Məsələn, badımcan qabığı hüceyrələrin məhv olmasına və iltihablanmasına mane olan güclü antioksidantdır. Qabaq (kabaçok) qabığı antioksidant təsiri olan C vitamini və xlorofillə zəngindir.***

Rusiyalı proktoloq-onkoloq Yelena Smirnova bu sözləri "MedikForum" saytına müsahibəsində deyib.

Onun fikrincə, çoxlu miqdarda C vitamini, lif və antioksidant ehtiva edən sitrus meyvələrinin qabığını yemək çox faydalıdır. Proktoloq-onkoloq xiyar və almanı qabığı ilə yeməyi də məsləhət görür. Brokkolinin tərkibindəki antioksidantlar isə stresin və göz hüceyrələrinin zədələnməsinin qarşısını alır. Həkim qeyd edib ki, kartofu qabığı ilə birlikdə yedikdə bədən daha çox C vitamini və liflə təmin olunur. Lakin yaşıl kartof qabığı ilə qidalandıqda onun tərkibində zəhərli solanin birləşməsi də ola bilər.

Rusiyalı həkim mövsümi meyvə və tərəvəzləri də qabıqlı şəkildə yeməyi məsləhət görüb.

# Karantindən sonra rasionu necə dəyişməli? - Bu məhsullar gözlərinizi və dərinizi mükəmməl edəcək

***Həkimlər müsahibələrində bildirib ki, karantin müddətində çoxumuzda vitamin çatışmazlığı yaranıb. Kifayət qədər hərəkət etmirik, kompüter arxasında və smartfonlarda daha çox vaxt keçiririk. Bütün bu amillər gözlərimizə, dərimizə və hətta əhval-ruhiyyəmizə mənfi təsir göstərir.***

Dietoloqlar bu problemləri aradan qaldırmaq üçün rasiona yerkökü, çuğundur, badam, balıq kimi faydalı məhsulları daxil etməyi tövsiyə edir.



### Gözləri xilas edin

Görmə qabiliyyətini yaxşılaşdırmaq istəyirsinizsə, spirtli içki, şirniyyat, ağ çörək, tünd çay və qəhvədən tamamilə imtina etməlisiniz. Əsas odur ki, faydalı maddələri rasiona daxil edin, bu, nəinki maddələr mübadiləsini sürətləndirməyə, həm də "görməyə" kömək edəcək.

### Yerkökü

Yerkökündə çox sayda b-karotin var, retinoid bədəndə A vitamininə çevrilir və gözləri gücləndirir. Karotinin bədəndə zəif udulduğunu xatırlamaq vacibdir, odur ki, rusiyalı dietoloq Yekaterina Zaxarova yerkökünü sağlam yağlarla - zeytun yağı və ya pendir ilə yeməyi məsləhət görür.

### Göyərti

Göyərtilərdə zeaxantin və lutein adlı maddə var. Bu maddələr karotenoidlərdir və görmə qabiliyyətinə kömək edir. Görmə qabiliyyəti daha kəskin, gözlər daha möhkəm olur və daha az yorulurlar. İspanaq, cəfəri, şüyüd və kahı gözləri vaxtından əvvəl qocalmaqdan və ultrabənövşəyi radiasiyadan qoruyur. Brokkoli kataraktanın qarşısını alır və gözləri gücləndirir.

### Qarağat

Qarağat görmə üçün yaxşıdır. Bu, rəvayət deyil. Qarağat kapilyarların divarlarını gücləndirən və gözləri distrofiyadan qoruyan antosiyaninləri ehtiva edir. Giləmeyvə içərisində qan mikrosirkulyasiyasını normallaşdıran və iltihab əleyhinə təsir göstərən bir çox tanin var.

Yeri gəlmişkən, giləmeyvə dondurulduqdan və bişirildikdən sonra da faydalı xüsusiyyətlərini saxlayır. Odur ki, cem və ya dondurulmuş giləmeyvəni rahatlıqla istifadə edə bilərsiniz.

### Vitamin C

Sitrus meyvələrində - limon, portağal və greyfurt - C vitamininin çox olması səbəbindən gözlərimiz üçün bir çox fayda tapa bilərsiniz. Bu vitamin gözlərin kapilyarlarını gücləndirir. Tərkibində portağaldan 25 qat daha çox C vitamini var. Sitrus meyvələrinə allergiyanız varsa, fitoterapevtlər onları qızılgül cövhəri ilə əvəz etməyi məsləhət görür.

### Balıq

B6 vitamini və doymuş yağ turşularının zəngin mənbəyidir. Birincisi, mərkəzi sinir sisteminin normal işləməsindən məsuldur. Bədəndə B6 yoxdursa, gözlər tez yorulur. Və yağ turşuları, Omeqa-3 görmə qabiliyyətini qorumağa kömək edir. Balıq sevmir və yemək istəmirsinizsə, bu məhsulu balıq yağı kapsulları ilə əvəz edin. Onların nə dadı, nə də qoxusu var və faydaları balığın özündə olduğu qədərdir.

Ad - 00:34

### ƏTRAFLI

Project GLO

Dərini xilas edin

Rasiona yuxarıda sadalanan məhsulların hamısını əlavə etsəniz, yalnız görmə qabiliyyətinizi yaxşılaşdırmayacaq, həm əlavə çəkidən xilas ola, həm də dərinizi sızanaq və digər problemlərdən təmizləyə bilərsiniz. Ancaq dəri tonunu bərpa etmək, parlaqlığını qorumaq üçün bir sıra məhsullar var.

### Badam

Badamın tərkibində yağ turşuları, Omeqa-3, Omeqa-6, protein və biotin var, bu da dərimizi yaxşılaşdırır, elastik edir və yaşlanma prosesini ləngidir. Vitamin E ultrabənövşəyi şüaların təsirini azaldır, nazik qırışları aradan qaldırır. Omeqa-3 sizi kədər və pis əhval-ruhiyyədən azad edəcək təbii antidepresantdır.

### Çuğundur

Çuğundur suyu A vitamini, natrium, kalsium, kalium və maqneziumla zəngindir. Dərimiz üçün mükəmməl kokteyldir. O vücudun toksinlərdən xilas olmasına kömək edir və xolesterini azaldır. Ancaq bu məhsulla diqqətli olmaq lazımdır, çünki laksatif təsir göstərir. Arıqlamaq istəyənlər üçün effektivdir.

### Şokolad

Bəli, şirniyyat dərimiz üçün də faydalı ola bilər. Kakao miqdarı yüksək olan bir dilim şokolad - 70%-dən az olmamaqla əhval-ruhiyyəni yaxşılaşdırır, dəri, saç və dırnaqlara müsbət təsir göstərir.

### Süd məhsulları

Qatıq, kəsmik, kefir həzmi yaxşılaşdırır və bədəndən toksinlərin aradan qaldırılmasına kömək edir. Kefirə qarağat və ya böyürtkən əlavə edib qarışdırsanız, daha çox faydaları olacaq - gözlər, dəri və bədən quruluşu üçün.

Dietoloqlar və dermatoloqlar rasionda tarazlığın vacib olduğunu qeyd edirlər. Su balansını da unutmamalıyıq. Su zərərli maddələri bədəndən atır və faydalı olanları lazımi hüceyrələrə daşıyır. Odur ki, bütün orqanlar üçün mümkün qədər təmiz su, vitaminli meyvə içkiləri və ya təbii tərkibli limonad içməyə çalışın. (publika.az)

# Göy zaban: boyayır, yeyilir, sağaldır...

***Sənayedə göy zabanın yerüstü hissəsindən yun parçaları göy rəngə boyamaq üçün istifadə edilir.***

"Unikal" AZƏRTAC-a istinadən bildirir ki, bir çox qərb ölkələrində onu tərəvəz kimi də yetişdirirlər. Qida məqsədilə əsasən bitkinin təzə yarpaqlarından istifadə olunması daha geniş yayılıb. Çiçəkləri isə əsasən təzə və şəkərlənmiş halda tətbiq edilir.



Onu xiyarın əvəzedicisi kimi müxtəlif salat, sous, qarnir, soyuq şorba və borşlara qatırlar. Payızda toplanmış köklərindən əsasən yaşıl yağ hazırlanır, bitkinin kökləri pendir, kəsmik və xamaya əlavə edilməklə yeyilə bilər. Müxtəlif içkilərin ətirləndirilməsi üçün də ondan istifadə edilir. Göy zaban ətə və balığa qeyri-adi iştahaaçıcı dad verir. Təzə və qurudulmuş çiçəkləri likyor və qənnadı sənayesində keyfiyyətli xammal sayılır.

Onu əczaçılıq sənayesində boqato da adlandırırlar və bunu iki cür izah edirlər. Birinci versiyaya görə, "boqato" ərəb dilində "abu raş" sözündən götürülüb, tərcümədə "tərin atası" mənası verir və bu, bitkinin güclü tərlədici təsiri ilə əlaqədardır. Digər versiyaya görə, onun adı "burra" sözündən götürülüb və latınca"kobud yun parça" deməkdir.

İngiltərədə I Yelizavetanın hakimiyyəti illərində bitkinin çiçəkləri bütün salatlara əlavə edilirdi və elə hesab edirdilər ki, göy zaban onu yeyənlərdə xoş hisslər oyadır. İngilis təbibləri lunatizm, melanxoliya və mənfi əhvali-ruhiyyəni bitkinin şirəsi ilə müalicə edirdilər. Hazırda Avropada göy zabanın toxumlarından əldə edilən yağ diqqətlə tədqiq edilir.

Maddələr mübadiləsini yaxşılaşdırdığına görə bir çox daxili orqanların xəstəliklərində diyetik qida kimi qəbul edilir. Revmatik, podaqrik və digər oynaq, sümük və əzələ ağrılarında da onun tətbiqi müsbət nəticələr verir. Bitki əsasında hazırlanan preparatlar böyrəküstü vəzin qabıq maddəsinə stimuləedici təsir göstərərək adrenalin sintezini artırır və orqanizmi təbii olaraq tonuslandırır.

# Avropa çempionatı Parisdən alınıb Bakıya verildi



***İdman gimnastikası üzrə həm kişilər, həm də qadınlar arasında Avropa çempionatı bu il Bakıda keçiriləcək.***

"Unikal" qəzeti Avropa Gimnastikasının rəsmi saytına istinadən xəbər verir ki, kişilərin mübarizəsi 9 - 13 dekabrda, qadınların yarışı 17 - 20 dekabrda olacaq. Hər iki çempionat Tokio-2020 Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyacaq.

Bundan başqa Ukraynanın paytaxtı Kiyevdə keçirilməli olan bədii gimnastika üzrə Avropa çempionatı 26 - 29 noyabra təxirə salınıb.

Qeyd edək ki, idman gimnastikası üzrə kişilər arasında Avropa çempionatı 27 - 31 mayda Bakıda, qadınların analoji yarışı 30 aprel - 3 mayda Fransanın paytaxtı Parisdə keçirilməli idi. Bədii gimnastların qitə çempionatı isə 21 - 24 mayda nəzərdə tutulmuşdu.

# "İnstagram"dan ən çox qazanan idmançılar

***Koronavirus pandemiyası zamanı idmançıların "Instagram"-dakı qazancları bəlli olub.***

"Unikal" qəzeti "Daily Mail"ə istinadən xəbər verir ki, sosial şəbəkə martın 12-dən mayın 14-dək 3 futbolçuya 1 milyon avrodan çox qazandırıb. Bunlar İtaliya "Yuventus"unda çıxış edən Kriştianu Ronaldu, İspaniya "Barselona"sından Lionel Messi və Fransa PSJ-sindən Neymardır.



İki ay ərzində onların hər biri sponsorlardan 4 reklam alıb. 219 milyon izləyicisi olan Ronaldu 2,1 milyon avro, 151 milyon izləyicisi olan Messi 1,45 milyon avro, 138 milyon abunəçisi olan Neymar isə 1,33 milyon avro əldə edib. Müvafiq olaraq onların reklam postunun məbləği 526, 363, və 333 min avrodur.

Dördüncü yerdə sabiq basketbolçu Şakil ONil qərarlaşıb. 17 milyon izləyicisi olan keçmiş idmançı 653 min avro qazana bilib.

Sabiq futbolçu Devid Bekhem (453 min avro), kriketçi Virat Kohli (424 min avro), İtaliya "Milan"ının futbolçusu Zlatan İbrahimoviç (206 min avro), digər sabiq basketbolçu Dueyn Ueyd (128 min avro), braziliyalı futbolçu Daniel Alves (120 min avro) və boksçu Entoni Coşua (109 min avro) ilk "10-luğ"a daxil olub.

# Azərbaycan atletləri üçün müraciətin müddəti uzadıldı

***Beynəlxalq Atletika Federasiyaları Assosiasiyası koronavirus pandemiyasının yaratdığı fəsadlarla əlaqədar təxirə salınmış Tokio Yay Olimpiya Oyunları üçün təsnifat sistemini təqdim edib.***

"Unikal" qəzetinin qurumun rəsmi saytına istinadən xəbər verir ki, əsas prinsiplər dəyişməz qalır - idmançıların seçimi müvafiq yarışlar vasitəsilə baş verəcək.

Milli Olimpiya komitələri 2021-ci il mayın 21-dək marafon və 50 km məsafəyə qaçış yarışlarında iştirak üçün ərizə verməlidirlər. Digər yarışların iştirakçıları üçün son tarix iyunun 21-dir.

İyulun 1-də Tokio olimpiasına vəsiqə qazanan atletlərin siyahısı və dünya reytinqi dərc olunacaq. 2 - 5 iyulda Milli Olimpiya komitələri olimpiadaya qatılacaq idmançılar üçün müraciət etməlidirlər.

Qeyd edək ki, Tokio-2020 Yay Olimpiya Oyunlarının 2021-ci il 23 iyul - 8 avqust, Paralimpiya Oyunlarının isə 24 avqust - 5 sentyabrda keçirilməsi qərara alınıb.




# "Monako"nun futbolçusundan xeyirxah addım

***Fransanın "Monako" klubunun hücumçusu Balde Keyta koronavirus pandemiyası ilə əlaqədar Kataloniyada ciddi çətinliklərlə üzləşən 200 seneqallıya yardım edib.***

"Unikal" qəzeti xəbər verir ki, o, bu barədə sosial şəbəkə hesabında məlumat yayıb:

"Bu insanlar yemək tapa bilmirdilər, küçədə yatırdılar. Gündə 12 saat çalışırlar, koronavirus pandemiyasına görə dayanmırlar. Qida və geyim ehtiyaclarına yardımçı oldum. Bunu gizlicə etmək istərdim. Amma onlara qalmağa yer tapmaq üçün paylaşmaq məcburiyyətində qaldım".



Qeyd edək ki, Seneqal əsilli Keyta özü də İspaniyada, məhz Kataloniyada anadan olub. "Barselona"nın futbol akademiyasının yetirməsi olan Balde, "Latsio"da 4 mövsüm forma geyindikdən sonra 2017-ci ilin yayında "Monako" ilə 5 illik müqavilə bağlayıb. O, Seneqal yığmasında 30 oyun keçirib, 5 qola imza atıb.

Keyta Balde daha öncə Seneqalda koronavirusla mübarizə çərçivəsində 17 min avro yardım etmişdi.

# Çempionşipdə daha 9 nəfərdə koronavirus aşkarlandı

***İngiltərə Çempionşipində mübarizə aparan klubların kollektivindən növbəti dəfə koronavirus testi götürülüb.***

"Unikal" qəzeti xəbər verir ki, analizlər nəticəsində 9 nəfərin koronavirusa yoluxduğu müəyyənləşib.

İngiltərə Futbol Liqasından (EFL) verilən rəsmi açıqlamaya görə, mayın 30-da və iyunun 2-də Çempionşipdə çıxış edən 24 klubda bütövlükdə 1094 nəfər testdən keçirilib. Onların arasında 6 ayrı klubdan 9 nəfərdə koronavirus aşkarlanıb. Lakin adlar açıqlanmayıb.

Test nəticəsi müsbət çıxan şəxslər karantinə alınıblar və xüsusi nəzarətə götürülüblər.

Daha əvvəl Çempionşipdə 15 nəfərdə koronavirus aşkarlanmışdı.

# "Barselona" Neymardan imtina etdi

***PSJ-nin hücumçusu Neymarın "Barselona"-ya transferi baş tutmayacaq.***

"Unikal" qəzeti İspaniyanın "Sport" nəşrinə istinadən xəbər verir ki, "Barselona" Neymarın transferindən imtina edib. PSJ braziliyalı futbolçu qarşılığında 175 milyon avro istəyir və "barter" variantından istifadə etmək niyyətində deyil.

"Katalonlar"ın bütün diqqətini Lautaro Martinesə ("İnter") yönəldəcəyi bildirilir.

Neymar 2017-ci ildə dünya transfer rekordunu qıraraq 222 milyon avro müqabilində "Barsa"nı PSJ-yə dəyişmişdi.

# Daha bir Avropa ölkəsində milli çempionatın bərpa tarixi bəlli oldu

***Koronavirus pandemiyasına görə dayandırılan futbol üzrə Rumıniya çempionatında 2019/20 mövsümünün bərpa tarixi müəyyənləşib.***

"Unikal" qəzeti xəbər verir ki, sözügedən çempionat iyunun 12-də qaldığı yerdən davam etdiriləcək.

Bu barədə turnirin rəsmi saytı məlumat yayıb. Qalan bütün oyunların azarkeşsiz keçirilməsi planlaşdırılır. Bərpadan sonra baş tutacaq oyunlardan 2-3 gün əvvəl isə bütün futbolçulardan koronavirus testi götürüləcək.

Xatırladaq ki, əksər Avropa ölkələrində olduğu kimi, Rumıniyada da futbol oyunları martın əvvəlindən bəri dayandırılmışdı.

# Çempionlar Liqasının final mərhələsi Rusiyada keçirilə bilər

***2019-20-ci il UEFA Çempionlar Liqasının final mərhələsi Rusiyada keçirilə bilər.***

"Unikal" qəzeti xəbər verir ki, koronavirus pandemiyası ilə əlaqədar 1/8 final mərhələsində yarımçıq qalmş turnirin qalan hissəsini bir ölkədə mini-turnir kimi keçirmək məzərdə tutulur.

UEFA bununla əlaqədar olaraq bəzi ölkələrə müraciət ünvanlayıb. Almaniya, Rusiya və Portuqaliya bu turniri qəbul etməyə razılıq verib. Oyunların 8-29 avqustda keçirilməsi nəzərdə tutulur.

Çempionlar Liqasının formatı və tarixi barədə yekun qərar UEFA-nın iyunun 17-də keçiriləcək İcraiyyə Komitəsinin iclasında qəbul olunacaq.

Xatırladaq ki, 2019-20-ci il UEFA Çempionlar Liqasının final matçı İstanbulda keçirilməli idi.

Səhifəni hazırladı: Aygün İlqarqızı

# "Xəyanət varsa, sevgi ola bilməz" - Gülay

***"Xəyanəti bağışlamaq olmaz. Xəyanət təkcə qadın və kişi münasibətlərində olmur. Qadınla kişini birləşdirən istəkdir, sevgidir. Onların arasında xəyanət varsa, nə istək, nə də sevgi ola bilər".***



"Unikal" axşam.az-a istinadən bildirir ki, bu sözləri müğənni Gülay Zeynallı "Ulduzun vaxtı" proqramında qonaq olarkən deyib. Sevgidən, xəyanətdən danışan sənətçi "Sənət üçün nəyi qurban verdin" sualına belə cavab verib: "Hər kəs ailəsini qoruyur, orada bir övlad varsa lap çox... Analıq hissini yaşayan qadın xoşbəxtdir. Bir şeyə sənin həvəsin varsa, bu, qurban deyil. Qismətə inanıram. İnsanlar var ki, qismətə inanmır, bəd kimi bütün günü gözünün yaşını axıdır. Ölüm-itimə də qismət kimi baxıram. Qısqanc insanam. Çox istədiklərimi paylaşa bilmirəm. Hətta rəfiqəmi də qısqanıram. Həyatda sevgi ilə yaşamaq lazımdır".

Gülay idmançı həyat yoldaşı Kamil Zeynallı ilə bağlı ünvanlanan suala isə belə reaksiya verib: "İfaçıyam, mahnılar yazdırıram, zaman ayırıram, maddiyat, sağlamlığımı sərf edirəm. Mahnı yazdıranda səhərəyaxın evə gəlirəm. Sonra da həyəcan çəkirəm ki, görəsən, tutacaq? İstəyirəm çəkdiyim əziyyət qarşısında sənətdən danışsınlar. Kamil də tanınmış insandır, məşqçidir. Onun da işi var. O da efirə gedəndə deyirəm, çalış, işindən sual versinlər. Hər şey yaxşıdır, yaxşı da olacaq".

# "Məni döyür, stola bağlayırdı" - Oğlundan müğənni ilə bağlı iddia



***12 ildir övladını görməyən müğənni Dana Durdana "Bizimləsən" verilişinə gələrək kömək istəyib.***

"Unikal" axşam.az-a istinadən bildirir ki, sənətçi verilişin yaradıcı heyətindən onu oğlu Muradla görüşdürməyi, danışdırmağı xahiş edib. Durdana bildirib ki, ərindən boşananda oğlunun 6 yaşı olub və uşağını əlindən alıblar.

Ötən gün isə Murad efirə zəng edərək, anasını istəmədiyini deyib:

"Ağlamağa ehtiyac yoxdur. Bu məsələni bitirmək istəyirəm. Üç yaşlı uşağı kosmetik vasitələrini dağıtdı deyə, döymək olar? Məni döyürdü, ayağımı stola bağlayırdı. Durdana xanım, bibilərim, onların ərləri haqda yalan sözlər deyir. Onu istəmirəm, heç ürəyimdə bir damcı da ona qarşı rəhm yoxdur. Mənə baxan, qayğımı çəkən bibilərim olub".

Göz yaşlarını saxlaya bilməyən Durdana "Səni həmişə çox istəmişəm. Qurban olum, mənə şans ver. Oğlum məni çox istəyir. İstəməsə, efirə zəng vurmazdı. Ona bibiləri müdaxilə edir. Sənə də ana lazım olacaq, arxandayam. Nə vaxt istəsən zəng et" sözlərini söyləyib.

Qeyd edək ki, Durdana dayısı oğlu ilə ailəli olub və ayrılıb. O, boşanandan sonra oğlu atası ilə qalıb. İfaçı illərdir oğlunun onu görmək istəmədiyini söyləyib.

# "Elə dəli şeylər etmək istəyirəm ki..." - Natavan Həbibi

***ARB TV-nin "Show News" verilişinin növbəti müsahibi Natavan Həbibi olub.***

Müğənni insanların psixoloji durumundan və komplekslərdən danışıb: "Elə insanlar var ki, özlərini başqa cür görmək istəyirlər. Özüm daxil o insanlara aruzm odur ki, içlərində rahatlıq tapsınlar və özlərini necə hiss edirlərsə elə də göstərməyə hünərləri olsun. Bu çox çətin məsələdir. Mən bəzən çəkilişlərdə elə dəli şeylər etmək istəyirəm ki... Səviyyəsiz şeyləri nəzərdə tutmuram, sənətlə bağlı deyirəm. Ürəyimdə deyirəm ki, bu şeyi bacaradım, məndə alınardı. Bilirəm ki, müasirlikdir, etsəm, gənclərin ürəyi gedəcək. Sonra deyirəm ki, yaşda böyüklər bunu necə başa düşəcək".



# Afətə görə dostluğu bitirdilər

***Bir vaxtlar yaxın rəfiqə olan Əməkdar artist Nüşabə Ələsgərli ilə müğənni Nazənin küsüb.***



Axşam.az xəbər verir ki, ifaçıların arasının dəyməsinə səbəb müğənni Afət Fərmanqızı olub. Belə ki, açılışlardan birində Afətlə Nüşabə arasında mübahisə yaşanmışdı. Sənətçilər bir-birinin ünvanına sərt sözlər demişdi.

Həmin hadisədən sonra Nazəninin Afətlə rəfiqəlik etməsi digər xanım ifaçının xoşuna gəlməyib. O da keçmiş rəfiqəsi ilə dostluğuna son qoyub.

Qeyd edək ki, bundan əvvəl müğənnilər müsahibələrdə, verilişlərdə bir-birinin ünvanına təriflər yağdırıb, dostluqlarından ağızdolusu danışırdılar.

# "Ədalət Şükürovdan 3 min borc almışam" - Müğənni Ceyhun

***Müğənni Ceyhun Əliyev karantin günlərində maddi sıxıntı çəkdiyini bildirib.***

Axşam.az xəbər verir ki, sənətçi "5/5" verilişində Əməkdar artist Ədalət Şükürovdan borc pul aldığını deyib:

"Ədalətdən 3 min manat borc almışam. Ən birinci o, məni yığdı ki, ehtiyacın olsa, de. Şou-biznesdə ən çox pul qazananlardan biri Ədalətdir.

Evlənəndə də mənim elçiliyimə Ədalət getdi. Qızı mənə vermirdilər. Ədalət getdi ki, gözümün qabağında addımlayıb, bütün uğurlarını görmüşəm. Valideynlər fikirləşirdilər ki, müğənnidir, ailəyə bağlı olmayacaq. İndi iki övladım var: qızım 6, oğlumun 2 yaşı var".